# CƏNUBİ AMERİKA ÖLKƏLƏRİNDƏ GENDER PROBLEMLEƏRİ

## Mühazirə toplusu

**Müəllim: Ələsgərova Sara**



**2024**

## Mövzu 1. Gender elminə giriş.

İnsan hüquqları ilə əlaqəli olan gender bərabərliyi cəmiyyətin bütün sahələrində, eləcə də şəxsi həyatda kişi və qadına bərabər imkanların və iştirak hüququnun verilməsidir. Bu o demək deyil ki, hər iki cins eynidir, bu, daha çox "hər ikisi eyni hüquqa və ləyaqətə malikdir" deməkdir. Bütün insan hüquqları kimi, gender bərabərliyinə görə də mübarizə aparmaq, onu müdafiə etmək və rəğbətləndirmək lazımdır. Yüz əlli ildən artıqdır ki, emansipasiya uğrunda qadın hərəkatı əksər qadınlara qarşı geniş yayılmış diskriminasiyanın kökünün kəsilməsi, cəmiyyətin həyatında kişi və qadınların daha bərabərhüquqlu iştirakını diqqət mərkəzində saxlayır. Nəticədə bu gün Avropada yaşayan qadın və kişilərin həyatı əvvəlki əsrə nisbətən əhəmiyyətli dərəcədə fərqlənir. Qadınların ən çox uğur qazandığı sahələr: bərabər təhsil imkanı; əmək bazarında qadınların geniş təmsil olunması; qadınların iqtisadi vəziyyəti; məişət işlərinin bölüşdürülməsi və uşaqlara qulluq; ailənin strukturu; gənclərin mədəniyyəti; yeni informasiya və kommunikasiya texnologiyaları kimi sahələrdir. Cəmiyyətdə münasibətlərə və gender bərabərliyi sahəsində əhəmiyyətli inkişafa baxmayaraq, Avropada hələ də bu sahədə bəzi maneələr mövcuddur. Gender nədir? Cins və gender eyni məfhum deyil. Cins – bioloji amildir. Bütün insanlar 2 bioloji fərd olaraq dünyaya gəlirlər: qız və oğlan. Gender isə sosial vəziyyətdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bunu belə izah edir: "Cins" – kişi və ya qadınları müəyyən edən bioloji və fizioloji xarakteristikaya aiddir. "Gender" – müəyyən cəmiyyətdə kişi və qadına xas olduğu hesab edilən sosial rollar, davranış, fəaliyyət növləri, xüsusiyyətlər deməkdir. Başqa sözlə: "Kişi" və "Qadın" – cins, "maskulin" və "femin" isə gender kateqoriyasıdır.

Cinsi xüsusiyyətlərə aid nümunələr: qadınlar körpəni ana südü ilə qidalandıra bilər, kişilər isə yox; cinsi yetişkənlik dövründən sonra qızlara nisbətən oğlanların əksəriyyətində bədənin əzələ qüvvəsi artır və s.

Gender xüsusiyyətlərinə aid nümunələr: Avropada qadınlar eyni işə görə kişilərə nisbətən az məvacib alırlar; Bir çox ölkələrdə qızlar daha çox rəqslə məşğul olmağa, oğlanlar isə daha çox futbol oynamağa meyilli olurlar; Bütün dünyada qadınlar və qızlar, kişi və oğlanlara nisbətən daha çox ev işləri ilə məşğul olurlar; oğlanlar qızlara nisbətən daha çox fiziki cəzalara məruz qalırlar. Eyniliyin və fərdiliyin mühüm hissəsi olan gender rolları sosiallaşma vasitəsi ilə formalaşır. Bu gün, nəinki ailə, məktəb və iş yerləri, həmçinin yeni informasiya texnologiyaları, musiqi və filmlər də daxil olmaqla kütləvi informasiya vasitələri sosiallaşmaya təsir göstərir.

Ənənəvi ilə yanaşı, yeni sosiallaşma qüvvələri də gender stereotiplərinin saxlanmasına və ötürülməsinə xidmət edir. Gender bərabərliyi Avropada kifayət qədər yayılmamışdır. Ənənəvi gender stereotipləri Avropa mədəniyyətində dərin iz salmışdır və gündəlik təcrübədə özünü biruzə verir. İsveçin keçmiş gənclər və demokratiya naziri Britta Leyon öz təqdimatında bu bərabərsizliyin Avropa gəncləri arasında necə təzahür etdiyini

göstərmişdir: • oğlanlar qızlara nisbətən təxminən 20% çox məvacib alırlar; • əgər gənclər birlikdə yaşayırlarsa, qızlar oğlanlara nisbətən iki dəfə çox ev işləri ilə məşğul olurlar; • bəzi ölkələrdə gənc ataların çoxu uşağa qulluğa görə məzuniyyət götürürlər. Kişilər mühüm məsələlərin həllində qadınlarla müqayisədə daha çox iştirak edirlər. Bəzi müsbət tədbirlərə baxmayaraq, qadınların siyasi fəaliyyəti hələ də əhəmiyyətsiz olaraq qalır: Avropada parlament üzvlərinin ancaq 21%-ni qadınlar təşkil edir, bu, Türkiyədə 4,4%, İsveçdə isə 45% təşkil edir. Nə qədər ki, kişilər siyasətdə, maliyyə sahəsində və kütləvi informasiya vasitələrində əsas mövqe tuturlar, siyasi proqram və ictimai diskursları onlar təyin edirlər. Ümumilikdə kişi cinsi hələ də normativ və standart sayılır.

***Gender stereotipləri.*** Cəmiyyətimizdə bir çox institutlar ənənəvi gender stereotiplərini möhkəmləndirirlər. Kütləvi informasiya vasitələrində qadınlar özünü qurban verən, qayğı göstərən, başqaları haqqında fikirləşən bir varlıq kimi göstərildiyi halda, kişilər güclü, ağıllı, təşəbbüskar və bütün sahələrdə uğur qazanan kimi təsvir olunurlar. Kütləvi informasiya vasitələri kişilərin gücünü və müvəffəqiyyətini vurğuladığı halda, qadını, hətta uğurlu qadını ilk növbədə xarici görünüşünə görə qiymətləndirirlər. Beləliklə, televiziya, radio, məktəb dərslikləri, qəzet və jurnallar, filmlər daxil olmaqla kütləvi informasiya vasitələri kişi və qadın haqqında stereotipləri qoruyub saxlayır və yayırlar. Kütləvi informasiya vasitələri ilə birlikdə ailə, məktəb, əyləncə mərkəzləri də gender stereotiplərinin möhkəmləndirilməsi üçün məsuliyyət daşıyır. Aparılan araşdırmalar göstərir ki, məktəbdə müəllimlər oğlanlara aktivliyinə, aqressivliyinə, özünə əminliyə görə müsbət qiymət verdikləri halda, qızları daha çox zərifliyinə, passivliyinə, sözə qulaq asmalarına, rəhmli olmalarına görə dəyərləndirirlər. Gender stereotipləri məktəb illərində formalaşır deyə, bir çox qızları müstəqilliyinə, rəqabət marağına, ictimai həyatda fəallığına görə rəğbətləndirmirlər. Stereotip gözləntilərə uyğun gəlməyən qızlar tənqidə, qınağa və hətta zorakılığa məruz qala bilər. Ənənəvi gender stereotipləri qızlarla bərabər oğlanlara da toxunur. Ailələrin özünəməxsus xüsusiyyətləri, kişi işsizliyi və qadının cəmiyyətdə genişlənən rolu oğlanlardan gözlənilən mübarizə aparmaq, qalib gəlmək kimi xüsusiyyətlərlə uyğun gəlmir. Bu təzadlar oğlanın cinsi identifikasiyasının inkişafına mane olur. Kişi haqqında stereotiplərə uyğun olmayan gənc aqressiyaya, təcridə və diskriminasiyaya məruz qala bilər. Sual: Cəmiyyətimiz ənənəvi gender stereotiplərinə nə dərəcədə uyğundur? Bu stereotiplər övladlarımızın və bizim həyatımıza necə təsir göstərir?

İnsan anadan olduğu andan gender sisteminin təsir obyekti olur. Ənənəvi cəmiyyətlərdə uşağın dünyaya gəlməsi ilə əlaqədar simvolik adətlər mövcuddur, dünyaya gəlməmiş uşağa cinsinə uyğun rəngdə geyimlər seçilir, oyuncaqlar alınır və hətta körpə uşağın cinsini bilmədən bu əlamətlərə görə onu təyin etmək mümkün olur. Bəzən dünyaya yeni gəlmiş uşaqlarla cinsinə uyğun rəftar edirlər; məsələn, valideynlər çox vaxt yeni dünyaya gəlmiş oğlan uşaqlarını çox yedizdirdikləri halda, qız uşaqlarını daha çox danışdırırlar. Gender normaları ailədə uşaq tərbiyə etmə prosesində (valideyn və ya qohum qismində),

təhsil sistemində (uşaq təşkilatlarında tərbiyəçi və ya müəllim qismində), bütünlükdə mədəniyyətdə (kitablar və ya KİV vasitəsilə) uşaqların şüuruna yeridilir, bəzi əxlaq qaydaları formalaşdırılır və əsl kişi və əsl qadın necə olmalıdır təsəvvürü yaradır. Biz özümüzü müxtəlif yollarla təsvir edirik. Bunu ən çox mən qadınam və ya mən kişiyəm kimi bioloji əsaslara kökləyirik. Bu sözlərlə heç vaxt üzünü görmədiyiniz qeyriləri haqqında nəticə çıxarmaq olur. Bu şəkildə verilən təsvir insan anatomiyasının sadə təsvirindən kənara çıxır. Bu məlumat insanın təkcə cinsindən deyil, həmçinin şəxsi keyfiyyət və davranışından da xəbər verir. Yuxarıdakı ifadələri işlətməklə insanlar sizin nə geyinəcəyinizdən, özünüzü necə ifadə edəcəyinizdən, hətta həyat fəaliyyətinizdən də danışa bilirlər. Əgər qadınsınızsa, onlar sizi donda təsəvvür edəcək, amma şalvarda da görsələr təəccüb etməzlər. Çoxlarına elə gəlir ki, qadınsınızsa, siz nisbətən passiv, qeyri-müstəqil fikirli, emosional və tez ağlayan olmalısınız. Siz digərlərinə qulluq etməkdən, uşaqların qayğısına qalmaqdan, bir sözlə, fədakarlıqdan zövq almalısınız və xarici görünüşünüz sizin üçün çox önəm kəsb etdiyi üçün onunla hədsiz məşğulsunuz, biznes məsələləri, dünyada gedən proseslərlə o qədər də maraqlanmırsınız, mexanikadan isə heç bir məlumatınız yoxdur. Əgər siz kişisinizsə, onlar sizi şalvarda təsəvvür edəcəklər, birdən sizi donda görsələr təşfişə düşərlər, lap qorxa da bilərlər. Onlara elə gəlir ki, siz kişisinizsə, deməli, hədsiz inadkar, müstəqil və öz emosiyalarına nəzarət etməyi bacaran adamsınız. Onlara görə siz öz işinizlə çox ciddi məşğul olan, ambisiyalı, işinizə vurğun, elmdən, idmandan, biznesdən yaxşı xəbərdarsınız və dünyada baş verən hadisələrdən, mexanikadan kifayət qədər məlumatlısınız. Beləliklə, cəmiyyətdə öz inamlarına uyğun kişi və qadınlarla fərqli rəftar edilir və bəzən onlar qarşı-qarşıya qoyulurlar. Başqa sözlə, bioloji verilmiş cins (yəni erkəklik və ya dişilik) sosial kateqoriyanın konstruksiyasını əmələ gətirmək üçün əsas baza kimi istifadə edilir və biz bunu gender: maskulinlik və ya femininlik adlandırırıq. Bu, o deməkdir ki, sizin bioloji cinsinizə uyğun təsvirinizdənsə, genderə uyğun sosial təyin olunmuş xarakterinizin təsviri sizin haqqınızda daha aydın təsəvvür yarada bilər. Əhəmiyyətlisi odur ki, bu diferensasiya təkcə fərdlərarası səviyyədə deyil, cəmiyyət strukturu səviyyəsində də baş verir. Cəmiyyət özü üçün bu ştrixləri, davranışları və sosial qarşılıqlı təsiri cins üzərində cızır. Bu xüsusiyyətlər cəmiyyət institutlarında təsdiq edilir, yəni iqtisadiyyat, siyasət, təhsil sistemi, din, ailə və digər qurumlarda öz əksini tapır. Bu 20 insitutlaşdırılmış gender diferensasiyası modeli cəmiyyətdə cins-gender sisteminə aid edilir. Cins-gender sistemi tarixən, istər qarışıq mədəniyyətlərdə, istərsə də digər mədəniyyətlərdə müxtəlif cür təzahür etmişdir. Buna baxmayaraq hər sistemdə ən azı üç qarşılıqlı komponent mütləq mövcuddur: a) bioloji cins əsasında gender kateqoriyalarının sosial konstruksiyası; b) əməyin cinsə görə bölünməsi, xüsusi tapşırıqlar cinsə, əsasən, bölünür və yerinə yetirilir; c) seksuallığın sosial tənzimlənməsi, seksual ifadənin xüsusi formalarının ya pozitiv ya da neqativ şəkildə sanksiyalar alması. Əslində, genderin konstruksiyası polyar (qütbləşmiş) və ziddiyyətlidir. Sosial normalar zaman-zaman dəyişir, genderin asimmetriyası isə sabit

qalır. Cins-gender sistemi sosial stratifikasiya kimi funksiya göstərir, qadın və kişilər, onlara aid davranış və xüsusiyyətlər cəmiyyətdə qeyri-bərabər qiymətləndirilir. Cins-gender sisteminin qadın-kişinin həyatlarına və həyat tərzlərinə çox böyük təsiri vardır. Bu an qadın statusu üzrə BMT Komissiyasının 1980-ci ildə verdiyi hesabatdan bir məqamı xatırlatmaq yerinə düşərdi: «Nəzərə alsaq ki, qadınlar dünya əhalisinin təxminən 60%-ini təşkil edirlər, görülən işlərin üçdə ikisini yerinə yetirirlər, lakin dünya gəlirinin onda birinə sahibdirlər, dünya mülkiyyətinin 1%-dən azı onlara məxsusdur». Qeyd edilən statistikadan üç onillikdən çox bir zaman keçsə belə, verilən rəqəmlərdə ciddi bir dəyişiklik nəzərə çarpmır. İnsanı təəccübləndirən belə faktlar qadın və kişilərin patriarxal cins – gender sistemi mövcud olan cəmiyyətdəki vəziyyətini əks etdirir. *Patriarxal elə bir cins – gender sistemidir ki, cəmiyyətdə kişilər dominantlıq edirlər, maskulinlik feminինlikdən daha yüksək qiymətləndirilir.* Feministlər isə patriarxal cəmiyyətin əksi hesab edilən, cinslərin bərabərliyi prinsipləri üzərində bərqərar olan eqalitar cəmiyyətə üstünlük verirlər. Bu, elə bir cəmiyyətdir ki, kişilərə məxsus olan hər bir hüquq və imkan qadınlar üçün də əlyetər olmalıdır. O da qeyd edilməlidir ki, heç də kişilərin hamısı partiarxal cəmiyyətdən eyni cür faydalanmırlar, lakin bu da bir həqiqətdir ki, belə cəmiyyətdə qadınların üstünlükləri kişilərə nisbətən daha az olur.

*Gender zorakılığı*. Gender zorakılığı – kişi və qadınlar arasında fərqi istismar edən, differensial gender qeyri-bərabərliyinin nəticəsi olan, fiziki, yaxud psixoloji sağlamlığa mənfi təsir göstərən fiziki, cinsi, psixoloji, iqtisadi, yaxud sosiomədəni zorakılıq formalarının təsviri üçün istifadə oluna biləcək termindir. Gender zorakılığı qadınlara və kişilərə təsir göstərə bilər, lakin o, qadınlara və qızlara daha çox təsir göstərdiyindən gender zorakılığı daha çox "qadına qarşı zorakılıq" kimi təhrif edilir. Gender zorakılığı hər bir ölkədə mövcuddur və mədəni, sinfi, təhsil, etnik, yaxud yaranma sərhədi yoxdur. Statistika göstərir ki, Avropada qadın və qızların 12-15%-i məişət zorakılığı ilə qarşılaşırlar. Qadınlara qarşı aqressiya və cinsi zorakılıq təhsil müəssisələri və iş yerləri daxil olmaqla, müxtəlif həyati situasiyalarda baş verir. Məsələn, ənənəvi "kişi ləyaqətinə" malik olmayan oğlanlar və kişilər öz ünvanlarına istehza və zorakılıqla qarşılaşırlar. Gender zorakılığı qadın və kişilərin bərabərliyinə ciddi maneələr yaradır və bu, insan hüquqlarının pozulmasıdır. Gender zorakılığı aktı çox vaxt qurbanın yaxın qohumları tərəfindən həyata keçirilir. Dövlət müəssisələri gender zorakılığının bütün formalarının qarşısının alınması üzrə işlər görməli və oxşar situasiyalara görə məsuliyyət daşımalıdır. Bu məqsədlərə çatmaq üçün insan hüquqları üzrə mühüm sənədlərdən biri, hazırda 185 ölkənin imzaladığı, qadınlara qarşı diskriminasiyanın bütün formalarının aradan qaldırılması haqqında BMT-nin Konvensiyasıdır. Bu sənəddə deyilir: "Konvensiya ictimai-siyasi həyatda qadınlara bərabər iştirak imkanları (təhsil, sağlamlıq, əmək, səsvermə və seçilmə hüququ daxil olmaqla) verilməsinin bünövrəsini təmin edir. İştirakçı dövlətlər qadınların bütün insan hüquqları və əsas azadlıqlardan istifadəsini təmin etmək üçün bütün qanunverici və digər tədbirlərin görülməsinə razılıq vermişdir."

**Gender münasibətləri, gender anlayışının formalaşması.**

İngilislərdə köhnə bir məsəl var: «Dünya kişilərindir; qadının yeri evdir». Elizabet Cenuey bunu «Kişi dünyası; qadın yeri; sosial mifologiyanın araşdırılması» əsərində belə şərh etmişdir: «Dünyanın cinsi əlamətə görə bölünməsi hələ də saxlanılır, ən əsası hökm sürür. Qadının yeri burada artıq müəyyən edilmişdirsə, onda aydın məsələdir ki, qalan bütün dünya kiməsə, başqasına məxsusdur, nəticə etibarı ilə – Allah bu yerdə yoxdursa, – bu yer kişilərindir» (Elizabeth Janeway, 1971). Belə bölgü təkcə ingilislər üçün nəzərdə tutulmamışdır, bu, patriarxal rejimin hökm sürdüyü bütün dünya xalqlarının beyninə və mədəniyyətinə elə həkk olunmuşdur ki, bunun illüziya olmamasına heç kəs şübhə etmir. Patriarxat cəmiyyət strukturu qadın araşdırmaları üçün həmişə başlanğıc olub və bu struktur dünyanın əksər ölkələri üçün səciyyəvidir. Belə cəmiyyətdə həmişə kişi maraqları qadın maraqlarını üstələyir. Bu güc münasibətləri əməyin bölgü prosesi ilə başlayır, cəmiyyətin sosial təşkili forması ilə bitir. Bu sistemdə sosial fərqlər bioloji fərqlər ilə əsaslandırılır. Patriarxat münasibətlər struktur xarakter daşıyır: Bunlar həm qurumlarda, həm də cəmiyyətin sosial praktikasında mövcuddur. Əgər bu patriarxat Şərqdə sistem kimi mövcuddursa, dünyanın digər regionlarında, məsələn, Avropada, Amerikada daha çoxşaxəli və çoxsaylıdır. Patriarxat cəmiyyətdə həyat fəaliyyətinin iki sferası var: Yüksək statuslu hesab edilən ictimai və o qədər də güclü statusa malik olmayan özəl. Bu sferaların fərqliliyi hakimiyyət və kişilərin arasındakı tabeçilikdə əks olunur, qadınlar isə daha çox ümumi inhisar olunmuş sferaya, özəl sahəyə sıxışdırılmışdır. Yalnız gender sosial cins kimi gündəmə gəldikdən sonra bu münasibətlərə yenidən baxmaq imkanı yaranmışdır. **İlk dəfə bioloji və sosioloji cinsin fərqləndirilməsi ideyası Marqaret Mid tərəfindən «Üç primitiv cəmiyyətdə cins və temperament» (1935) kitabında irəli sürülmüşdür.** Bu, əvvəlcə feminist ideya kimi hesab edilsə də, sonralar digər elmlər də cins və gender arasında fərqdən bəhs etməyə başladılar.

***Gender sözü ilk dəfə Ann Oukli tərəfindən qadın və kişilərin bioloji və sosial xarakterlərini təsvir etmək üçün istifadə edilmişdir.*** Genderin ən sadə təsnifatı Ann Oukli tərəfindən belə verilmişdir: *İnsanlar dişi və erkək doğulurlar, qız və oğlan kimi böyüməyi öyrənirlər, qadın və kişi kimi yetişirlər* (Ann Oakley, 1972). Onlara cinslərinə uyğun davranış, inam, münasibət, rollar, fəaliyyət və başqaları ilə necə dolanmaq təlqin edilir. Bu öyrədilmiş davranışlar gender identikliyini yaradır və gender rollarını təyin edir. Qadın və kişilərin cəmiyyətdə oynadıqları rollar-həm bioloji, həm də sosial rollar çox önəmlidir, lakin sosial rollar bioloji rollardan daha çox əhəmiyyət kəsb edir. Həm bioloji, həm sosioloji rollar – mədəniyyətə, dinə, çoğrafi şəraitə görə dəyişə bilər. Qadınların cəmiyyətdəki indiki durumu və inkişaf səviyyəsinin elmi şəkildə araşdırılması məsələləri bu gün bizi qane edirmi? Tarix boyu cəmiyyətdə qadınların durumu bir çox elmlərin tədqiqat mövzusu olmuşdur. Bu mövzuya həm filosoflar, həm sosioloqlar, həm də

tarixçilər öz mövqelərini bildirmişlər. Yeni və ən yeni dövrün maarifçi mütəfəkkirləri: F.Volter, D.Didro, J.Russo, K.Sen-Simon, Ş.Furye, T.Mor, T.Kampanella, C.Lokk, D.Yum, K.Spenser və başqaları öz əsərlərində qadın hüququnun müdafiəsi, cəmiyyətdə qadınların mühüm sosial rolu barədə ciddi mülahizələr söyləmiş, yeni ideyalar yürütmüşlər. Müasir feminist alimlər bu mövzuya daha fərqli bir baxış nümayiş etdirirlər; yəni dünya əhalisinin yarısından çoxunu təşkil edən qadınların bugünkü durumuna daha ciddi və elmi mövqedən yanaşırlar. Qadın və kişilərlə bağlı problemləri hər hansı bir elmin tərkib hissəsi kimi deyil, Gender araşdırmaları adlanan ayrıca bir elmin predmeti kimi tədqiq edirlər.

Gender tədqiqatlarının mərhələləri:

- İlk mərhələ:XIX əsr sonu – 1960-cı illər. Sənaye inqilabı, maarifçilik ideyaları, qadınların təhsil və seçki hüquqları uğrunda mübarizə (sufrajistlər hərəkatı). Qadınların hüquqi, sosial və siyasi bərabərliyinə dair ilk tələblər. Tarix, ədəbiyyat, təhsil kimi sahələrdə "qadınların görünməzliyi" məsələsinin gündəmə gətirilməsi.
- 1960–1970-ci illər- Feminist akademik yanaşmaların formalaşması.Tarixi kontekst: İkinci dalğa feminizm; Vyetnam müharibəsi sonrası sosial hərəkatlar; insan haqları hərəkatı. Universitetlərdə "Women's Studies" (Qadın Araşdırmaları) proqramlarının yaranması. Qadınların işçi qüvvəsindəki rolu, reproduktiv hüquqlar, məişət zorakılığı kimi mövzuların araşdırılması, patriarxiya anlayışının elmi təhlilə daxil olması
- 1980-ci illər- Gender anlayışının nəzəri əsaslarının qurulması. Postmodernizm, postkolonial tənqid, "üçüncü dalğa" feminizmin başlanğıcı dövrüdür. "Sex" (bioloji cins) ilə "Gender" (sosial konstruksiya) anlayışlarının fərqləndirilməsi. Genderin sosial rollar, güc münasibətləri və mədəniyyət tərəfindən formalaşdırıldığı ideyası.
- 1990-cı illər- Genderin kəsişməli yanaşması. Qloballaşma, beynəlxalq insan hüquqları müqavilələri, postkolonial tədqiqatların artması. Genderin irq, sinif, etnik mənsubiyyət, din, seksual orientasiya kimi faktorlarla kəsişməsinin təhlili. Qadınlıq və kişilik anlayışlarının çoxlu mədəniyyətlərdə fərqli formaları.
- Müasir mərhələ – 2000-ci illər – bu gün. Çoxşaxəli və qlobal gender tədqiqatları. İnternet və sosial media, gender bərabərliyi üzrə BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG 5), LGBTQ+ hərəkatlarının güclənməsi. Genderin yalnız qadınlarla bağlı mövzu kimi deyil, bütün cins kimliklərini əhatə edən geniş anlayış kimi öyrənilməsi. Transgender və qeyri-binar kimliklərin akademik diskursa daxil olması.

Cəmiyyətdə müəyyən cinsi rolların yerinə yetirilməsi ilə - həmin cəmiyyətdə nəyin kişiyə, nəyin isə qadına aid edildiyi əxlaq norması sistemi meydana gəlir. Gender anlayışı,

bioloji cinsindən asılı olaraq, insanlara cəmiyyət tərəfindən təlqin edilən sosial və mədəni normaların məcmusunu ifadə edir. Qadın və kişilərin psixoloji xüsusiyyətlərini, davranış modellərini, peşə və fəaliyyətinin növlərini müəyyən edən bioloji cins deyil sosial-mədəni qaydalardır. Cəmiyyətdə kişi və ya qadın olmaq yalnız bu və ya digər anatomik xüsusiyyətlərə sahib olmaq deyil, həm də cəmiyyət tərəfindən müəyyən edilmiş bu və ya digər gender rolunu icra etmək deməkdir. Gender - qadın və kişinin cəmiyyətdəki sosial rolunu və vəziyyətini təyin edən sosial model kimi cəmiyyət tərəfindən təşkil edilir. «Gender» ifadəsini, ilk dəfə olaraq, feminizmi təbliğ edən amerikalı qadınlar (latınca «femina» - qadın deməkdir) istifadə etmişdilər. Gender anlayışı "gender tətqiqatları", Qərbdə qadın hərəkatının inkişafı, qadınların öz hüquqları uğrunda mübarızəsi olan feminizmin hesabına yarandı. Lakin gender və feminizm – heç də bərabərhüquqlu anlayışlar deyildir.

Feminizm (ingilis-feminism) sözü latın sözü femina (qadın) əsasında yaradılıb və ilk dəfə olaraq XIX əsrin sonunda istifadə olunmağa başlandı. Hal-hazırda onun müxtəlif tərifləri var. Bəzən qadınların azadlıq uğrunda hərəkatının əsasında duran cinslərin bərabərliyi kimi başa düşülür. Təqdim etdiyimiz kursun obyekti isə genderin insanın cinsi mənsubiyyəti, onun insan mövcudluğunun ən müxtəlif sahələrində aşkarlığıdır. Genderin əsas obyektlərinə iri sosial – demoqrafik birlik kimi iştirak edən və eləcə də sosial statusu, funksiyaları, psixoloji xüsusiyyətləri, davranış və şüuru ilə bir birindən fərqlənən qadın və kişilər aiddir. Genderin əsas predmeti cəmiyyətdə iştirak edən kişi və sosial statusu və konkret şəraitin təsir altında tərəqqi etməsidir.

Fərdlərin gender şüurunun yaradılması sosial və mədəni stereotiplərin, normaların və təlimatların saxlanması və yayılması vasitəsi ilə baş verir. İnsan doğulandan etibarən gender sisteminin təsir obyektinə çevrilir - uşağa, cinsindən asılı olaraq müxtəlif rəngli pal-paltar, oyuncaqlar alınır. Hətta əksər hallarda oğlan uşağının anadan olması daha böyük fərəhlə qarşılanır. Ailə tərbiyəsi prosesində (valideynlərin və qohumların simasında), təhsil sistemində (uşaq müəssisələrində tərbiyəçi və müəllimlər simasında), ümumiyyətlə, mədəniyyət prosesində (kitablardan və kütləvi informasiya vasitələrindən) uşaqların inkişafda olan şüuruna gender normaları yeridilir, müəyyən olunmuş davranış qaydaları formalaşdırılır və «əsl kişi» kimdir, «əsl qadın» necə olmalıdır haqqında təsəvvür yaradılır. Cins və gender anlayışlarının fərqləndirilməsi sosial proseslərin dərk edilməsinin yeni nəzəri səviyyəsini ifadə edir. Dünyada qadın və kişilərin sosial xarakteristikalarının nəzərə çarpan müxtəlifliyi və bioloji xarakteristikalarının oxşarlığı belə nəticə çıxarmağa imkan verir ki, bioloji cins insanların sosial rollarının fərqlərinin izahı ola bilməz. Beləliklə, gender anlayışı meydana çıxarıldı. Gender – sosial cins olaraq cinsi fərqlərin bioloji deyil, sosial xarakterini nəzərə çarpdırır. 90-cı illərdə «qender» anlayışı feminizm və sosiologizm həddlərini aşaraq, onlarla köklü əlaqəsini itirməyib. Qenderin femininliyin qanadları altından çıxmasının səbəbi – maskulinliyə diqqətin

artması olub. Müasir cəmiyyətdə problemlər, bəzən çox kəskin və ağrılı, nəinki qadınlarda, həm də kişilərdə olur.
Tədqiqatlar göstərir ki, qadınlıq və kişiliyinin ayrı-ayrılıqda, onları müqayisə etmədən, qarşılıqlı əlaqə və münasibətləri müəyən etmədən, yanlış təsəvvürlər yaradır, həm kişi, həm də qadınlara xas olan ümumi keyfiyyətləri fərqli, xüsusi olduğunu göstərir. «Cins» diskursunun (mühakimənin) «gender» mühakiməsi ilə əvəz olunmasının tərəfdarları aşağıdakı fikirlərə istinad edirlər: gender anlayışı əvvəlki, yanlış stereotipləri aradan götürür; gender tədqiqatlarının həm obyekti, həm də subyekti – həm qadınlar, həm də kişilərdir; kişilik və qadınlığın formalaşmasında yalnız sosial, cinslərin anatomiya və fiziologiyası ilə bilavasitə bağlı olmayan amillərə diqqəti cəlb edir; eyni zamanda cins haqqındakı çoxsaylı nəzəri-metodoloji paradiqmaları (təlimləri) tədqiqat dairəsində saxlayır.
«Gender» termini (ingiliscə «qender»-cins, nəsil, yunanca eros, azərbaycanca «soy» - «mənşə», «nəsil», «əmələ gələn» kimi tərcümə olunur) dünyanın bəzi ölkələrinə (əsasən ingilisdilli) XX əsrin 60-cıillərində istifadə olunmağa başlandı. Eyni zamanda İngiltərədə, Fransada, bir çox Şərqi Avropa ölkələrində bu söz qəbul olunmadı; tədqiqatçılar burada onun əvəzinə «women studies» («qadın tədqiqatları») ifadəsini işlədirlər. *Bəzi alimlər «gender» dedikdə yalnız cinslərin bioloji və fizioloji əlamətlərinin məcmusunu nəzərdə tutur, digərləri – «sosial cins» olduğunu qeyd edir, elələri də var ki, ümumiyyətlə «qender» terminini qəbul etmir, əvəzinə «qadın tədqiqatları» ifadəni işlədirlər.* İngilis sözü olan «qender» cinsi bildirir; məs., dilçilikdə cins və ya növ olduğunu (yəni müəyyən sinfə aidiyyatını) bildirən, yaxud insan cəmiyyətində – ailə, nəsil mənsubluğunu, nəsillərin bağlılığı və əlaqəsini bildirən söz.
Cinslərin fərqlərinin başlıca əlamətləri cəmiyyətin dünyagörüşü və mədəniyyəti ilə bağlıdır; məhz buna görə onlar, demək olar ki, həmişə cinslərin həqiqi fərqlərinin yox, konkret, mövcud cəmiyyətin mənəvi-maddi dəyərlər və ideallarının mürəkkəb sistemini əks etdirir. Süni şəkildə qadın və kişi cinslərində aparılan bölgünü (hətta dil səviyyəsində) cəmiyyətin sosio-mədəni strukturunda izləmək olur. Məs., ingilis dilində olan «-he -she -it» fərqləndirmə Azərbaycan dilində yoxdur; burada vahid əvəzlik «o» işlədilir. Beləliklə, kişi və qadınların arasındakı bioloji fərqlər cins sahəsinə aiddir. Bu ifadələrə (yəni «kişi» və «qadın») müəyyən şəraitdə müəyyən tarixi dövrdəki mədəni sahədə verilən məna isə gender tədqiqatlarının obyektidir (gender studies). Analitik termin mənasında «gender» sözünü elmi ədəbiyyatda ilk dəfə 1961-ci ildə amerikalı tarixçi Coan V.Skott öz «Gender: tarixi təhlilin əhəmiyyətli vahidi» məqaləsində istifadə etdi. Burada deyilir: «gender cinslərin fərqlərinə əsaslanan sosial münasibətlərin elementi, hakimiyyət münasibətlərini bildirən əsas yoldur».

## Mövzu 2. Gender Bərabərliyi və Media

Cəmiyyətdə gender bərabərliyinin təmin edilməsi və ayrıseçkiliyin aradan qaldırılmasında ən önəmli məqamlardan biri KİV-lərlə bağlıdır. KİV təmsilçilərinin, jurnalistlərin gender bərabərliyi prinsipinin mahiyyətini tam dərk edərək, onun cəmiyyətə verəcəyi faydanı bilərək fəaliyyət göstərmələri cəmiyyətdəki cinslərarası bərabərsizliyin aradan qaldırılmasına, mənfi stereotiplərin ortadan çıxmasına yol aça bilər. Jurnalistlər gender bərabərliyinin hüquqi və etik tənzimləmələrini dəqiq bilməli, öz fəaliyyətlərində yanlışa yol verməməlidirlər. 7 dekabr 1999-cu ildə qəbul edilən Kütləvi informasi vasitələri haqqında Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsi kütləvi informasiya azdlığından sui-istifadəni qadağan edir: Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri, habelə yayılması qadağan edilən digər informasiyanı yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir. 2001-ci ilə qədər (qanunun bu maddəsinə dəyişiklik olmadan öncə) ayrıseçkiliyin çeşidləri sayılarkən, cinsi ayrıseçkilik də qeyd edilmişdi. Lakin, 2001-ci ildə Qanuna dəyişikliklər edildi və ayrıseçkilik əməlləri daha ümumi ifadələrlə qadağan edildi, cinsi ayrıseçkilik mətndən çıxarıldı. Sonradan, 1 dekabr 2017-ci ildə bu maddəyə daha bir əlavə edilərək, "habelə yayılması qadağan edilən digər informasiyanı yaymaq" da qadağalar arasına gətirildi. Beləliklə, daha ümumi ifadə edilsə də, yenə də ayrıseçkiliyin yolverilməzliyinin həm də cinsi ayrıseçkiliyə aid olduğu göstərildi. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı medianı əlaqələndirən digər bir qanun, İctimai Televiziya və radio yayımı haqqında Qanundur. Bu Qanunun 8.4-cü maddəsinə əsasən, İctimai yayım xidmətində işə götürülən, irəli çəkilən və ya ictimai yayımın başqa xidmətlərində daha yüksək vəzifəyə təyin olunan kadrlara irqinə, cinsinə, dini mənsubiyyətinə, yaxud siyasi baxışlarına görə məhdudiyyət qoyula bilməz. Qanunun 17-ci maddəsi başqa bir məqama diqqət çəkir. İctimai yayımın ən üst idarəetmə orqanı olan Yayım Şurasının formalaşması prosesində pozitiv ayrıseçkilik kimi qəbul edilən bir müddəaya yer verilib. Şura üzvlüyünə namizəd irəli sürmək hüququ olan 9 müxtəlif subyektlərin sırasına qadın cəmiyyətlərinin də adı salınıb. Bu, ictimai yayımın idarə edilməsində qadınların rolunu təşviq etək məqsədi daşıyır.

Gender bərabərliyini 21-ci əsrin prioritetlərindən biri kimi müəyyən edərkən, Avropa Şurası Gender Bərabərliyi Strategiyasının icrasında medianı "təbii

tərəfdaşlarından biri”  adlandırır. Bəyan edilir ki, “media azadlığı və gender bərabərliyi bölünməzdir və qarşılıqlı əlaqəlidir”. Cəmiyyətdə gender bərabərsizliyi problemi qadınların media biznesi, redaktor və rəhbər vəzifələrdə, son nəticədə, informasiya siyasətində təmsil olunmamaları media müstəvisində əks etdirilir. Problem informasiya məzmununda qadınların daha az görünməsi, kütləvi informasiya vasitələrində qadınların ekspert qismində nadir hallarda təmsil olunması, qadın rəylərinin müəyyən hallarda mövcud olmaması kimi faktlarda daha çox nəzərə çarpır. Sonunda qeyd olunur ki, media “gender bərabərliyi sahəsində struktur dəyişikliklərə həm əngəl törədə, həm də onları sürətləndirə” bilər. Media sektorunun qərarvermə və idarəetmə səviyyələrində qadınların iştirakına dair beynəlxalq məlumatlar və standartların təsviri Media sektorunun qərarvermə və idarəetmə səviyyələrində qadınların iştirakına təkan vermək üçün beynəlxalq və regional təşkilatlar tərəfindən göstərilən bütün səylərə baxmayaraq, nəticələr hələ də yetərli qədər yaxşı deyildir. Hələ də “gender əsaslı diskriminasiya halları mövcuddur, vəzifədə irəli çəkilmək məsələsində qadınların payı azdır. Bəzən qadınlar ailəni karyeradan üstün seçirlər və belə hallar tez tez baş verir. Çünki iş yerindəki mühit tarazlığa nail olmağı mümkünsüz edir.” Mediada yüksək idarəetmədə, vifələrdə qadınların mövqeyi ilə bağlı araşdırmalara gəldikdə, təəssüf ki, əksər nəticələr ürəkaçan deyildir. Qadınların mediada məşğulluğuna dair ilk araşdırmalardan biri UNESCO üçün 1995-ci ildə Marqaret Gallagher tərəfindən aparılmışdır. Nəticə göstərmişdir ki, sorğunun əhatə olunduğu 239 təşkilatdan yalnız səkkizi qadınlar tərəfindən idarə olunurdu. Beləliklə, mediada ən zirvə vəzifələr – icraçı direktor, baş icraçı və sair... – demək olar ki, əksəriyyət kişilər tərəfindən tutulduğu halda, yalnız 3 faizini qadınlar təşkil etmişdir.” Gallagher aşkar etmişdir ki, orta hesabla “kişilərin zirvəyə çatmaq ehtimalı qadınlardan yeddi dəfə artıqdır.” Qadınların idarəetmə və ya direktorlar şurası kimi daxili qərarvermə orqanlarında iştirakına gəldikdə, demək olar əsrin dörddə birində aparılmış bu araşdırma göstərmişdir ki, radio sektorunda qərarvermə orqanlarında qadınlar yalnız 12 faiz, mətbuatda yalnız 9 faiz olmaqla azlıq təşkil etmişlər. Bundan əlavə, radio və televiziyada 120 ən yüksək idarəetmə komitələrində yarısından çoxunda (67) qadınlar ümumiyyətlə təmsil olunmurlar. Mətbuatda 45 ekvivalent komitədən yarısından azında (20) qadın mövcud deyildir.” Beynəlxalq Qadınların Media Fondu (IWMF) üçün Carolyn M. Byerly tərəfindən 2011-ci ildə aparılmış və UNESCO tərəfindən də dəstəklənmiş araşdırmalar göstərmişdir ki, “qadınlar sorğunun keçirildiyi 522 şirkətdə (59 ölkədə) tam ştatlı işçi qüvvəsinin yalnız üçdə birini (33.3 faiz) təşkil edirlər.” İdarəetmə vəzifələrinə nəzər saldıqda, araşdırma göstərmişdir ki, “ən yüksək idarəetmə işlərindən 73 faiz kişilər, 27 faiz isə qadınlar təmsil olunurlar.” Sorğu keçirilən 59 ölkənin 29-da, xüsusilə orta və yuxarı idarəetmə səviyyələrində  qadınlar üçün “şüşə tavan”, qeyri-rəsmi maneənin olduğu müəyyən edilmişdir.

Medianın qərarvermə və idarəetmə səviyyələrində qadın və kişilərin bərabər iştirakının bütün beynəlxalq sənədlərdə təşviq edilməsinə baxmayaraq, iyirmi birinci əsrin ilk

onilliyinin sonunda hələ də buna nail olunmamışdır. Bununla belə, ən yüksək səviyyəli idarəetmədə qadınların iştirakının önə çəkilməsinin bir neçə müsbət məqamı vardır: gender bərabərliyi, nəhayət, beynəlxalq təşkilatların əksər hissəsinin gündəliyində çox yüksək yer almışdır. Avropa Komissiyası bir daha təsdiqləmişdir ki, "qərarvermədə qadınlar və kişilər arasında bərabərliyin təşviq edilməsi" 2016-2019-cu illər üzrə onun prioriteti və əsas fəaliyyəti kimi qalmaqdadır. Komissiya öz mandatının sonuna qədər yuxarı və orta idarəetmə vəzifələrində 40 faiz qadın iştirakına çatmağı özü üçün hədəf kimi götürmüşdür. Avropa Şurası "qadınların ictimai və siyasi həyatda tam iştirakının struktur maneələrinin aradan qaldırılmasında fundamental dəyişikliklər tələb etdiyinə" razıdır. Avropa Şurasının üzv dövlətlərinin irəliləyişlərini ölçmək üçün istifadə olunacaq meyarlardan biri də "işəgötürən, əmək və peşəkar təşkilatların qadın və kişi üzvlərinin sayının tarazlıq faizi, milli səviyyədə qərarvermə orqanlarında qadın və kişilərin faizidir". İqtisadi sahədə qərarvermədə qadınların payı idarəetmə və qərarvermənin bütün səviyyələrində kişilərin payından aşağıdır. Qadınlar Aİ çərçivəsində iqtisadi sahələrdə idarəedici şura üzvlərinin yalnız bir faizini, şura prezidentləri sırasında 3 faizini təmsil edirlər. Araşdırma göstərir ki, gender fərqliliyin təmin edilməsi yönündə proqramlar öz bəhrəsini verməyə başlayıb: liderlik və biznes fəaliyyətində qadınların sayının artırılması yönündə proseslər baş tutmuşdur. Azərbaycanın media idarəetməsində gender bərabərliyi Monitorinq təşkilatları məlumat verirlər ki, əksər ölkələrdə qadınlar media qurumlarında kişilərdən geri qalmayaraq geniş sayda təmsil olunurlar. Lakin buna baxmayaraq, qərarvermə, idarəçilik və təsisçilik proseslərində kişilər əsas vəzifələrdə üstünlük təşkil edir, qadınlar onlardan geridə qalırlar.

Azərbaycan mediasında qadın jurnalistlərin sayı yüksək rəqəmlərlə ifadə olunur. Sorğunun nəticələrinə görə - ümumrespublika yayımlı elektron, çap və onlayn media əməkdaşlarının təqribən 40-45 faizini; - regional telekanalların, çap və onlayn media əməkdaşlarının isə təqribən 30-35 faizini qadınlar təşkil edirlər. Dünyanın inkişaf etmiş, qabaqcıl ölkələri ilə müqayisə ediləcək göstəricilərdir. Amma bununla yanaşı, Azərbaycan mediası da gender bərabərliyi baxımından digər ölkələrdə yaşanan problemlərdən yan keçə bilməyib. Beləki, media qurumlarında yüksək kəmiyyətlə təmsil olunan qadınlar bu qurumların qərarverici orqanlarında, idarəçiliyində, həmçinin, jurnalist ittifaqlarının idarəçiliyində kifayət qədər aşağı rəqəmlərlə təmsil olunurlar. JuHİ-nin hesabatına əsasən, Azərbaycanın aparıcı KİV-lərinin yalnız 15 faizinin rəhbərləri qadınlardırlar. Yaxud, ölkənin məşhur 15 jurnalist təşkilatından yalnız birinin rəhbəri qadındır. Bu nəticə onu göstərir ki, Azərbaycanda media sahəsində çalışan qadınlar digər böyük, orta və ya kiçik biznes müəssisələrində çalışan qadınlardan daha çox idarəetmə mövqeyinə malikdirlər. BJF vurğulayır ki, bu gün qadınlar jurnalist olmağa çox meyllidirlər, amma bu sahədə rəhbər vəzifələr tutmaq istəyindən və imkanından kənardırlar. Son onilliklərdə qadın jurnalistlərin sayı əhəmiyyətli dərəcədə artıb, amma

onlar media sahibkarlığında, qərar qəbuletmədə hələ də əlverişsiz durumdadırlar, media siyasətinə təsirləri çox azdırlar.

Mediada gender bərabərliyinin pozulduğu başqa bir aspekt qadın jurnalistlərin hazırladıqları xəbərlərin obyektləri ilə bağlıdır. Sanki xəbər mövzuları «Qadın və kişi mövzuları" olmaqla iki qrupa bölünmüşdür. "İncə mövzular" (mədəniyyət, incəsənət, ailə-məişət mövzuları, sosial durum və sair) qadın jurnalistlərə, "gərgin mövzular" (siyası, kriminal, beynəlxalq mövzular və sair) isə kişi jurnalistlərə həvalə olunur ki, nəticədə gender əsaslı diskriminasiyanın əlavə bir növü təzahür edir. Qadınların media qurumlarının qərarverici orqanlarda təmsilçiliyinə, həmçinin, mövzu seçiminə mane olan spesifik problemlər var. Mövcud durumu dəyişmək üçün bu problemlərin aradan qaldırılması zəruridir. Təhlillər və sorğuya cəlb edilənlərin cavabları göstərir ki, media menecmentində və mövzu seçimində gender bərabərliyinin pozulmasının qanunvericiliklə heç bir bağlılığı yoxdur. Əksinə, qanunvericilik bu sahələrdə qadınların kişilərlə bərabər təmsilçiliyinə geniş imkanlar açır. Problemin əsas səbəbi cəmiyyətdə qadınlar barədə olan yanlış stereotiplərlə bağlıdır.  Qadın jurnalistlər üçün belə streotiplərdən biri "ya ailə, ya karyera" dilemmasıdır. Medianın müxtəlif sahələri – inkişaf edən sosial media, internet media, televiziya, qəzet, radio xəbər siyasətlərini modern prinsiplərlə qurmaqla, bu stereotiplərin dağıdılmasında əhəmiyyətli rol oynaya bilərlər. Gender bərabərliyi üzrə milli qanunların, beynəlxalq standartların tələbləri topluma media üzərindən daha geniş çatdırıla bilir. Eyni zamanda, media menecmentində geneder bərabərliyini təmin etməklə, onu cəmiyyətin digər sahələrinə yaxşı nümunə olaraq göstərmək olar.

Medianın müstəqilliyinin önəmli olması bütün sənədlərdə öz əksini tapıb. Bununla yanaşı, media işçiləri, jurnalistlər və digər xəbər istehsalçıları qadın və kişilərin obrazının qərəzsiz, stereotiplərdən kənar şəkildə təqdim edilməsinə görə cavabdehlik daşıdıqlarını bilməlidirlər. AŞ Nazirlər Komitəsi mediaya insan hüquqlarının prinsiplərindən biri kimi gender bərabərliyinə hörmətlə yanaşılmanı təklif edir, media peşəkarlarını və ümumilikdə kommunikasiya sektorunu qadınların və kişilərin qeyristereotip təsviri yönündə tədbirlər görməyə çağırır. Artıq qeyd olunduğu kimi, Beynəlxalq Jurnalistlər Federasiyası tərəfindən hazırlanmış "Jurnalistlərin davranış prinsipləri haqqında bəyannamə"nin 7-ci bəndində göstərilir ki, "...cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkilik yolverilməzdir". Bu prinsip dünyanın demokratik ölkələrində xəbər istehsalçıları üçün hazırlanmış etika məcəllələrində təkrarlanır. Buna rəğmən, KİV üzərindən yayımlanan materiallarda ciddi problemlər müşahidə edilməkdədir. KİV işçiləri bəzən fərqinə varmadan, bəzən isə oxucu auditoriyasını sensassiya yaratmaq vasitəsilə cəlb etmək məqsədilə (reytinq xatirinə) gender bərabərliyinin pozulmasına gətirib çıxaran təhriflərə yol verirlər. Olayın təqdimatında ayrı-seçkilik edilir. Belə hallar bərabər yanaşma prinsipini pozmaqla yanaşı, oxucuya səhv məlumat ötürülməsi ilə nəticələnir. Bənzər hallara xüsusi olaraq kriminal

hadisələrin təqdimatı zamanı təsadüf edilir. Müşahidələr göstərir ki, ölkənin hətta professional KİV-lərində də xəbər təqdimatı zamanı birbaşa əlaqə olmadan cinsi ayrıseçkiliyə yol verilir, hadisələrin və xəbərin mahiyyətinə aidiyyatı olmadan subyektin cinsi önə çəkilir, fərqləndirilir, cinsi kimlik başlıqlara, manşetlərə çıxarılır. KİV-lər xəbərlərin təqdimatı zamanı hadisənin mahiyyətini izah etmədən , "qadın sürücü", "qadın oğru", "dələduz qadın" və sair kimi ifadələrdən istifadə edirlər, hadisə törədicisi və ya hadisə qurbanı olan şəxslərin cinsi məsubiyyəti qabardılır, xüsusən, qadınların fərqləndirilməsinə üstünlük verilir. Bənzəri hadisələri təqdim edən xəbərlərdə hadisənin subyekti kişi olduğunda, bu fərqləndirməni görmək olmur - o zaman cins önə çəkilib, başlıqlara çıxarılmır. Medianın birinci funksiyası xəbər vermək, hadisənin mahiyyətini, səbəbini təsvir etməkdir. Baş vermiş qəza, yaxud olay haqqında xəbər başlıqlarında qadınların cinsi kimliyinin qabardılması yolveriməzdir. “Kişi sürücü”, “kişi həkim”, “dələduz kişi” və sair demədiyimiz kimi, “ qadın sürücü”, “qadın həkim” kimi ifadələrin işlənilməsindən də uzaq durmaq lazımdır. ***Qadınların daha çox ailə, moda, emosional mövzularla; kişilərin isə siyasət, texnologiya və iqtisadiyyatla əlaqələndirilməsi*** **də problemlidir.** Xəbər istehsalı zamanı yol verilən bənzər xətaların aradan qaldırılması üçün hazırda “Jurnalistlərin Peşə Davranışı Qaydaları” (Etik Kodeks) gender bərabərliyinin təmin edilməsinə töhvə vermək baxımından yenilənirlər. Peşə davranışı qaydalarının yenilənmiş versiyaları gender bərabərliyi və media azadlığı sahəsində Avropa Şurasının standartlarına uyğunluq baxımından qiymətləndirilirlər. Media sahəsində gender bərabərliyi nisbətən yeni kateqoriya olsa da, Avropa Şurası bu məsələ ilə bağlı çoxsaylı sənədlər qəbul edib, tövsiyyə və təkliflər verib. Bunların arasında Jurnalistlərin peşə davranışı qaydalarının Gender bərabərliyi kontekstində yenilənməsi aktuallıq kəsb edir.

- Jurnalist ayrı-seçkiliyə yol verilməməsi və gender bərabərliyi prinsiplərinə hörmət etməli, cinsi ayrı-seçkilik yaradan və ya cinsi nifrətə çağıran üslubdan uzaq durmalı, xəbərin məzmunu bilavasitə tələb etmirsə, şəxsin cinsi mənsubiyyətini vurğulamamalı və ya fərqləndirməməlidir.
- Jurnalist gender stereotiplərini təbliğ etməməli, onlara qarşı mübarizə aparmalı və mediada qadınların və kişilərin pozitiv və gender stereotiplərindən azad imajını təşviq etməlidir.
- Jurnalist gender-əsaslı zorakılıq hallarının mediada işıqlandırılmasına həssaslıqla yanaşmalı, genderəsaslı zorakılığı təşviq etməməli və cəmiyyətdə onun neqativ nəticələrinə dair məlumatlılığı artırmalıdır.

Mediada Gender bərabərliyilə bağlı təzahür edən digər bir problem, KİV səhifələrində yayımlanan reklamlarda yol verilən xətalardır. Reklam gender stereotipinin geniş mənbəyidir, çünki reklam çarxları kişi və ya qadın hədəfinə uyğunlaşdırılmışdır. Qadınlar reklamlarda kişilərdən çox təqdim olunur, çünki “gündəlik alış-veriş etmək üçün

məsuliyyət daşıyırlar”. Kişilər daha çox avtomobilləri, siqaretləri, biznes məhsulları və ya investisiyaları reklam edirlər, qadınlar isə kosmetika və məişət məhsulları reklamlarında göstərilirlər. Qadınlar ev şəraitində, kişilər isə açıq havada (evdən xaricdə) göstərilirlər. Hər cür media növündə qadınlar incə və seksuallaşdırılmış vəziyyətdə göstərilirlər: “onlar kişilərdən daha az danışırlar; onlar daha az fikirə malikdirlər”. Əyləncə sənayesində lider və ya peşəkarlar kimi, yaxud pul qazanan kimi kişilərə nisbətən daha az ehtimalla rol alırlar. «Feysizm» fenomeni – qadınlar reklamda tam bədənlə göstərilir, kişiləri isə üzdən çəkilirlər. Cinsi mənsubiyyət zəminində ayrıseçkiliyə gətirib çıxara biləcək gender xarakterli reklamların, nifrətə təhrikin və gender əsaslı zorakılığın təsvir edildiyi reklamların yayılması məqbul sayılmır. Avropa Şurasının tövsiyyəsində qeyd edilir ki, "dövlət orqanları tərəfindən maliyyələşdirilən reklam kampaniyalarında qadınların ləyaqətinin qorunması və müsbət imicinin formalaşdırılması, qadınlarla kişilər arasındakı real münasibətlərin formalaşdırılması əsas götürülməlidir. Reklamlarda qadın və kişilərin bədənlərinin hər hansı formada istismar edilməsi yolverilməzdir”

## Mövzu 3. Gender hərəkatı və feminizmin inkişaf tarixi

İbtidai icma dövründə mağara həyatı surən insanlar, müəyyən qaydalara riayət etməyə məcbur idi. Adətən insanlar kiçik mağaralarda qrup halında yerləşirdilər. Açıq havadakı həyatdan mağaranın daş divarları arasındakı fiziki və psixoloji məhdudiyyətlərə keçid müəyyən sosial dəyişikliklərə - tədrici iyerarxiya təbəqələşməsinə gətirib çıxarmaya bilməzdi. Bu təbəqələşmə hətta insanın yeri ilə - oda yaxın və ya uzaq yerləşməsi ilə də diktə edilirdi. Didişmə və hakimiyyət uğrunda mübarizə labüd şəkil alırdı və yəqin ki, məhz bu mərhələdə «ailə» ideyası həyata keçirilməyə başlandı. İbtidai sürüdən monoqom ailənin olmadığı nəsildən ibarət cəmiyyətə keçən dövrdə qan nəsil əlaqələri ana xətti ilə aparılırdı, yəni matriarxat hökm sürürdü. Qadın əvvəl nəslin, sonra qəbilənin həyatında hakim vəziyyətə sahib olmağa başladı, çunki onun işi (bitgi yığımı, primitiv toxa ilə əkinçilik) insanların yeməyi üçün vacib idi. Bununla bağlı olaraq qadın sosial münasibətdə də yüksəldi. Matriarxatın mənbə və səbəbini bunda axtarmaq lazımdır. Madərşahlıq dövründə qadınlar, ərə gedəndən sonra öz evinə ərini gətirib yaşayırdılar; poliandriya da (çoxkişilik) geniş yayılmışdır. Orta paleolit dövründə yaranmış proseslər yuxarı paleolit – matriarxatın tam hökmranlığı dövründə (həm Qafqazda və Azərbaycanda, həm də bütün Avrasiya məkanında bunu izləmək mümkündür) getdikcə inkişaf edir və müəyyən dərəcədə tamamlanır. Tarixdə matriarxatın mövcudluğu heç də tarixçilərin hamısı tərəfindən qəbul olunmur və onlar ictimai və siyasi quruluşda qadının rəhbər olmasının yalnız cəngavər amazonkalar haqqındakı miflərdə mümkünlüyü ilə razılaşırlar. Yunan tarixçiləri “əsil” matriarxatın nubi, nasamon, massaget qəbilələrində olduğunu qeyd edirdi ki, burada qadınlar kişiləri tabeçiliyində saxlayaraq öz

hakimiyyətlərini həyata keçirirdi. Yunanlar təkəbbürlə bunu dəhşətli varvarizm adlandırırdılar. Monoklissiya adlı yunan yaşayış məntəqəsində matriarxat dövründəki qədim ənənəyə görə "amazonkalar günü" bayram edilir. Həmin gün qadınlar istirahət edir, şənlənir, kişilər isə xörək bişirməkdən uşaqların bələnməsinə qədər bütün qadın işlərini yerinə yetirməli olur. Matriarxatın, ana hüququnun tədqiqi ilə hələ XIX-cu əsrdə üç alim eyni vaxtda məşğul olmağa başlamışdı: Amerika etnoloqu L.Q.Morqan, şotland hüquq tədqiqatçısı C.F.Maklennan və isveçrə hüquq tarixçisi İ.Y.Bahoven. Matriarxatın parlaq ifadəsini tədqiqatçılar Şimali Amerika irokezlərdə, melaneziya qəbilələrində, Afrikada, Avstraliyanın ovçu qəbilələrində aşkar etdilər. Poliandriyanın (çoxərlilik) izlərinə bu gün də Tibetdə, Hindistanın bəzi rayonlarında rast gəlmək mümkündür. Neolit dövründə digər ərazilərdə olduğu kimi Azərbaycanda da matriarxatın son çiçəklənmə mərhələsi meydana şıxır. Əlinə toxa alan (əkinçilik məqsədi ilə) qadın daha bir neçə min il cəmiyyətdə öz liderliyini saxlayır. Azərbaycanda da "neolitik inqilab" – mənimsəmə təsərrüfatından istehsalçı təsərrüfata keçid başlayır, əkinçilik və maldarlıq – yem istehsalının əsas üsulları yaranır. Matriarxatdan patriarxata keçid prosesi hələ mezoloit dövründən (eramızdan 11-8 min il qabaq) mümkün olmuşdu ki, o zaman ox və yayın yaranması ovu yem məhsullarının daha sabit alınma mənbəyinə çevirmişdi. Lakin bu proses ilkin tunc dövründə(eramızdan 4 min il qabaq), ovçu, maldar və əkinçi kişinin cəmiyyətdə aparıcı iqtisadi və sosial vahidə çevrildiyi bir vaxtda başa çatdı. Həm ovçuluq, həm də bitki və meyvələrin yığılması ilə məşğul olan tayfalarda işlərin gedişatı başqa cür idi. Mülayim iqlimdə yaşayan qadın, kişi əldə etdiyi qədər qida toplaya bilirdi və buna görə cinslər arasında müəyyən tarazlıq saxlanılırdı. Lakin ovçu kişinin maldara çevrilməsi, qadının isə bitki və meyvə yığılmasından əkinçiliyə keçməsi labüd idi. Bu cür dəyişiklik kişi və qadın münasibətlərinin bütün gələcək xarakteristikalarına çox güclü təsir göstərirdi. Tarixdə ilk dəfə olaraq Neolit dövründə miqrasiya və ticarət tayfalararası nigahların davamlı yayılmasına təsir etdi.

Paleolit dövründə əməyin bölgüsünə dair nöqteyi nəzərləri ümumiləşdirərək, demək olar ki, kişi ovçuluq, qadın isə meyvə yığmaqla məşğul olurdu. Arabir qadının kişidən heç də pis ovçuluq bacarığına malik olmamasının xeyrinə arqumentlər gətirilir. Prinsip etibari ilə cavan və sağlam qadının cavan və sağlam kişi ilə eyni güclə ovçuluq edə bilməməsi üçün heç bir səbəb yox idi. Lakin iş ondadır ki, uşağı əmizdirən, xüsusən də hamilə qadın ov zamanı heyvanları uzun müddət izləyib tapmaq iqtidarında deyildi, çünki bu cür məşğuliyyət onun yaşayış yerindən uzunmüddətli uzaqlaşmasını, iqlimin sərt, ov quşlarının sayı məhdud olduqda isə, əla idman formasını tələb edirdi. Belə qadınların əkinçilik işlərində iştirak etmələri üçün real problemlər yox idi, çünki, birincisi, bu işlərlə məşğul olan qadın uzun müddətə yaşayış yerindən uzaqlaşmırdı, ikincisi isə, çöl işləri zamanı uşağa süd verən bir neçə qadın bir-birini əvəz edə bilirdi. Marağa həyatının yeniliyi, vaxtı ilə tayfanın daxili quruluşuna təsir etdiyi kimi, mağaraların təmin etdiyi sabitlik, daha iri insan birliklərinin yaranmasına gətirib çıxartdı. Soyuq iqlim şəraitində

mağara həyatının inkişaf etməsi həmçinin o demək idi ki, insan daha böyük heyvanları – mamontları, bizonları və s. ovlamalı olacaq. Belə böyük ölçülü heyvanı bir və iki nəfər, hətta qadınların və yeniyetmələrin köməyi olduğu halda, öldürə bilməzdi. Iri birliklərə ehtiyac yarandı. Birgə səylər hesabına öz ərazisini qonşuların başqalarından müdafiə etməyin daha asan olması da bu işin vacibliyinə dəlalət edirdi. Bunun təbii nəticəsi ictimai birliklərin formalaşması oldu: kiçik tayfalar birləşərək tayfaları yaratdı. İttifaqa daxil olan bütün tayfalarda eyni vərdişlər, oxşar təfəkkür və oxşar ənənələr inkişaf edirdi. Məs., inisiasiya (yetkinlik yaşa girməsi) mərasimi ilə yarışların bir-birini əvəz etməsindən ibarət olan kişinin yetkinlik yaşına daxil olmaq adəti. İstehsalçı təsərrüfat ictimai quruluşda öz prinsiplərini diqtə edirdi və icma üzvlərinin sosial hüquq və öhdəliklərini bərabərləşdirən nəsil icmasını monoqam quruluşlu cəmiyyətə malik qonşu icma əvəz etməyə başladı. Matriarxatdan patriarxata keçidə xidmət edən son hədd əməyin yeni icma bölümü, maldarlığın əkinçilikdən ayrılması və toxa əkinindən şuma (heyvandan istifadə etməklə) keçid oldu. Hər iki amil ağır fiziki əmək və kişilərin yaşadıqları yerdən uzun müddət ayrı qalmasını tələb edirdi. Kişilər proqressiv, daha sərfəli əkinçilik və maldarlıq yarada bildi ki, bu da onun cəmiyyətdə aparıcı iqtisadi və sosial vahidə çevrilməsinə təsir göstərdi. İstehsalın əsas sahələrinə başçılıq edən kişi cəmiyyətin kiçicik bir özəyi olan ailədə də qadın üzərində tam hökmranlığa sahib oldu.

**Feminizm tarixi**

Qadın hərəkatı və feminizmin inkişafı Feminizm yeni bir nəzəriyyə olmaq etibarı ilə eyni zamanda, «hüquq bərabərliyi, insanlıq şərəfi və qadınların müstəqil qərar vermə haqqı» əldə etmək məqsədi ilə meydana gələn siyasi hərəkatdır. Feminizm hərəkatının aparıcı qüvvələri qadınların cinsinə görə diskriminasiyaya məruz qalmaları halları ilə barışmır və cəmiyyətdə hər iki cinsə eyni cür dəyər verilməsi üçün mübarizə aparır. ***Feminizm ilk dəfə sosial filosof Çarlz Furye (1772-1837) tərəfindən gündəmə gəlmişdir.*** İlk dəfə olaraq o, qadınların müstəqilliyinin mümkünlüyü barədə fikirlər irəli sürmüşdür. XIX əsrin sonlarında bir çox Avropa ölkələrində, Amerika və Avstraliyada feminizm və qadın hərəkatının ilk dalğası başladı. Bu hərəkatın başlanmasına səbəb qadınların kişilərlə yanaşı siyasi bərabərliyə nail ola bilmə və istədikləri ixtisası seçərək arzu etdikləri universitetlərdə təhsil ala bilmə hüququnu əldə etmə ehtiyacından irəli gəlirdi. Bunun təsiri bir çox ölkələrə də keçdi və bu, kütləvi hal aldı. Bir çox ölkələrdə (Almaniya, Sovetlər Birliyi, Böyük Britaniya) qadınlara ilk dəfə olaraq seçki hüququ verildi. 1990-cı illərin ortalarında, əsasən, qadın alim və tədqiqatçılar gender elminin tədqiqatına, təbliğatına, tədrisinə start vermişlər. Əvvəllər ölkəmizdə bu elm seminarlar, kurslar şəklində təşkil edilsə də, sonralar gender bir sosial elm kimi daha intensiv şəkildə tədqiq edilmiş və universitet proqramına daxil edilmişdir. Başlanğıcda bu addımları radikal addımlar kimi qiymətləndirənlər olsa da, bu tədqiqatçı alimləri çəkindirməmiş və onlar daha ciddi şəkildə bütün tarixi dövrlərdə, qadının cəmiyyətdə müstəsna rolunu arqument

və faktlarla sübut etməyə çalışmışlar. Sevindirici haldır ki, hal-hazırada bu istiqamətdə bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da dövlət səviyyəsində çox ciddi işlər görülür. Kredit sisteminə keçmiş universitetlərdə tələbələr bu fənləri həvəslə seçir, öyrənir və hətta kursu bitirdikdən sonra bu istiqamətdə tədqiqatlarını aparırlar. Yeni dövrdə cəmiyyətdə sosial stratifikasiyasının dəyişiliməsi ilə əlaqədar fərdin cinsindən asılı olaraq sosial-hüquqi statusunun mahiyyətində bəzi dəyişikliklər baş verdi. İctimai sferanın özəl sferadan ayrılması cəmiyyət tərəfindən qadın və kişilər üçün yazılan qanunlara da yeniliklər gətirdi. Kapitalist münasibətlər və demokratik siyasi sistem intensiv inkişaf edən ölkələrdə ictimai və özəl, kişi və qadın arasındakı fərqi daha yüksək səviyyədə nümayiş etdirdi. İngiltərə və ABŞ-da burjua cəmiyyətinin hüquq sisteminin formalaşması tarixi ənənələrin istifadəsini daha da dərinləşdirdi. Əvvəllər ər və arvad arasında oturuşmuş qanunlar mövcud idi: Ərə gedəndən sonra qadın nəinki əri ilə bərabər siyasi hüquqa iddia edə bilməzdi, o, hətta öz vətəndaşlıq hüququnun saxlanılmasını (əgər onun vətəndaşlığı ərininkindən fərqli idisə), mülkiyyətini və əmək haqqını da itirirdi. Elə bu səbəblər də qadın hərəkatının məhz bu ölkələrdə baş qaldırmasına təkan verdi. Siyasi bərabərlik uğrunda mübarizə Feminizmə görə gender bərabərsizliyinin kökündəki haqsızlıq ondan ibarətdir ki, qadın və kişilərin mülki hüquqlara, yəni müəyyən sosial resurslara, təhsilə, iqtisadiyyata, siyasətə, iş yerlərinə olan əlyetərliyi qeyribərabərdir. Qadın hərəkatının təkanverici qüvvələrindən hesab edilən Meri Uollstonkraft «Qadın hüququnun bəraəti» (1792) kitabında hüquqsuz qadınların vəziyyətini dərindən təhlil edir, onların zəifliyinin və az inkişafının səbəbini müasir tərbiyə sistemində görür. Müəllif bunu aşağıdakı kimi tənqid edir: «Erkən uşaqlıq dövründən qadınlara özlərini necə aparmaq öyrədilir və bütün bunları qızlar analarının timsallarında görürlər; onların sözəbaxan, yumşaq xarakterli görünmələri və bicliyi uğurlu tətbiq edə bilmə bacarıqları sonda kişilərin onlara boyun əymələri ilə nəticələnir» (Wotistonecraft M., 1994). Yəni qadınların ikili standartlarla yaşamalarına əslində kişilər rəvac verirlər. Elə həmin dövrlərdə Fransada Olimpiya de Quj «Qadınlar və qadın vətəndaşlar haqqında deklarasiya» (1791) əsərini yazır. Müəllif öz əsərində göstərir ki, qadınların vətəndaş azadlıqlarından istifadə edə bilmə və ölkə idarəetmə bacarıqları heç də kişilərinkindən az deyil. Buna reaksiya müəllif üçün faciəvi olur və sonda fransız kral ailəsi onun üçün ölüm hökmü verir.

Feminizm sosial-siyasi və mədəni hərəkatdır. Hərəkatın fokusu tarixi və sistematik bərabərsizliklərin ləğv olunmasına yönəlib. Əsas prinsipləri:

- Bərabər imkanların təşviqi
- Diskriminasiyanın ləğvi
- Patriarxal strukturun dağıdılması
- Reproduktiv hüquqların müdafiəsi

- İnterseksionallıq (kəsişmə)
- Sosial ədalət
- Təmsilçilik
- Stereotiplərin sorğulanması
- Həmrəylik

Feminist, gender bərabərliyinə nail olmaq, gender əsaslı ayrı-seçkiliyin tanınması və aradan qaldırılması və bütün genderlərdən olan şəxslər üçün bərabər hüquq və imkanların təşviq edilməsini əhatə edən feminizm prinsiplərini dəstəkləyən və müdafiə edən fərddir. Feminist olmaq gender bərabərsizliyini davam etdirən ictimai norma və strukturlara meydan oxumaq və siyasətlərdə, yanaşmalarda və praktikada müsbət dəyişikliklərin tərəfdarı olmaq öhdəliyini ehtiva edir.

XIX əsrin sonu və XX əsrin əvvəli – **feminizmin birinci dalğası dövrü** adlanır. Bunların ən bariz nümayəndələri sufrijistlər idilər (suffrage ingilis sözüdür, mənası səsvermə deməkdir) və onlar bütün mübarizələrini qadınların səsvermə hüququ qazanmaları istiqamətində aparırdılar. Bu hərəkatın aktivləri İngiltərədə Harriet Teylor, Marqaret Fuller, Harriet Martini, Amerikada Elizabet Sedi Stanton və Lukresiya Mott idilər. Onlar iddia edirdilər ki, əgər qadınların da hüquqları kişilər qədər olsa, o zaman qadınlar kişilərdən daha az asılı olarlar və bu asılılıq tədricən tam aradan qalxar. Bu da bütünlükdə cəmiyyətə böyük fayda verər. Maraqlı fakt odur ki, qadınlar bu hərəkata başlayan dövrdə onlarla paralel köləliyin də ləğv edilməsi hərəkatı başlandı. İlk dalğada əsas hədəf siyasi hüquqların qazanılmasıdır. Əsas problemlər (əmək, təhsil, nikah-coverture doctrine) Feministlər ilk sənəd kimi 1848-ci ildə Seneka-Folzda öz proqramlarını qəbul etdilər və ona «Hisslərin deklarasiyası» adını verdilər. Bu proqramda o dövrdə ABŞ-dakı ədalətsiz vəziyyət xüsusi qeyd edilirdi, qadınların ağır vəziyyətə düşməsi gündəmə gətirilirdi. Bir növ ailə quran qadınlar üçün vətəndaşlıq anlayışı yoxa çıxırdı, öz əmək haqqını alma hüququ qalmırdı, təhsil alma imkanları olmurdu, çünki ailə quran qadınların üzünə bütün kollec və universitetlərin qapısı bağlanırdı. Deklarasiya Amerika Konstitusiyasının mətnini apellasiyaya verdi, bununla da bəyan etdi ki, vətəndaşların hüququ təkcə kişilərin hüququndan ibarət deyil, ora qadın hüquqları da daxil edilməlidir (Попкова Л., 1999).

Feminizmin birinci dalğası əsas uğurlar:

- Seçki hüququ: Birinci dalğanın mərkəzi tələbi qadınların seçki hüququ - səsvermə hüququ idi. Susan B. Enthony və Elizabeth Cady Stanton kimi suffragistlər siyasi hüquq əldə etmək üçün kampaniya aparırdılar. Hərəkat geniş vüsət aldı və 1920-ci ildə amerikalı qadınlara səsvermə hüququ verən 19-cu düzəlişin ratifikasiyası ilə yekunlaşdı.

- Hüquq islahatları: Qadınlar nikahdan sonra qadının hüquqi şəxsiyyətini ərinə aid edən «coverture» doktrinasına etiraz etmək üçün hüquqi islahatlara can atırdılar. Qadınlara öz əmlakları və qazancları üzərində daha çox nəzarət imkanı verən Evli Qadınların Mülkiyyət Qanunları tətbiq edildi. Bu islahatlar qadınların muxtariyyətini məhdudlaşdıran hüquqi maneələri aradan qaldırmaq məqsədi daşıyırdı.
- Təhsil və Məşğulluq: Birinci dalğa feministləri qadınlar üçün təhsil imkanlarının artırılmasını və onların ənənəvi olaraq kişilərin üstünlük təşkil etdiyi peşələrə daxil edilməsini müdafiə edirdilər. Böyük Britaniyadakı Emily Davies və ABŞ-da qadın kolleclərinin təsisçiləri kimi pionerlər qadınlar üçün təhsil imkanlarının genişləndirilməsində mühüm rol oynadılar.

Qərbdə feminist siyasi ideyalar, **«ikinci dalğa»** XX əsrin 60-cı illərində ABŞ-da, Fransada və digər Avropa ölkələrində tələbələr tərəfindən radikal feminist qruplar yaradıldı və radikal feminizm bir-biri ilə ziddiyyət təşkil edən bir neçə qrupa bölündü. Bu qruplar arasında fərq ondan ibarət idi ki, onlar qadınlar üçün sadəcə azadlıq tələb etmirdilər, tələblər müxtəlif idi. Bu qrupları birləşdirən cəhət isə, onların hamısının bütün cəmiyyətə müharibə elan etməsi idi. Radikal feministlər mövcud cəmiyyəti kişilər tərəfindən yaradılan kişilərin cəmiyyəti adlandırdılar. İkinci dalğa feminizminə görə də cəmiyyətdə dominantlıq edən sistem təkcə açıq zorakılıqdan istifadə etməklə kifayətlənmirdi, bəzən bu sistem cəmiyyətin institutlarında (ailə, nikah, məhəbbət və s.) gizli şəkildə insan azadlığına qarşı zorakılıq halları tətbiq etməyə yol verirdi. İkinci dalğada əsas problemlər (seksizm, partriarxat, abort, siyasi və iqtisadi bərabərlik, «seksual» azadlıqlar).

İkinci dalğanın əsas uğurları:

- Reproduktiv hüquqlar: Əsas tələb qadınların reproduktiv hüquqlarının tanınması idi. Betty Friedan və Gloria Steinem də daxil olmaqla aktivistlər doğuşa nəzarət, ailə planlaması və təhlükəsiz və qanuni abort hüququnu müdafiə etdilər. Bu, ABŞ-da Roe v. Wade qərarı kimi əhəmiyyətli hüquqi dəyişikliklərə səbəb oldu.
- İş yerində bərabərlik: İkinci dalğa feministləri bərabər iş üçün bərabər ödənişin tərəfdarı olaraq iş yerində bərabərlik uğrunda mübarizə apardılar. Hərəkat bu sahədə müsbət siyasətlərin ortaya çıxmasına və iş yerində qısnama haqqında məlumatlılığın artmasına təsir etdi.

**Üçüncü dalğa** 1990 və 2000-lərə daha çox aid edilir. Əsasən İkinci Dalğa feminizmin problemlərinə cavab olaraq meydana gəlmişdir. Əsas problemlər (interseksionallıq, irq, kimlik, stereotiplər). Feminizmin üçüncü dalğasındakı əsas uğurlar:

- Sosial və Mədəni Təkamül: Üçüncü dalğa qadınların təcrübələrinin müxtəlifliyini vurğulayaraq diqqəti sosial və mədəni məsələlərə yönəltdi. O, müxtəlif təzyiq formalarının kəsişdiyini qəbul edərək kəsişmə anlayışını təqdim etdi. Bədən pozitivliyi, LGBTQ+ hüquqları və cinsi pozitivlik kimi məsələlər ön plana çıxdı.
- Onlayn Fəaliyyət: İnternetin yüksəlişi ilə üçüncü dalğa feministləri onlayn aktivizmi qəbul etdilər. Bloqlar, sosial media platformaları və onlayn icmalar feminist mesajları yaymaq, şəxsi hekayələri paylaşmaq və qlobal miqyasda hərəkatların təşkili üçün güclü vasitələrə çevrildi.

Adətən bəzi bölgülərdə **"Dördüncü dalğa"** Üçüncü Dalğanın davamı kimi də göstərilir. Lakin həyatımıza daxil olan yeniliklər artıq konsepsiyaların dəyişikliyi bir çox mənbələrdə Dördüncü Dalğanın ayrılmasına səbəb olur. 2008-ci ili başlanğıc ili kimi göstərilir. Əsas Problemlər (sistematik dəyişiklik, inkluzivlik). Dördüncü dalğanın uğuru #MeToo hərəkatı qlobal sürət qazandı və bu, cinsi qısnama və zorlama haqqında məlumatlılığın artmasına səbəb oldu. Yüksək profilli davalar və kütləvi fəallıq müxtəlif sektorlarda güc dinamikası, razılıq və hesabatlılığa ehtiyac haqqında müzakirələrə səbəb oldu.

*Əsas feminist nəzəriyyələr aşağıdakılardır:*

- *Liberal*
- *Marksist (sosialist)*
- *Radikal*
- *Psixoanalitik*
- *Qaradərili*
- *Postmodern*

Liberal feminizmin təməl prinsipləri:

- Hüquqi bərabərlik
- İslahatlar
- Liberal feministlər adətən gender bərabərliyini təşviq edən və qadınlara qarşı ayrı-seçkilik yaradan təcrübələri qadağan edən qanun və qaydaları dəstəkləyirlər; dövlət müdaxiləsi ilə bərabərlik, kvota sistemləri, pozitiv diskriminasiyalar dəstəklənir
- liberal feministlər, liberal demokratik çərçivədə maddi bərabərsizliyi azaltmaq üçün çox vaxt sosial tədbirləri dəstəkləyirlər.

Marksist feministlərin təməl prinsipləri:

- Sinfi fərqlər qadınların istismarına şərait yaradır

- Qadınların əzilməsi fərdi hərəkətlərin yox, kapitalist quruluşun nəticəsidir
- Liberal feminizmin islahatçı həlləri yetərli deyil

Sosial feminizmin təməl prinsipləri:

- Gender rolları və sinfi fərqlərin qadınların istismarında rolu bərabərdir
- «İstər burjua, istər proletar qadının ortaq bir istismar, əzilmə təcrübəsi var»

Psixoanalitik feminizmin təməl prinsipləri digər cərəyanlar problemləri iqtisadi və siyasi strukturlarda görürlərsə, bu cərəyan problemləri insanların erkən uşaqlıq dövrlərində yaşadığı təcrübələrdə görür.

Qaradərili feminizm- İyerarxiyanın irq, sinif, gender tərəflərini önə çəkir.

Radikal feminizmin təməl prinsipləri:

- Patriarxal quruluş
- Ailə institutunun ləğvi
- Bioloji cins anlayışını, fərqliliyini minimallaşdırmaq
- Sosial bərabərsizliyin təməlində kişi hegemoniyası və patriarxal ailə durur

Postmodern feminizmin təməl prinsipləri:

- Vahid problem yoxdur, irq, sinif, etnik kimlik, mədəniyyət kimi müxtəlif kateqoriyaları nəzərdən keçirir
- Universallığa qarşı çıxır (qadın probleminə vahid yanaşma mümkün deyil), universal baxış fərqlilikləri inkar edir.
- Təsnifatlandırmaya qarşıdırlar.

Radikal feminizm ideologiyasının sistemi rolunda patriarxat (belə patriarxatlıq müxtəlif sosial mexanizmlərdə özünü büruzə verir) əsas fiqur hesab edilir, bütün kişilər qadınlar üzərində ağalıq edirlər. Radikal feminizm faktiki olaraq cins və sinfi eyniləşdirir, lakin Roksana Danbarın fikrinə görə cins tamamilə iqtisadi siniflə üst-üstə düşmür – bu kastadır, yəni «insanın doğulandan mənsub olduğu və çıxa bilmədiyi sosial kateqoriya görünüşüdür» (Дунбар Р., 1971). Kişilərə düşmən, istilaçı, istismarçı adı verilir və onlarla olan hər hansı bir münasibətə kollaborasionizm (düşmənlə əməkdaşlıq) kimi baxılır. Liberal feministlərdən fərqli olaraq, iki fərqli görünüşdə olan kişi və qadınların anlaşması da daxil olmaqla, aksent insanların oxşarlığının üzərinə deyil, fərqliliyinin üzərinə qoyulur. Qırmızı corablar qrupu öz manifestlərində belə yazırdılar – «Kişilər oz üstünlüklərindən istifadə edib, iqtisadi, seksual və psixoloji xeyirlərini əldə edirlər...» Marksist feministlər Marksist feministlər qadın və kişilər arasında mövcud olan diskriminasiyanın kökündə sosial sinfi bərabərsizliyin və bu bərabərsizliyin kökündə isə qadınların kişilərdən iqtisadi asılı olması faktorunun durduğunu iddia edirlər. Bir sözlə,

marksizmə görə bütün mövcud problemlərin kökündə qadınların kişilərdən iqtisadi asılı olması amili durur. Ümumiyyətlə, marksizmə görə əksəriyyət problemlərin kökündə kapitalizm rejimi durur, rejim aradan götürülərsə və sosialist rejimi ilə əvəz edilərsə, bütün problemlər avtomatik aradan qalxar. K.Marks «Yəhudi məsələsi» (1843) adlı məqaləsində belə bir fikir irəli sürürdü ki, insanın emansipasiyası tam halda o zaman baş verir ki, qadın bu emansipasiyaya özü daxil olur. F.Engels «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» (1883) əsərində bu fikri daha da inkişaf etdirir və təkmilləşdirir. Müəllif qadının ev işindən, onun sosial funksiyasından və sairə problemlərindən bəhs edərək qeyd edir ki, sinifsiz cəmiyyət və əməyin bərabər bölünməsi qadın emansipasiyası olmadan mümkün deyildir. Daha sonralar A.Bebel özünün «Qadın və sosializm» əsərində (1879) qadın məsələsini sosial-demokratik təfəkkürün nümunəsi kimi təqdim etdi. Müəllif qadının da bərabərhüquqlu və tam mənada cəmiyyətin üzvü olması üçün onun güc və bacarığını inkişaf etdirmək yollarını axtarırdı. Bunun cavabı kimi o, səxsi mülkiyyəti və ailə köləliyini ləğv etmək və uşaqların tərbiyəsini ictimailəşdirmək təklifini irəli sürdü. XX əsrdə proletar qadın təşkilatlarının yaradılmasında yaxından iştirak edən marksist feministlər, öz ideologiyalarını bu ideyaların üzərində formalaşdırdılar. Sosialist-marksist feminist qadın təşkilatları isə sufrijistlərin (onların sıralarında, əsasən, orta və üst qatların qadınları idi) bir sıra ideyalarını qəbul edə bilmədikləri üçün ayrıca fəaliyyət göstərirdilər. Marksist feministlər burjua cəmiyyəti daxilində heç bir bərabərlikdən söz açmaq istəmirdilər və bəzi hallarda sufrijistlərə qarşı düşmən mövqe nümayiş etdirirdilər. Sonralar real həyatda marksist feminist ideyaları iflasa uğradı və bu ideyaların tətbiqinin absurdluğunu görəndə çoxsaylı feminist qruplar meydana gəldi. Liberal feminizm XX əsr boyu inkişaf edən liberal feministlər vurğunu siyasi və hüquqi bərabərliyin konseptual əsasının üzərinə qoyurdular. Liberal feministlərin nümayəndələri hər zaman demokratiya prinsipləri çərçivəsindən çıxış edərək, öz hesablarına (maliyyə), yəni lobbiçilik, təzyiq qrupu yaratmaqla seçki kampaniyasına təsir göstərməklə istədikləri bərabərliyi əldə etmək istəyirdilər. Siyasi bərabərlik əldə etmək üçün qadınlar çox uzun yol qət etməli olublar. Qadınlara səsvermə hüququnu verən ilk ölkələr Yeni Zelandiya (1893) və Avstraliyadır (1902). ABŞ-da da ayrı-ayrı ştatlarda qadınlara səs vermə hüququ verilməyə başlandı, məsələn, 1869-cu ildə Vayominq ştatında ilk addım atıldı, lakin bu digər ştatlarda axıra qədər başa çatdırılmadı. XX əsrin əvvəllərində Finlandiyada (1906), Norveçdə (1913) və Rusiyada (1918) qadınlara səsvermə hüququ verildi. Daha sonra Almaniya, Macarıstan, Polşa, Çexoslavakiya, ABŞ, Böyük Britaniyada qadınlar səsvermə hüququna nail oldular. Birinci dünya müharibəsindən XX əsrin 30-cu illərinə qədərki dövrdə bu siyahı daha da böyüdü: Braziliya, Türkiyə, Uruqvay və Taylandda da qadınlara səsvermə hüququ verdilər. Fransa, İtaliya, Ruminiya, Yuqoslaviya və Çində qadınlara səsvermə hüququ ikinci dünya müharibəsindən sonra verildi. Liberal feminizm özünün nəzərdə tutduğu əsas vəzifələrini yerinə yetirdiyi üçün tədricən kütləviliyini itirdi. Sosialist feminizm Sosialist feminizmi də qadın həyatının həm özəl, həm də ictimai

sferasına diqqət yönəldir. Bu qrupa görə azadlıq o zaman əldə edilə bilər ki, qadına qarşı həm iqtisadi, həm də mədəni təzyiqə son qoyulsun. Onlar iddia edirlər ki, patriarxal rejim və kapitalizm gender bərabərsizliyinin əsasını qoyur. Gender bərabərsizliyini ləğv etməkdən ötrü bu iki rejimə son qoyulmalıdır. Sosialist feministlər radikal feministlərin patriarxallıq qadına qarşı olan təzyiqin tək qaynağıdır iddiasını qəbul etmirlər. Sosialist feministlərə görə qadınların bərabərlik əldə edə bilməməsinin əsas səbəbi onların kişilərdən iqtisadi asılılığıdır. Kapitalist quruluşunda kişi idarəçiliyi sərvətlərin qeyri-bərabər bölünməsinə gətirib çıxarmışdır. Qadınlar o zaman tam bərabər olacaqlar ki, cəmiyyətdəki sosial, iqtisadi və siyasi ədalət bərqərar olsun. Sosialist feministlər insan həyatının maddi və tarixi şərtlərinə diqqət yetirməyi vacib sayırlar. Onlar iddia edirlər ki, seksizm və əməyin cinsə görə bölünməsi zamanın iqtisadi sisteminə bağlıdır. Sinif gender təzyiq formalarını və qadın-kişi üstünlüyünü yaradan amillərdən biridir. Müasir cəmiyyətdə qadının sinfi statusu onun ərinin sinfindən və vəzifəsindən törənən statusdan asılıdır. Sosialist feminizm seksizm, rasizm və klassizmin ümumi kökündən bəhs edir. Radikal feminizm Bu cərəyan nəinki cəmiyyətin əksəriyyət üzvləri tərəfindən, ümumiyyətlə, digər feminist qruplar tərəfindən də birmənalı qarşılanmır. Radikal feminist cərəyan heteroseksual şəxslərarası münasibətlərin və sosial qurumların strukturunun əleyhinə olub, kişisiz cəmiyyət qurmağın tərəfdarıdır. Radikal feministlər islahatlara cəhd göstərmirlər, cəmiyyətdə mövcud olanları inqilabla məhv etmək istəyirlər və bu inqilab sosial xarakter deyil, bioloji xarakter daşıyır. Sulamif Fayerstoun özünün «Cinsin dialektikası: Feminist inqilabın problemi» kitabında yazır: «Əsas bərabərsizliyi elə təbiətin özü yaradır – insan irqinin yarısı sonradan kişilərin marağını gücləndirən qurum qismində olan ümumi uşaqları daşımalı və yedirtməlidir» (Curthoys A., 1988). Azad olmaqdan ötrü qadın analıq funksiyasından canını qurtarmalıdır; təbiətlə əlaqəni tam qırmaq lazımdır və uşaqların istehsalına keçmək lazımdır. Patriarxatı tam rədd edən **radikal feministlər** kişi təsirindən azad olan qadının necə fikir yürütməsi, özünü aparması barədə fikirlər irəli sürürlər. Feminist qadınlar qadınların təbiiliyinə xələl gətirən imiclərin əksini istəyirlər, onlar hündürdaban ayaqqabı geyən, narahat geyimləri, bir sözlə, bəzəkli-düzəkli qadınları qəbul etmirlər. Radikal feminizm özünün kulturoloji istiqamətini təyin etmək üçün qadın fəlsəfəsi və mədəniyyətini və s. yaratmağı təklif edir. Liberal feminist təşkilatların dəqiq strukturu mövcuddursa, radikal feministlər lidersizlik prinsipini əllərində əsas tuturlar. Onların kiçik qadın qruplarından olan təşkilatlara mütəmadi yığışırlar, nə iş görəcəklərini müzakirə edirlər. Radikal feministlərin siyasi mübarizə metodları da digər feministlərdən fərqlidir. Onlar üçün lobbizm, KİV vasitəsilə təbliğat aparmaq, etiraz nümayişi mübarizə vasitələri deyildir. İnqilabi əhvali-ruhiyyəli olduqları üçün 1960-cı illərin radikal feministləri tez-tez zorakılıq aktları təşkil edirlər (məsələn, girov götürürlər). Radikal feministlərin etiraz nümayişləri də ekstravaqant formalarda təzahür edir (məsələn, cadugər geyimində, lüt halda küçələrə çıxırlar).

**Sosialist feminizm**

Qadının zülmünü cəmiyyətdəki digər təzyiqlərlə əlaqələndirən sosialist feminizm 1970 ci illərdən çox əhəmiyyət kəsb edir.Sosialist feminizm tez-tez qadınların bənzərsiz təbiətinə diqqət yetirən mədəni feminizmlə ziddiyyət təşkil edirdi. Sosialist feminizm nəzəriyyəsi, digər tərəfdən feminizmi cəmiyyətin qalan hissəsindən ayırmamağa çalışırdı. 1970-ci illərdə sosialist feministlər qadın zülmünə qarşı mübarizələrini irqi,sinfi və ya iqtisadi ədalətsizliyə qarşı mübarizəyə birləşdirməyə üstünlük verdilər.Sosialist feministlər kişi və qadın arasındakı bərabərsizliyi düzəltmək üçün kişilərlə işləmək istəyirdilər.

Sosialist feminizm də Qadınlar Milli Təşkilatı kimi liberal feminizmdən də fərqlənirdi.Lakin qadın azadlıq hərəkatının liberal feminizmi hökumət, hüquq və təhsil də daxil olmaqla cəmiyyətin bütün qurumlarında qadınlar üçün bərabərlik axtarırdı.Sosialist feministlər bərabərlik üzərində qurulmuş cəmiyyətdə əsl bərabərliyin mümkün olduğu fikrini tənqid etdilər.Bu tənqid radikal feministlərin feminist nəzəriyyəsinə bənzəyirdi. Bununla yanaşı, sosialist feminizm radikal feminizmidən də fərqlənirdi, çünki sosialist feministlət qadınların qarşılaşdıqları cinsi ayrıseçkiliklərin bütün təzyiqlərin mənbəyi olduğu radikal feminst anlayışını rədd etdilər.Radikal feministlər ayrıseçkiliyi kəskin şəkildə dəyişdirmək üçün cəmiyyətdəki zülmün mənbəyini axtarmağa çalışırdılar.Kişi üstünlük təşkil edən patriarxal cəmiyyətdə bunu qadınlara edilən zülm kimi görürdülər.

Sosialist feministlər tərəfindm marksizm tənqid olunurdu, çünki marksizm qadın bərabərsizliyini təsadüfi və iqtisadi bərabərsizlik və ya sinfi sistemin yaratdığını söyləyir.Qadınlara edilən zülm kapitalizmin inkişafından əvvəl olduğuna görə, sosialist feministlər qadın zülmünün  sinif bölgüsü ilə yaradıla bilmədiyini iddia edirlər.Sosializm və marksizm ilk növbədə ictimai aləmdə azadlığı, xüsusən həyatın iqtisadi aləmində azadlığı əsas götürürlər.

**Marksist feministlər**

Marksist feministlar qadınlar və kişilər arasında mövcud olan diskriminasiyanın kökündə sosial sinfi bərabərsizliyin və bu bərabərsizliyin kökündə isə qadınların kişilərdən iqtisadi asılı olması faktorunun durduğunu iddia edirlər Marksizmə görə problemlərin kökündə kapitalizm rejimi durur,rejm aradan götürülərsə və sosialist rejimi ilə əvəz edilərsə, bütün problemlər avtomatik aradan qalxar.

**Liberal feminizm**

Liberal feministlər siyasi və hüquqi bərabərliyi vurğulayırdılar.Liberal feministlərin nümayəndələri hər zaman demokratiya prinsipləri çərçivəsindən çıxış edərək, lobbiçilik yaratmaqla seçki kompaniyasına təsir göstərməklə istədikləri bərabərliyi əldə etmək istəyirdilər.Qadınlara səsvermə hüququ verən ilk ölkə Yeni Zelandiya və Avstraliyadır.ABŞ-da ayrı-ayrı ştatlarda qadınlara səsvermə hüququ verilməyə başlandı.

XX əsrin əvvəllərində Finlandiyada, Norveçdə və Rusiyada qadınlara səsvermə hüququ verildi.

***Türk feminizmi*** Türk xalqlarında feminizm digər ölkələrdə mövcud olan feminizmdən köklü fərqlənir və türk xalqlarında feminizmin elementləri ta qədim zamanlardan mövcud olub. Ailə bərqərar olduğu gündən kişi evin-ailənin başçısı hesab edilsə də, ərləri ilə çiyin-çiyinə hər bir sahədə çalışan qadınlar bir çox məsələlərdə qərar verməkdə ərləri qədər olmasa da, müəyyən qədər iştirak edə biliblər. «Dədə Qorqud» dastanında deyildiyi kimi, qadın hər dövrdə istər müharibə olsun, istərsə də sülh, əri ilə bərabər getməyi bacarmalıdır (düzdür, bu dastanda qadınlara olan belə münasibət hər zaman gözlənilməmişdir). Kişilər özlərinə həyat yoldaşı seçəndə bir çox meyarlara önəm verirdilər. Qadın onlar üçün təkcə nəsil artıran, ev təsərrüfatı ilə məşğul olan statusda deyil, hərb zamanı da onlara yoldaşlıq etməyi bacaran bir şəxs olmalı idi. Kişilər evlənərkən təkcə qadın gözəlliyini əsas tutmurdular, yaxşı at sürməyi bacaran cəsur, dözümlü, mətanətli qadınlara daha çox üsrtünlük verirdilər. Doğrudur, patriarxal qayda-qanunlar Azərbaycanda yaşayan insanların çoxu üçün əsas idi, lakin bir çox tayfalarda qadın müstəqilliyi həmişə olub (qarapapağlar, əfşarlar, şahsevənlər, qacarlar, tərəkəmələr və s.). Azərbaycanda istər at sürən, qılınc oynadan, istərsə də dörd divar arasında qalan qadınlar üçün ərlərinə sədaqətli olmaq hər zaman bir nömrəli tələb sayılmışdır. Tarix boyu bir məsələ tədqiqatçıların diqqətini çəkib: Sərbəstlik verilən qadınlar doğru danışmağa, sıxışdırılan qadınlar isə dayanmadan yalana, saxtakarlığa meyilli olublar. ***Türk feminist hərəkatı ilə digər feminist hərəkatlar arasındakı əsas fərq türk qadınlarının əvvəllər nail olduqlarını yenidən əldə etmək ideyası uğrunda mübarizə aparmasıdır.*** Türk tarixində qadın və kişi bərabərliyi mövcud olmuşdur. Türk qadınlarının feminist hərəkatının hədəfində, əsasən, müəyyən tarixi dövrlərdə qadınların mənsub olduqları bərabərliyi yenidən əldə etmək olmuşdur, yəni tarixi ədaləti yenidən bərpa etmək. Gender bərabərliyinə aparan yol feminizmdən keçir Qadınların tarixi dəyərinin işıqlandırılması bəşəriyyətin yarı tarixinin canlandırılmasıdır. Cəmiyyətin hansı inkişafından söz açmaq olar ki, hələ bu gün də əhalinin yarısından çoxunu təşkil edən qadınların yaradıcılıq və təcrübəsinin üstündən xətt çəkməyə cəhd göstərənlərin sayı kifayət qədərdir.

## Mövzu 4. Cənubi Amerikada gender siyasətinin tarixi və hüquqi əsasları

Katolik Kilsəsində gender məsələləri kilsənin tarixi boyu həm intriqa, həm də mübahisə mövzusu olmuşdur. Kilsə gender rolları haqqında qurulmuş mədəni baxışlara əhəmiyyətli təsir göstərmişdir. Çoxarvadlılıq və köləlik kilsənin səyləri ilə sona çatsa da kilsə gender bərabərliyinə birmənalı baxmırdı. Tarixçilər qeyd edirlər ki, katolik missionerlər, papalar

və dindarlar köləliyə qarşı kampaniyaların liderləri arasında idilər, bu, demək olar ki, hər mədəniyyətdə mövcud olan bir qurumdur və tez-tez qadınların cinsi köləliyini ehtiva edir. Kilsə boşanma, çoxarvadlılıq və həm kişilərin, həm də qadınların nikah xəyanətini, qız uşaqlarının öldürülməsini pisləmişdir. Bəzi tənqidçilər deyirlər ki, Kilsə və Müqəddəs Pavelin, Kilsə Atalarının və sxolastik ilahiyyatçıların təlimləri qadınların aşağılığının ilahi olaraq təyin edildiyi anlayışını davam etdirirdi, indiki müasir Kilsə təlimi isə qadınları və kişiləri bərabər hesab edir. Kilsəyə görə cinsi akt, nikah kişi və qadın arasında ömürlük olmalıdır. Xristianlığın gəlişindən əvvəl çoxarvadlılıq və cariyəlik vardi. Roma İmperiyasında Xristiyanlığın başlanğıcında ictimai quruluşlar qadınların intellektual və fiziki cəhətdən kişilərdən aşağı olduğunu və "təbii olaraq asılı" olduğunu qəbul edirdi. Afinalı qadınlar qanuni olaraq yaşından asılı olmayaraq uşaq kimi təsnif edilirdilər və "həyatının bütün mərhələlərində kişinin qanuni mülkiyyəti" idilər. Katolik inancına görə qadınlar məhdud qanuni hüquqlara malik idilər. Xristianlığa qədər ailə həyatında qadınların deyil, kişilərin “sevgililəri, fahişələri və cariyələri” ola bilərdi və bütpərəst qadınların yetkinlik yaşına çatmamış ərə getmələri və sonradan çox vaxt özündən xeyli yaşlı əri ilə nikah bağlamağa məcbur olmaları nadir deyildi. Arvad deyil, ərlər, sadəcə olaraq, arvadına getməsini deməklə istənilən vaxt boşana bilərdilər. Xristianlığın yayılması kişidən yalnız bir arvad almağı və onu ömürlük saxlamağı tələb etməklə, qadınların da, kişilərin də xəyanətini pisləməklə və yetkinlik yaşına çatmamış qızların evliliyinə son qoymaqla qadınların həyatını bir çox cəhətdən dəyişdirdi. Kilsənin əsas tərəfdarları olan qadınlar, ilk növbədə amerikalı xristianlar idi. Köləlik və insan qurbanı avropalılar gəlməmişdən əvvəl Latın Amerikası mədəniyyətinin bir hissəsi idi. İspan fatehləri müntəzəm olaraq hind qadınlarını əsarət altına alır və qadınlar cinsi istismara məruz qalırdılar. **Hind köləliyi ilk dəfə Papa III Paul tərəfindən 1537-ci ildə Sublimis Deus tərəfindən ləğv edildi** və bu, "onların ruhlarının avropalılarınki kimi ölməz olduğunu" təsdiqlədi və onlar nə qarət olunmalı, nə də qullara çevrilməlidirlər. İspan ordusu cənubi amerikalı kişilərə və qadınlara qarşı pis rəftarları ilə tanınsa da, katolik missionerləri hindular üçün qoruyucu qanunlar qəbul etmək üçün bütün səyləri dəstəkləmiş və onların əsarətinə qarşı mübarizə aparmışlar. Latın Amerikasındakı missionerlər hindlilər həddindən artıq çılpaq gəzdikləri üçün onlardan paltar geyinmələrini tələb edirdilər. Evlilikdən əvvəl cinsi əlaqə, zina, çoxarvadlılıq kimi ümumi Hindistan cinsi təcrübələri missionerlər tərəfindən tez bir zamanda əxlaqsız hesab edildi və qadağan edildi. Bu yeni qaydalarla razılaşmayan hindular ya missiyaları tərk etdilər, ya da fəal şəkildə üsyan etdilər. Qadınların rolları bəzən qadınların dini mərasimlərdə və ya cəmiyyətdə əvvəllər yerinə yetirdiyi vəzifələri istisna etmək üçün azaldılırdı.

Katolik Kilsəsi, eləcə də bütün xristian məzhəbləri öz tarixləri boyu süni doğuşa nəzarət üsullarını pisləmişlər. Bu, 20-ci əsrdə İngiltərə Kilsəsi 1930-cu ildə bu praktikanı qəbul edən ilk şəxs olduqdan sonra dəyişməyə başladı. Kilsə çoxuşaqlı ailələri təşviq edir və bunu xeyir-dua kimi görür. O, həmçinin etiraf edir ki, məsuliyyətli valideynlik bəzən

doğuşlar arasında ağlabatan interval və ya məhdudiyyət tələb edir və beləliklə, təbii ailə planlamasını mənəvi cəhətdən məqbul hesab edir, lakin süni kontrasepsiya üsullarını rədd edir. Kilsə süni mayalanma və mayalanmanın bütün formalarını rədd edir, çünki bu cür üsullar cinsi aktı uşağın yaradılmasından ayırır. Kilsə süni doğuşa nəzarətə qarşı çıxdığı üçün, köhnəlmiş kilsə təlimlərinə və əhalinin həddindən artıq artmasına və yoxsulluğa töhfə verdiyinə görə tənqid edlir. Kilsənin prezervativlərdən istifadəni rədd etməsi QİÇS və HİV-ə yoluxma hallarının epidemiya həddinə çatdığı ölkələrə münasibətdə xüsusilə tənqid olunur.

***Katolik Kilsəsində qadınlar.***

Ümumiyyətlə Katolik Kilsəsində yalnız kişilər yepiskoplar, kahinlər və ya diakonlar kimi Müqəddəs Ordenlərin müqəddəs mərasimi ilə təyin edilmiş ruhani ola bilərlər. Yepiskop olan bütün ruhanilər Yepiskoplar Kollecini təşkil edir və həvarilərin davamçıları hesab olunurlar. Kilsədəki subaylıq təcrübəsi İsanın nümunəsinə və eləcə də subaylığın insana Rəbbə xidmətdə icazə verdiyi üstünlüklərdən bəhs edən Müqəddəs Pavelin yazılarına əsaslanır. Kilsənin başlanğıcından bəri subaylıq "yüksək hörmətlə qarşılanırdı". Bu, ilk xristian ilahiyyatçısı Origen tərəfindən daha da populyarlaşan bir konsepsiya olan Məsihlə bir növ mənəvi evlilik hesab olunur. Papa Sirisius ilə başlayan papalıq fərmanları da daxil olmaqla, 4-cü əsrdə ruhanilərin subaylığı tələb olunmağa başladı. 11-ci əsrdə orta əsr kilsəsində islahatların aparılması səylərinin bir hissəsi kimi məcburi subaylıq tətbiq edildi. Katolik görüşü belədir ki, İsanın seçdiyi on iki həvarinin hamısı kişi olduğundan, Katolik Kilsəsində yalnız kişilər təyin oluna bilər. Bəziləri bunu qadınlara qarşı ayrı-seçkilikçi münasibətin sübutu hesab etsə də, Kilsə inanır ki, İsa qadınları kilsə xidmətində fərqli, lakin eyni dərəcədə vacib vəzifələrə çağırmışdır. Rəsmi kilsə təlimi qadınları və kişiləri bərabər və “bir-birini tamamlayan” hesab edir. İsanın anası Məryəmə Məsihin və Kilsənin “tərbiyəli anası” kimi xüsusi rol və sədaqət verilir. Marian sədaqəti katolik sənətinin mərkəzi mövzusu olmuşdur və kilsə təlimlərində analıq və ailə müqəddəs statusa malikdir.  Əksinə, Həvvanın Bibliyadakı Eden bağı hekayəsindəki rolu, Qərbdə qadının "təqsirkar" kimi təsəvvürünün inkişafına təsir etdi. Müqəddəs Paulun qadınlar haqqında və qadınlar üçün kilsə direktivləri haqqında deyəcəkləri çox şey var idi. Məsihin yalnız kişi həvariləri seçdiyi İncilləri oxumağa əsaslanaraq, Kilsə qadınları kahinliyə təyin etmir. Buna baxmayaraq, tarix boyu qadınlar Benediktinlər, Dominikanlılar, Loreto bacıları, mərhəmət bacıları, kasıbların balaca bacıları, Josephites kimi rahibələrin və ya bacıların dini əmrləri ilə, xüsusən də xəstəxanalarda və məktəbdə, katolik institutlarının idarə edilməsində əhəmiyyətli təsirə nail olmuşlar.

Patriarxal sistemdə kilsə qadınları siyasi, iqtisadi və hüquqi qərarvermədən kənar saxlayırdı. “Machismo” (kişilik kultu) və “marianismo” (Məryəm Ana idealı — itaətkar, təmiz və fədakar qadın modeli) gender münasibətlərini formalaşdırırdı. Katolik doktrinasına görə qadının yeri ev və ailə olaraq görülürdü. Kilsə nikahı pozulmaz sayırdı,

boşanma qadağan idi və yalnız bəzi ölkələrdə XX əsrdə qanuniləşdi. Doğum nəzarəti və abort sərt şəkildə qadağan edilirdi. Uzun müddət yalnız dini məktəblərdə qızlara təhsil verilirdi. Universitetlərdə qadınların təmsilçiliyi XIX əsrin sonlarına qədər çox az idi. Ər qadının işləməsinə, səyahətinə və mülkiyyət hüququna icazə vermək səlahiyyətinə sahib idi. Ailə içi zorakılıq uzun müddət "şəxsi ailə məsələsi" kimi qəbul edilirdi.  XX əsrin ortalarından sonra gender münasibətlərinin dəyişməsinə bir neçə amil təsir etdi.

- Qadınların təhsil səviyyəsinin yüksəlməsi.
- Qadın hərəkatlarının və feminist təşkilatların yaranması.
- 1960–70-ci illərdə urbanizasiya və iqtisadi dəyişikliklər.
- Kilsənin təsirinin zəifləməsi
- Sekulyar qanunvericiliyin güclənməsi (boşanmanın və reproduktiv hüquqların leqallaşdırılması)
- BMT və regional insan hüquqları mexanizmlərinin təzyiqi.

Braziliyada qadınların cəmiyyətdə rolları katolik kilsəsinin qadınları ailəvi və icma münasibətlərində kişilərə tabe edən patriarxal ənənələrindən təsirlənmişdir. Braziliyanın Latın Amerikasındakı ən mütəşəkkil və təsirli qadın hərəkatına sahib olduğu düşünülür, son əsrdə qadınların qanuni və siyasi hüquqlarını qorumaq üçün bir çox addımlar atılıb. Uğurlara baxmayaraq Braziliyada qadınlar hələ də gender bərabərsizliyi ilə üzləşirlər. 2010-cu ildə BMT Braziliyanı Gender bərabərsizlik indeksinə əsaslanan 169 millət arasında 73-cü sırada elan etdi. 1979-cu ildə Braziliya qadınlara qarşı hər cür ayrı-seçkiliyin aradan qaldırılması məqsədi daşıyan BMT konvensiyasını imzaladı. 1988-ci il Braziliya Konstitusiyasının 5-ci maddəsinə görə Braziliyadakı qadınlar açıq şəkildə kişilərlə eyni qanuni hüquq və vəzifələrdən istifadə edirlər. Dünya İqtisadi Forumu Braziliyanın təhsil və sağlamlıq müalicəsindəki gender fərqlərini demək olar ki ortadan qaldırdığını, lakin qadınların maaş və siyasi təsir baxımından geridə qaldığını qeyd etdi. Əmək və Məşğulluq Nazirliyinin verdiyi məlumata görə, Braziliyada qadınlara kişilərdən yüzdə 30 daha az maaş verilir. 2005-ci ildə BMT-nin Xüsusi Məruzəçisi qadınların "mühakimə və Respublika Prokurorluğunda ən yüksək vəzifələrin yalnız 5 faizini" tutduqları məhkəmə sistemindəki qadın təmsilçiliyinin olduqca aşağı səviyyədə olduğunu qeyd etdi. Senatda ilk qadın vəzifəsinə 1979-cu ildə seçildi. Qadınlar ilk dəfə 1994-cü ildə vitse-prezidentliyə namizəd oldular. 2009-cu ildən etibarən milli parlamentdəki yerlərin 9%-i qadınlar tərəfindən tutuldu. 1988-ci il Vətəndaşlar Konstitusiyası kişilər və qadınların bərabər hüquqlara və vəzifələrinə sahib olduqlarını açıq şəkildə ifadə edərək qadınları bütün hüquqi cəhətdən kişilərə bərabər elan etdi. Bu cür hüquqların elan olunmasına baxmayaraq, 2000-ci illərə qədər bu qanunları tətbiq edəcək qurumlar qurulmamışdır. Dünya Bankına görə, Braziliyada qeyri-kənd təsərrüfatı sektorunda işləyənlərin 42% -i qadınlardır. Braziliya qanunları uşaq dünyaya gəldikdə qadınlara 120 gün, kişilərə yeddi gün ödənişli məzuniyyət verir. Qanun, işəgötürənlərin

müraciət edənlərdən və ya işçilərdən hamiləlik testlərindən keçmələrini və ya sterilizasiya sertifikatları təqdim etmələrini tələb etmələrini də qadağan edir. Qanun pozuntuları işəgötürənlər üçün iki ilə qədər həbs cəzası ilə cəzalandırılır, şirkət isə ən çox qazanan işçinin maaşının 10 misli miqdarında cərimə edilə bilər.

Təhsilə gəldikdə, savadlılıq dərəcəsi qadınlar üçün kişilərə yaxındır. Savadlılıq dərəcəsi (oxumaq və yazma qabiliyyəti ilə 15 yaş və daha yuxarı olaraq təyin olunur) 2010-cu ildə 90,7% qadın və 90,1 % kişi olaraq qiymətləndirilmişdir. Ümumilikdə, universitetlərdə olan bütün Braziliyalıların 53%-i qadındır. Qadınlar üçün təhsildə irəliləmə on illər əvvəl başlamışdır. 1879-cu ildə Braziliyanın ali təhsil müəssisələri, əsasən şəhərli, ağdərili qadınlardan ibarət olan yuxarı sinifləri qəbul etdi; qadın əhalinin qalan hissəsi isə savadsız qaldı. 1970-ci ildə Braziliyada mühəndislər, memarlar, diş həkimləri, iqtisadçılar, professorlar, hüquqşünaslar və həkimlər daxil olmaqla təxminən 19.000 qadın mütəxəssis var idi. 1980-ci ilə qədər bu sahələrdə təxminən 95.800 qadın var idi.

**Ailə-Evlilik**

Nikah üçün qanuni minimum yaş həm qadınlar, həm də kişilər üçün 18-dir. İlk nigahda orta yaş qadınlarda 22,6 yaş, kişilərdə 25,3 yaşdır. Keçmişdə, *Braziliyanın mülki məcəlləsinə əsasən, ər, uşaqlar və ailə qərarları üzərində tam səlahiyyətə sahib olan ailənin qanuni başçısı idi.* Bu günlərdə işlər olduqca fərqlidir, 2002-ci il Mülki Məcəllənin birinci maddəsində mövcud qanunun yeni istiqaməti, "hər kişi" ifadəsinin "hər kəs" əvəzinə əvəzlənməsi ilə aydın görünür. Ayrıca, kişinin soyadını daşımaq məcburi deyil. Evlilik yolu ilə kişi və qadın ər-arvadın şərtlərini qarşılıqlı olaraq qəbul edirlər, bu vəzifələr arasında sadiqlik var, bu da monoqam münasibətləri, qarşılıqlı sədaqəti, evlilik evində birlikdə yaşamağı; qarşılıqlı yardım; uşaqlara dəstək, qəyyumluq və təhsil; qarşılıqlı hörmət və diqqəti nəzərdə tutur. *1977-ci ildə Braziliyada boşanma qanuni oldu*, qanunla hər bir insana ömür boyu yalnız bir boşanma icazəsi verildi. Bu şərt 1988-ci ildə aradan qaldırıldı. Kişilər boşanma sənədləri imzalandıqdan dərhal sonra yenidən evlənə bilər, ancaq qadınlar nikahlarını 270 gün təxirə salmalıdırlar.

**Argentina,** Latın Amerikasında gender bərabərliyi sahəsində ən qabaqcıl qanunvericiliyə malik ölkələrdən biridir. Son onilliklərdə aparılan hüquqi islahatlar qadınların və gender azlıqlarının siyasi, sosial və iqtisadi həyatda daha geniş iştirakına imkan yaradıb. Lakin, hüquqi bərabərlik hələ tam şəkildə gündəlik həyata tam əks olunmayıb. Qadınlar və kişilər arasında hüquqlar qanunvericilikdə bərabər şəkildə təmin olunub. Əsas hüquqlar bunlardır:

- Siyasi hüquqlar: Qadınlar seçmək və seçilmək hüququna malikdir. 2017-ci ildən qüvvədə olan Paritet Qanununa əsasən, seçki siyahılarında qadın və kişilərin sayı bərabər olmalıdır.
- Təhsil hüququ: Qadın və kişilər hər səviyyədə bərabər şəkildə pulsuz təhsil ala bilirlər.
- Əmək hüquqları: Qanun eyni iş üçün eyni maaş prinsipini təsbit edir, analıq məzuniyyəti və diskriminasiyadan qorunma təmin olunur.
- Mülkiyyət və irs hüquqları: Kişilər və qadınlar eyni dərəcədə mülkiyyət əldə etmək və miras almaq hüququna malikdirlər.
- Reproduktiv hüquqlar: 2020-ci ildən etibarən abort qanunidir. Qadınlar kontrasepsiya və reproduktiv sağlamlıq xidmətlərindən sərbəst istifadə edə bilirlər.
- Gender kimliyi hüquqları: 2012-ci ildə qəbul edilmiş "Ley de Identidad de Género" qanunu trans və qeyri-binar şəxslərin öz cinsi kimliyini rəsmi sənədlərdə azad şəkildə dəyişməsinə imkan verir.

Hüquqların qanunvericilikdə tanınmasına baxmayaraq, real həyatda bərabərlik tam şəkildə təmin olunmayıb. Mövcud problemlər:

- Maaş bərabərsizliyi: Statistik məlumatlara görə, qadınlar eyni işi görəndə kişilərdən orta hesabla 27% az maaş alır.
- Əmək bazarındakı mövqe: Qadınlar daha çox qeyri-rəsmi və aşağı maaşlı işlərdə çalışırlar.
- Ödənişsiz əmək yükü: Qadınlar kişilərə nisbətən iki dəfə çox ev işi və uşaq baxımı ilə məşğul olur.
- Zorakılıq halları: 2024-cü ilin statistikasına görə, hər 30 saatda bir qadın femisid qurbanı olur.
- Siyasi təmsilçilikdə boşluqlar: Parlamentdə paritet təmin olunsa da, yüksək icra və rəhbərlik vəzifələrində kişilər üstünlük təşkil edir.
- Regional fərqlər: Böyük şəhərlərdə gender bərabərliyi daha geniş şəkildə tətbiq olunur, lakin kənd yerlərində ənənəvi gender rolları hələ də güclüdür.

Argentinada feminist hərəkatların güclü fəaliyyəti gender bərabərliyi prosesini sürətləndirib. 2015-ci ildə yaranan *"Ni Una Menos"* ("Bir nəfər də az olmayacaq") hərəkatı femisidlərə və gender zorakılığına qarşı mübarizədə mühüm sosial təkan yaradıb. Bu hərəkatın təzyiqi nəticəsində bir sıra qanunlar qəbul edilib və gender məsələləri daha çox ictimai diqqətə çıxarılıb.

**Peru** son onilliklərdə gender bərabərliyinin təmin olunması istiqamətində mühüm hüquqi islahatlar həyata keçirmişdir. Regionda ən çox sosial qeyri-bərabərliyin hökm sürdüyü Peruda qadınların siyasi təmsilçiliyini artırmaq, əmək bazarında bərabər imkanlar

yaratmaq və gender zorakılığı ilə mübarizə aparmaq məqsədilə müxtəlif qanunvericilik aktları qəbul olunmuşdur. Bununla belə, mövcud sosial-mədəni strukturlar, iqtisadi bərabərsizliklər və hüquqi mexanizmlərin zəif icrası nəticəsində qadınlar hələ də real həyatda tam bərabərliyə nail ola bilməmişlər. Peru Konstitusiyası və milli qanunvericilik gender bərabərliyi prinsipini təsbit edir. Peruda qadınların seçmək və seçilmək hüquqları tanınmışdır. 2019-cu ildə qəbul edilən qanuna əsasən, siyasi partiyaların namizəd siyahılarında qadın və kişilərin bərabər təmsilçiliyi məcburidir. Qadınlar mülkiyyət əldə etmək, idarə etmək və miras almaq baxımından kişilərlə eynidir. 2015-ci ildə qəbul edilən "Qadınlara qarşı zorakılığın qarşısının alınması, cəzalandırılması və ləğvi haqqında qanun" geniş hüquqi baza təmin etmişdir. Hüquqi normaların mövcudluğuna baxmayaraq, onların praktik tətbiqində ciddi boşluqlar mövcuddur. Parlamentdə qadınların sayı 38% civarındadır, lakin icra hakimiyyətində yüksək vəzifələrdə kişilər üstünlük təşkil edir. 2023-cü ildə 160-dan çox femisid hadisəsi qeydə alınmışdır. Zorakılıq qurbanlarının əksəriyyəti qoruma mexanizmlərinə baxmayaraq, həyatlarını itirirlər. Peruda hələ də patriarxal ənənələr və gender stereotipləri hələ də güclü mövqeyə malikdir. Xüsusilə kənd yerlərində qadınların ictimai həyatda iştirakı məhdudlaşdırılır və ev işi ilə uşaq baxımı onların əsas rolu kimi qəbul edilir. Bu, qadınların iqtisadi və siyasi imkanlarını məhdudlaşdıran mühüm sosial faktor olaraq qalır. 2016-cı ildən etibarən *"Ni Una Menos"* hərəkatı Peruda da güclənmişdir. Bu hərəkat femisidlərə və gender zorakılığına qarşı genişmiqyaslı aksiyalar təşkil edərək ictimai rəyi hərəkətə gətirmiş, hökuməti hüquqi tədbirləri sərtləşdirməyə vadar etmişdir. Bununla belə, qanunların icrasında davamlı nəzarət və effektiv mexanizmlər hələ də yetərli deyil.

**Paraqvay** gender bərabərliyi istiqamətində hüquqi öhdəliklər götürmüş, lakin regionda bu sahədə **ən yavaş irəliləyən** ölkələrdən biridir. Qanunvericilikdə bərabərlik prinsipi təsbit edilsə də, qadınların siyasi təmsilçiliyi, iqtisadi imkanları və zorakılıqdan qorunması sahəsində ciddi problemlər mövcuddur. Qadınların seçmək və seçilmək hüquqları mövcuddur, lakin namizəd siyahılarında gender kvotası yoxdur. Parlamentdə qadınların təmsilçiliyi Latın Amerikasında ən aşağı göstəricilərdən biridir (təxminən 15%). Qanun eyni iş üçün eyni maaş prinsipini təsbit etsə də, əməliyyatda maaş fərqləri yüksəkdir. Analıq məzuniyyəti təmin edilir, lakin qeyri-rəsmi sektorda çalışan qadınlar bundan yararlana bilmir. Qanunla bərabər təmin olunur, lakin kənd yerlərində qız uşaqların məktəbdən erkən ayrılma halları çoxdur. 2000-ci illərin sonundan bəri gender zorakılığı ilə bağlı qanunlar mövcuddur, lakin femisidlərə qarşı ayrıca hüquqi çərçivə yalnız 2016-cı ildə tətbiq edilmişdir. Patriarxal stereotiplər, xüsusən kənd yerlərində, qadınların ictimai həyatda iştirakını məhdudlaşdırır.

**Uruqvay,** Latın Amerikasında gender bərabərliyi göstəricilərinə görə **qabaqcıl mövqelərdən** birini tutur. Qanunvericilikdə gender bərabərliyi prinsipi geniş şəkildə

təsbit olunmuş və bir çox sosial siyasət vasitəsilə dəstəklənmişdir. Bununla belə, maaş fərqləri və gender zorakılığı kimi problemlər cüzi də olsa hələ də mövcuddur. Qadınların seçmək və seçilmək hüquqları təmin olunur. 2009-cu ildən siyasi partiyaların namizəd siyahılarında minimum 30% qadın təmsilçiliyi tələbi mövcuddur. Qanun eyni iş üçün eyni maaş prinsipini, həm analıq, həm də atalıq məzuniyyətini nəzərdə tutur. Qız və oğlan uşaqları üçün bərabər təhsil imkanları mövcuddur və təhsildə qızlarda geri qalma yoxdur. 2012-ci ildən abort qanunidir, reproduktiv sağlamlıq xidmətləri dövlət tərəfindən təmin edilir. 2017-ci ildə qəbul edilən "Gender əsaslı zorakılığa qarşı hərtərəfli qanun" femisidi cinayət kimi tanıyır və zərərçəkmişlər üçün geniş qoruma tədbirləri nəzərdə tutur. Gender bərabərliyi məsələləri dövlətin sosial proqramlarında prioritet mövqedədir, lakin stereotiplərin tam aradan qaldırılması üçün uzunmüddətli iş tələb olunur.

**Kolumbiya**da gender bərabərliyi son onilliklərdə həm hüquqi, həm də institusional səviyyədə nəzərəçarpacaq irəliləyişlər göstərmişdir. 1991-ci il Konstitusiyası qadın və kişi vətəndaşların bərabər hüquqlara malik olduğunu təsbit edir və gender əsaslı ayrı-seçkiliyi qadağan edir. Qanunvericilik sahəsində xüsusilə iki istiqamət önə çıxır: qadınların siyasi təmsilçiliyinin artırılması və gender əsaslı zorakılığın qarşısının alınması. 2011-ci ildə qəbul edilən **"Ley de Cuotas"** (Kvota Qanunu) dövlət idarələrində və siyasi partiyalarda qadınların ən azı 30% təmsil olunmasını tələb edir. Lakin bu kvota hədəfinin icrası bəzən formal xarakter daşıyır, çünki real təsir imkanları və liderlik mövqelərində iştirak hələ də məhduddur. Gender əsaslı zorakılığın qarşısının alınması üçün 2008-ci il **Ley 1257** qanunu qəbul edilmişdir ki, bu da fiziki, psixoloji və iqtisadi zorakılığa qarşı müdafiə mexanizmləri təqdim edir. Bununla belə, ölkədə silahlı münaqişənin uzun illər davam etməsi qadınların təhlükəsizliyi və sosial-iqtisadi iştirak imkanlarına mənfi təsir göstərmişdir. Kolumbiyada qadınların əmək bazarına qoşulma səviyyəsi yüksəlməkdədir, lakin qeyri-rəsmi məşğulluq və maaş fərqləri qalmaqdadır. Xüsusən kənd yerlərində və yerli icmalarda yaşayan qadınlar həm təhsil, həm də səhiyyə xidmətlərinə çıxışda ciddi çətinliklərlə üzləşirlər.

**Boliviya** gender bərabərliyi sahəsində Latın Amerikasında ən güclü hüquqi çərçivələrdən birinə malikdir. 2009-cu il Konstitusiyası yalnız hüquqi bərabərliyi təsbit etməklə kifayətlənmir, həm də qadınların dövlət idarəçiliyində bərabər təmsilçiliyini təmin etməyi dövlətin öhdəliyi kimi müəyyən edir. 2010-cu il Qadınların Əməkdaşlığı və Siyasi Təmsilçiliyi Qanunu (Ley 026) və 2012-ci il Qadınlara qarşı Siyasi Zorakılığın Qarşısının Alınması Qanunu qadınların siyasi proseslərdə iştirakını gücləndirmək üçün mühüm addımlar hesab olunur. Boliviyada parlamentdə qadın təmsilçiliyi 50%-ə yaxın səviyyədədir, bu isə bölgə üzrə ən yüksək göstəricilərdən biridir. Bununla belə, qadın siyasətçilərə qarşı siyasi zorakılıq, hədə-qorxu və sosial təzyiqlər hələ də ciddi problemdir. 2013-cü il **Ley 348** – qadınlara qarşı zorakılığın qarşısının alınması haqqında

qanun – zorakılığın bütün formalarını cinayət hesab edir və dövlət orqanlarını preventiv tədbirlər görməyə məcbur edir.

**Çili** son illərdə gender bərabərliyinin təmin olunması istiqamətində önəmli qanunvericilik və sosial islahatlar həyata keçirmiş ölkələrdəndir. 2018-ci ildə qəbul edilən Gender Pariteti Qanunu siyasi partiyalarda qadınların namizəd siyahılarında bərabər təmsilçiliyini təmin etmiş, həmçinin qadınların sosial və iqtisadi sahələrdə iştirakının artırılması üçün dövlət proqramları tətbiq olunmuşdur. Seçmək və seçilmək hüquqları təmin olunmuşdur. 2018-ci il qanunu ilə siyasi partiyalar namizəd siyahılarında 40% qadın kvotasını təmin etməlidirlər. Eyni iş üçün eyni maaş prinsipi qanunla təsbit olunub. Həm analıq, həm də atalıq məzuniyyətləri mövcuddur. 2017-ci ildə abort yalnız məhdud hallar üçün qanuniləşdirilmişdi, 2021-ci ildə isə abort hüquqları daha da genişləndirildi. 2019-cu ildə qəbul edilən qanun gender əsaslı zorakılıqla bağlı cinayət məsuliyyətini gücləndirdi və qadınlar üçün qoruma mexanizmlərini artırdı. Qadınların işçi qüvvəsində iştirakı yüksəkdir, lakin rəhbər vəzifələrdə kişilər üstünlük təşkil edir. Parlamentdə qadınların payı 22-25% arasında dəyişir. Hər il qadınlara qarşı zorakılıq hadisələri qeydə alınır və femisidlər sosial problem olaraq qalır. Gender bərabərliyinin təşviqi üçün dövlət və qeyri-hökumət təşkilatları tərəfindən geniş proqramlar həyata keçirilir. **Ekvador** gender bərabərliyi məsələlərində həm hüquqi islahatlar, həm də sosial siyasətlər baxımından müəyyən irəliləyişlər əldə etmiş ölkədir. 2008-ci il Konstitusiyası qadın və kişi hüquqlarını bərabər şəkildə təsbit etmiş, 2014-cü ildə isə gender kvotası tətbiq olunmağa başlanmışdır. Qadınların seçmək və seçilmək hüququ qanunla təmin olunub. 2014-cü ildən siyasi partiyaların seçki siyahılarında qadınların ən azı 30% təmsil olunması tələb edilir. Qanun eyni iş üçün eyni maaş prinsipini təsbit edir, həmçinin analıq məzuniyyəti mövcuddur. Abort hüquqları məhdudlaşdırılmışdır; abort yalnız zorakılıq və ya ana həyatı üçün təhlükə olan hallarda qanunidir. Qadınlara qarşı zorakılığın qarşısının alınması və cəzalandırılması üçün qanunlar mövcuddur, lakin tətbiqində problemlər qalır. Qadınların çoxu qeyri-rəsmi sektorda çalışır və sosial müdafiə imkanları məhduddur. Parlamentdə qadınların payı təxminən 38%-dir, lakin icra hakimiyyətində az təmsil olunurlar. Femisid və ailədaxili zorakılıq hadisələri hələ də yüksək səviyyədə qalır. Patriarxal dəyərlər və gender rolları qadınların tam sosial və iqtisadi iştirakı üçün əngəl yaradır.

**Venesuellanın** Konstitusiyası qadınların və kişilərin bərabər hüquqlara malik olduğunu təsbit edir və gender ayrı-seçkiliyinə qarşı ciddi tədbirlər nəzərdə tutur. Buna baxmayaraq, iqtisadi böhran, sosial problemlər və siyasi qeyri-sabitlik qadınların gündəlik həyatında bərabər imkanların təmin olunmasını çətinləşdirir. 2000-ci ildə qəbul edilən qanun siyasi partiyaların siyahılarında qadınların minimum 40% təmsil olunmasını tələb edir. Qanun eyni iş üçün eyni maaş prinsipini təsbit edir və analıq məzuniyyəti təmin edir. Lakin iqtisadi çətinliklər səbəbindən əmək bazarında qeyri-rəsmi məşğulluq geniş

yayılıb. Abort hüquqları məhduddur, yalnız ana həyatı üçün təhlükə olan hallarda qanunidir. Kontrasepsiya vasitələrinin əlçatanlığı sosial və iqtisadi böhran səbəbindən məhdudlaşmışdır. 2007-ci ildə qəbul edilən Ley Orgánica sobre el Derecho de las Mujeres a una Vida Libre de Violencia qadınlara qarşı zorakılığın bütün formalarını qadağan edir və qoruma mexanizmləri təqdim edir. Qeyri-rəsmi məşğulluq geniş yayılıb və qadınların sosial müdafiə sisteminə çıxışı məhduddur. Parlamentdə qadınların payı 40%-ə yaxın olsa da, yüksək səviyyəli icra və rəhbərlik vəzifələrində kişilər üstünlük təşkil edir. Femisid və ailədaxili zorakılıq halları ciddi sosial problem olaraq qalır; mühafizə mexanizmləri isə iqtisadi və siyasi böhran səbəbindən kifayət qədər effektiv deyil. Son illərdə ölkədə baş verən iqtisadi və siyasi qeyri-sabitlik qadınların təhsil, səhiyyə və sosial xidmətlərə çıxış imkanlarını məhdudlaşdırıb, gender bərabərliyinin inkişafını ləngidir.

## Mövzu 5. Cənubi Amerika ölkələrində qadın hərəkatının inkişafı

19-cu əsrə qədər bəzi hüquqşünaslar ərin razılığı ilə və ya olmadan qadınların seçki hüquqlarını leqallaşdırmağa çalışdılar. 1919-cu ildə Braziliyada Bertha Lutz ilə birlikdə Braziliya feminist hərəkatının öncüsü sayılan Nísia Floresta, səsvermə hüququ və ərin icazəsi olmadan işləmək hüququ uğrunda mübarizə aparan Braziliya Qadınların İnkişafı Federasiyasını qurdu. Əvvəlki konstitusiyayın 70-ci maddəsində deyilirdi *21 yaşdan yuxarı olan bütün vətəndaşlar seçicilərdir*. Zamanın təfsirinə görə "vətəndaşlar" ifadəsi yalnız kişilərə aid edilmişdi. **Qadınlar yalnız 1932-ci ildə səsvermə hüququ əldə etdilər**. Braziliyada feminist hərəkatlar Avropa mübarizələrindən ilhamlandı. Nísia Floresta özünü 1930-cu ildə Qadın Tərəqqi Federasiyasını yaradan Bertha Lutz kimi qadınların bərabərliyi yolunda bir qüvvə kimi göstərən ilklərdən biridir. 60-70-ci illərdə feminizm bütün Avropada və ABŞ-da meydana gəldi və bölgəni cəmiyyətin mühafizəkar dəyərlərinə meydan oxuyan siyasi və mədəni təlatümlərdən aldı. Lakin Braziliyada ssenari çox fərqli idi. Ölkədə hərbi diktatura var idi. Repressiyanın zirvəsində, feminist hərəkatı Romy Medeiros da Fonsecanın əlləri ilə yenidən ortaya çıxdı. Bu hərəkət, ər və arvad arasında evlilikdə bərabərlik prinsipi və Braziliya qanunvericiliyində boşanmanın tətbiq edilməsi də daxil olmaqla, tələblər dairəsini genişləndirdi. 1980-ci ildən bəri feminist hərəkatın müvəffəqiyyətləri, əvvəlki bütün mübarizə illərinin nəticəsi olaraq böyük idi. 1980-ci ildə şou TV Mulher (TV Woman) yayımlandı. Rede Globo Mətbəx və dekorasiya kimi mövzuların müzakirə olunduğu TV şəbəkəsi idi. Daha sonra bədən, cinsiyyət və azadlıq haqqında danışmaq zərurəti ortaya çıxdı, bu mövzular Braziliya musiqisində yer almağa başladı.

Ümumiyyətlə, Cənubi Amerika ölkələrində qadın hərəkatları ilkin mərhələdə sırf sosial xeyriyyə və maarifçilik məqsədi daşıyırdı. İlk qadın təşkilatları xeyriyyəçilik və təhsil mərkəzli idi (əsasən yuxarı təbəqədən olan qadınlar). Məqsəd qızların təhsili, kasıblara yardım, xəstəxanaların dəstəklənməsi idi. Kilsənin təsiri hələ də güclü idi, hərəkatlar "ənənəvi qadın rolları" çərçivəsində idi. Argentina və Uruqvayda ilk qadın dərnəkləri (Club de Señoras, Sociedad de Beneficencia), Braziliyada Bertha Lutz-un rəhbərlik etdiyi feministik qruplar olub. 1930–1960-cı illərdə Cənubi Amerika ölkələrində siyasi hüquqlar uğrunda mübarizə başladı. Səsvermə hüququ, dövlət vəzifələrinə seçilmək imkanı üçün kampaniyalar başladı, qadın təşkilatları "hüquq bərabərliyi" mövzusunu gündəmə gətirdi. Bu dövrün liderləri Eva Perón (Argentina), Paulina Luisi (Uruqvay) — ilk qadın feminist liderlər idi. Bu dövrdə Cənubi Amerikada qadınlar səsvermə hüququ aldilar. Cənubi Amerikada qadınlara seçki hüququnu ilk tanıyan ölkə **Ekvador** olub. 1929-cu ildə qəbul edilən qanun qadınlara həm yerli, həm də milli seçkilərdə səs vermək imkanı yaratdı. Bu, region üçün çox böyük bir irəliləyiş idi, çünki həmin dövrdə dünyanın bir çox ölkəsində qadınların seçki hüququ hələ tanınmamışdı. Ekvadordan sonra, 1932-ci ildə **Braziliya** qadınlara səsvermə hüququ verdi. Bu hüquq 1934-cü ildə ölkə Konstitusiyasında rəsmiləşdirildi və qadınlar ilk dəfə həmin ilin seçkilərində iştirak etdilər. Həmin il **Uruqvay** da bu hüququ qadınlara tanıdı, lakin qadınlar faktiki olaraq ilk dəfə 1938-ci il seçkilərində səs verdilər. **Çili**də qadınlara əvvəlcə yalnız bələdiyyə seçkilərində iştirak imkanı yaradıldı (1934). Lakin ümumi milli seçkilərdə qadınların səs verməsinə yalnız 1949-cu ildə icazə verildi. Bu, Cənubi Amerikada qadın hüquqlarının genişlənməsində mühüm mərhələ idi, çünki artıq regionda qadınların siyasətdə görünürlüğü artmağa başlamışdı. **Boliviya** isə 1938-ci ildə yalnız savadlı qadınlara səsvermə hüququ verdi. Bu, çox məhdud bir addım olsa da, 1952-ci ildə ölkədə baş verən inqilab nəticəsində qadınlara ümumi seçki hüququ tanındı və bütün qadınlar seçkilərdə iştirak edə bildilər. Bu dövrdə bir sıra ölkələr qadınların seçki hüququnu rəsmiləşdirdi. **Argentina** 1947-ci ildə Eva Perón-un güclü dəstəyi ilə bu hüququ tanıdı. Eva Perón yalnız qanunun qəbulunda deyil, həm də qadınların siyasi fəallığının artmasında böyük rol oynadı. **Venesuela** 1947-ci il Konstitusiyasında qadınların səsvermə hüququnu təsbit etdi və qadınlar ilk dəfə 1948-ci il seçkilərində iştirak etdilər. **Kolumbiya**da bu hüquq 1954-cü ildə tanındı, qadınlar isə ilk dəfə 1957-ci il seçkilərində səs verdilər. **Peru** qadınlara səsvermə hüququnu 1955-ci ildə tanıdı və qadınlar 1956-cı il seçkilərində ilk dəfə bu hüquqdan istifadə etdilər. Cənubi Amerikada qadınlara seçki hüququ verən sonuncu ölkə **Paraqvay** oldu. 1961-ci ildə bu hüquq rəsmiləşdi və qadınlar artıq kişilərlə bərabər siyasi proseslərdə iştirak edə bildilər. Bu, region üzrə seçki bərabərliyi prosesinin tamamlandığını göstərirdi. Cənubi Amerikada qadınların seçki hüququnun tanınması, həm daxili ictimai təzyiqlərin, həm də beynəlxalq gender bərabərliyi tendensiyalarının təsiri ilə baş verib. İlk ölkə olan Ekvador (1929) ilə sonuncu ölkə Paraqvay (1961) arasında **32 illik bir zaman fərqi** var. Bu proses yalnız hüquqi dəyişikliklərlə

məhdudlaşmayıb — qadın hərəkatlarının, feminist liderlərin və sosial dəyişikliklərin güclü təsiri ilə regionda qadınların siyasətdə iştirak imkanları genişlənib.

-  Ekvador – 1929
-  Braziliya – 1932
-  Uruqvay – 1932 *(ilk səsvermə 1938)*
-  Çili – 1934 *(bələdiyyə)*, 1949 *(ümumi)*
-  Boliviya – 1938 *(məhdud)*, 1952 *(ümumi)*
-  Venesuela – 1947
-  Argentina – 1947
-  Kolumbiya – 1954 *(ilk səsvermə 1957)*
-  Peru – 1955
-  Paraqvay – 1961

***1960–1980-ci illər-*** Bir çox ölkədə hərbi diktaturalar dövrü idi, siyasi repressiyalar, senzura və insan haqlarının pozulması ilə müşayiət olunurdu. Ana və həyat yoldaşları olaraq itkin düşmüş siyasi məhbusların azadlığı üçün kampaniyalar ("Plaza de Mayo anaları" — Argentina), həm feminist, həm də insan hüquqları hərəkatları baş qaldırmışdı. "Plaza de Mayo anaları" hərəkatı – Feminist və insan hüquqları mübarizəsinin kəsişməsi baş verdi. 1976–1983-cü illər arasında Argentinada hərbi diktatura hakimiyyəti dövründə minlərlə insan "çirkli müharibə" adlanan siyasi repressiyalar nəticəsində həbs olundu, işgəncələrə məruz qaldı və çox vaxt izsiz yoxa çıxdı. Bu insanların çoxu gənc fəallar, tələbələr, həmkarlar ittifaqı üzvləri və siyasi müxaliflər idi. Onlar "itkin düşmüş" (*desaparecidos*) adlandırılırdı. Bu ağır siyasi şəraitdə, 1977-ci ildən başlayaraq bir qrup ana və həyat yoldaşı, itkin düşmüş ailə üzvlərinin taleyini öyrənmək və onların azadlığını tələb etmək üçün bir araya gəldi. Onlar Argentinanın paytaxtı Buenos-Ayresdəki Plaza de Mayo meydanında hər həftə toplaşaraq hökumətdən cavab tələb edirdilər. Bu qadınlar sonradan "Plaza de Mayo anaları" (*Madres de Plaza de Mayo*) kimi tanındılar. Analar daha sonra fərqli məqsədləri olan iki qrupa bölünmüş və fəaliyyətlərini genişləndirmişlər. Bir qrup övladlarının itkin düşməsinə diqqəti yönəldərkən , digər qrup Argentinadakı ədalətsiz ictimai və siyasi qurumlar haqqında məlumatları ictimaiyyətə çatdırırdılar. Hərəkatın sonuncu qolu qadınların insan hüquqlarının pozulmasına qarşı mübarizə aparan nüfuzlu və məşhur bir qrup olmuşdur

(Howe, 2006). Anaların fikir və seçimlərinin ölkə daxilində yayılmasına baxmayaraq, qadın hərəkatının əsas mərkəzi Buenos-Ayres olaraq qalırdı , burada əksər qadın hərəkatları təşkil edilirdi. 1990-cı ildə Salta əyalətində başlayan yeni bir qadın hərəkatı, daha sonra Katamarkadakı etirazlar ilə davam etdi. Etirazlar 17 yaşlı Maria Soledadın bir xəndəkdə təcavüzə məruz qaldığı və öldürülməsinə qarşı bir reaksiya idi. Faciəli hadisədən səkkiz il sonra, təxminən 40 ildir şəhərə nəzarət edən zəngin və güclü ailələrdən olan iki kişi cinayətə görə məhkum edildi . Yaradılan qadın hərəkatı əsasən gənc tələbələrdən ibarət idi və onlar, zəngin və güclü kişilərin heç bir cəzası olmadan yoxsul qadınlara qarşı cinayət törətməklərinə etiraz etdilər (Bergman and Szurmuk 2001). Təcavüzkarlar özlərinə bəraət qazandırırdılar ki, Soledad cazibədar və gözəl olmuşdur. Buna görə qadın hərəkat nümayişçiləri Soledad'ı günahsız bir Katolik qız kimi təsvir etməyə çox can atırdılar. Bəzi müəlliflərin yazdığına görə, Katamarkadakı etirazlar və daha sonra qadınların hərəkatları, May Anaları meydanı hərəkatından təsirlənmişlər. Nümayişçilər kişilərin hakimiyyəti, gücü əldə saxlamaq üçün təcavüz və fiziki zorakılığa əl atdıqlarını bildirirdilər. Maria Soledadın ölümü və bu səbəbdən qadın hərəkatı "xüsusi siyasi" bir insan hüquqları hərəkatı halına gəldi. May Anaları Meydanı hərəkatından ilhamlanan hərəkat, hətta fərd və ictimaiyyət arasında fikir ayrılığını aradan qaldırdı. Katamarkadakı idarəetmə hökümət və ictimaiyyət arasında bölgü qadınların zülmünə qarşı meydan oxumağa kömək etdi. Bergman and Szurmuk, 2001). Əmək bazarında və təhsildə qadınlar da təmsil olunmağa başladılar. 1870-ci ildən bu yana Argentina bütün uşaqlar üçün pulsuz və məcburi ictimai təhsilə dair qanunlar qəbul edilmişdir. Bu, Argentina üçün böyük və vacib bir addım olsa da, bu bütün uşaqlar üçün bir nəticə vermədi. Kənd ərazilərində uşaqların orta məktəb təhsili almağı problem olmuşdur və xüsusilə məktəbin uzaq məsafədə olması və xüsusilə yoxsulluq problemi ilə üzləşən uşaqlar üçün bu problem olaraq davam edir.

Çilidə Avqusto Pinoçetin diktaturası dövründə qadınlar həm əslində repressiyaya məruz qalan ailə üzvləri üçün etiraz aksiyaları keçirdilər, həm də gizli feminist qruplar yaratdılar. Qadınlar həmçinin sürgün, işgəncə və itkin düşmüş yaxınlarının taleyi üçün beynəlxalq təşkilatlara müraciət etdilər. Çilidə qadınlar həm də gizli mədəni və sosial fəaliyyətlərlə diktaturanın təzyiqinə müqavimət göstərdilər. Braziliyada hərbi rejim dövründə qadın hərəkatları ictimai-siyasi mübarizədə passiv qalmadı, onlar qadınların hüquqları, işçi haqları və repressiya qurbanlarının müdafiəsi üçün fəaliyyət göstərdilər. 1975-ci ildə "Feminist Hərəkatı" rəsmi olaraq təşkil olundu, lakin hərbi rejimin gücü səbəbindən fəaliyyətləri məhdud idi. Uruqvay və Paraqvayda hərbi diktatura dövründə qadınlar həm siyasi məhbusların müdafiəsi, həm də sosial ədalət məsələlərində aktiv oldular. Uruqvayda qadınlar mübarizələrini əsasən gizli formada, yerli icmalarda davam etdirdilər.

1980-cı illərdən sonra region ölkələrində demokratikləşmə prosesi başladı və yeni konstitusiyalarda gender bərabərliyi prinsipləri tanındı. Qadın Nazirlikləri və gender üzrə dövlət orqanlarının yaradılması (məsələn, Çili, Braziliya, Venesuela). Beynəlxalq sənədlərin (CEDAW, Belém do Pará Konvensiyası) ratifikasiyası, ailə içi zorakılıq və reproduktiv

hüquqlar üzrə qanunların qəbul edilməsi başlandı. Braziliya — “Maria da Penha” Qanunu (2006, ailədaxili zorakılığa qarşı), Argentina — “Micaela Qanunu” (2019, dövlət qulluqçularına gender təlimləri) qəbul etdi.

## Mövzu 6. AİLƏ: GENDER ASPEKTLƏRİ

### Cənubi Amerika cəmiyyətində ailə

Dünyada dominantlıq edən patriarxal quruluş cəmiyyətin tərəqqisi üçün nələr edə bilmişdir? Bu günə qədər dünya patriarxallıqdan nə qədər faydalanmışdır? Nədən dünya əhalisinin yarıdan çoxu olan qadınlar əsrlər boyu canlarını patriarxallıqdan qurtara bilmirlər? Bəs kişilər nə qədər bu quruluşdan məmnundurlar? Bütün kişilər bu quruluşdan faydalana bilirlər, yoxsa patriarxallıq yalnız bir qisim kişilərə xidmət edir? Qadınların üzərində dominantlıqla müşahidə edilən patriarxallıq, çox təəssüf ki, insanlara xoşbəxtlik bəxş edə bilmədi. Qadınlar üzərindəki hökmranlıq heç kişiləri də xoşbəxt etmədi. Patriarxal cəmiyyətin qanunları qadınlar üçün xüsusilə də, keçmişdə çox ağır olub. Qalibiyyət əldə etməyə çalışan qadın, o qədər qeyri-düzgün oynamalıydı ki, məqsədinə çata bilsin. Sonda cəmiyyətdə gedən deqradasiyaya təkan verdi və insanlar, xüsusilə də, qadınlar ikili standartlarla yaşamağa məcbur qaldılar. Cəmiyyətdə baş verən bərabərsizlikdən qaçmağın yollarını tapmaq üçün feminist alimlər də daxil olmaqla, bir çox tədqiqatçılar səy göstərdilər, lakin buna sona qədər nail ola bilmədilər (əlbəttə, az saylı xalqları çıxmaq şərti ilə).

Ailə tarixi aspektdən Platona görə ilk insan ikicinsli yaradılmışdır, sonradan Zevs inad edib onu iki yerə bölmüşdür və onlar elə o zamandan bəri yenidən bir yerdə olmağa, ikinci yarılarını tapmağa çalışırlar: «O vaxtdan insanlar bir-birini cəlb edir və əvvəlki yarımlar birləşərək ikidən vahid yaratmaq və bununla insan təbiətini sağaltmağa çalışırlar». Qədim dövrlərdəki insanların ailə münasibətlərindən bəhs ediriksə, məlum məsələdir ki, ibtidai insanlar nikah bağlamadan bir yerdə yaşayırdılar. Qadınlar və kişilər seçdikləri hər hansı bir insanla münasibət qurmaqda sərbəst idilər. Hətta qədim daş dövründə insanlar qrup halında bir yerdə yaşayırdılar, yenə də istədikləri qədər insanla münasibət qura bilirdilər. Sonralar bəzi tarixi mənbələrdə qadınların kişilərdən ayrı yaşamaları haqqında mülahizələr təqdim edilir. Hal-hazırda bəzi Cənubi Amerika, Avstraliya (aboregenler) və Afrika ölkələrində, pre-industrial cəmiyyətlərdə yaşayan tayfalarda tam o dövrdəki kimi olmasa da, yenə də nikahsız, istədikləri insanla münasibət qurub yaşayan tayfalar

mövcuddur. O vaxtın insanları da təsadüfi insanlarla münasibət qurub yaşamaqdan bezmişdilər və illər keçdikcə onlar bir-biriləri ilə daimi, stabil münasibət qurmağa can atırdılar. Lakin indi bəhs etdiyimiz dövrdə-ibtidai cəmiyyətdə qadın-kişi münasibərlərinin kökündə hansı cinsin daha dominant olması xüsusi önəm kəsb edən məsələlərdən biridir. Bəzi alimlər tarixin müəyyən mərhələlərində matriarxat sosial münasibətlərin mövcud olması haqqında mülahizələr yürüdürlər. Matriarxat sözü hərfi mənada qadın idarəçiliyi kimi tərcümə edilir. Bu dövr yeni daş əsri dövrünə (neolit) təsadüf edir və bu elə bir dövr idi ki, insanlar stabil yaşamağa üstünlük verirdi, tapdıqları yaşayış yerlərində uzun müddət qalmaq üçün özlərinə şərait yaradır və kənd təsərrüfatı ilə məşğul olurdular. Matriarxatın ilk dövrlərində kişilərlə qadınlar eyni hüquqa malik olsalar da, sonradan qadınlar ev təsərrüfatının idarəçiliyi ilə, kişilər isə meşələrdə və dağlarda ovçuluqla, qadınlar torpaqla, əkin-biçinlə daha çox məşğul olurdular. Nəsil ata ilə deyil, ana ilə təyin edilirdi (Matriarxat dövrünün müəyyən elementləri hal-hazırda bəzi xalqlarda, məsələn, yəhudilərdə hələ də qalmaqda davam edir). Qadınla ailə həyatı quran kişi əşyalarını toplayıb qadınının yanına köçür və bir yerdə yaşayırdılar. Kişilər, əsasən, qadınların təlimatlandırdığı kimi yaşayırdılar və onların sözlərinə baxırdılar. Yaşlı müdrik qadınların arasından ağbirçək seçilir və bütün qadınlar onun iradəsinə tabe olub sözündən çıxmırdılar. Əlbəttə, kişilərə belə yaşamaq xoş gəlmirdi, özləri-öz ağaları olmaq istəyirdilər, elə bu səbəbdən də qadın hökmranlığı dövrü uzun zaman davam etmədi və sonralar tarixdə metal dövrü deyilən bir dövrdə kişilər yeni qaydalara əsaslanan bir cəmiyyətin bünövrəsini qoydular. Bu cəmiyyət patriarxal cəmiyyət adlanırdı. Qadınlar evə qapanmağa məcbur edildi və heç bir haqqı-hüququ olmayan qul həyatı yaşadılar. Bu gün də bəzi yerlərdə belə cəmiyyətlərdən çox fərqlənməyən xalqlar mövcuddur və qadınların həyatı elə qul həyatı kimi qalmaqda davam edir. Kişilər istədikləri kimi qadınlarla rəftar edir və hətta onları döyə-döyə öldürənlər də tapılır. Qadınları öz mülkiyyəti hesab edən patriarxal kişilər qadınları hərtərəfli öz nəzarətlərinə götürdülər. Patriarxal cəmiyyətin ilkin dövrlərində kasıblar və dövlətlilər meydana gəldi və sonradan da dövlət yarandı. Dövlət yaransa belə, arvad ərin mülkiyyəti olmaqda davam edir və ərin icazəsi olmadan qadın heç bir hərəkət edə bilmirdi. Mülkiyyət hüququndan bəhs edilən qanunların içərisində qadın, əşya və heyvanlar siyahısına daxil edilirdi. Bu qaydalarda dinlər meydana gələndən sonra bəzi dəyişikliklər oldu və qadınkişi münasibətləri az da olsa əxlaq kodeksinə daxil edildi. Qədim dövrün ailələrindən bəhs edərkən monoqamiya (təkarvadlılıq), poliqamiya (çoxarvadlılıq) və poliandriyadan (çoxərlilik) söhbət açmaya bilmərik. Hal-hazırda bəzi İslam dövlətlərini istisna etməklə, ailənin bir forması monoqamiya mövcuddur. Bu ölkələrdə poliqamiyaya təsadüf edilsə də, əhalinin əksəriyyəti monoqamiyaya üstünlük verirlər. Bugünkü dünyada mövcud olan poliqamiyaya bəzən bəraət qazandırmaqdan ötrü min cür üsula əl atsalar da, bu, sivil insanlar tərəfindən qəbul edilmir və məqbul ailə modeli hesab edilmir. Demoqrafik problemi əlində əsas tutub poliqamiyaya bəraət qazandıranlar da tapılır. Əslində

poliqamiya İslamda dəstəklənsə də, İslama qədərki dövrdə də poliqamiya mövcud idi. Buna dövlətlilər arasında daha çox təsadüf edilirdi. Poliqamiyanı çox vaxt İslamla əlaqələndirsələr də, xrsitianlıqda da bu mövcud olmuşdur. Başqa müsəlman xalqlarından fərqli olaraq qədim dövrlərdə türklərin arasında poliqamiya geniş yayılmamışdı. İslamın təşəkkülü ilə türklərin də arasında çoxarvadlılıq baş verdi və bunu ən çox xaqanlar edirdi və ya bu hala padşahların sarayında təsadüf edilirdi. Türk padşahının bir neçə arvadı olsa da, onlardan yalnız biri əsas türkan sayılırdı (Ziya Gokalp, 1991). İslama qədər ərəblərdə kişilər istədikləri sayda qadınla evlənə bilərdilər, yalnız İslamın qəbulundan sonra ərəb kişilərin evləndikləri qadınların sayına məhdudiyyət qoyuldu, onlara dörddən çox arvadla evlənmək icazəsi verilmədi və hətta buna icazə verilsə də, ən yaxşısının, ən ədalətlisinin bir arvadla evlənmək olması tövsiyyə edilir, bu da bir növ çoxarvadlılığın yox, bir arvadlılığın üstünlüyünə işarədir, «yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn halal qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər o qadınlarla ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda onlardan biri ilə və yaxud sahib olduğunuz cariyələrlə kifayətlənin. Bu, haqsızdıq etməməyə daha yaxındır» (4. ən-Nisa «Qadınlar» surəsi, 176 ayə). Bir faktı da unutmaq olmaz ki, İslam qanunlarına görə birinci arvadın icazəsi olmadan, kişi digər qadınlarla evlənə bilməz. İslamda çoxarvadlılığın şərtlərinin ağır olması elə poliqamiyanın bəyənilməməsi deməkdir. «Nikah və nikahsızlıq» əsərinin müəllifi fransız yazıçısı A. Debeye isnad edən alim-tədqiqatçı Fərid Ələkbərli özünün «Şərqin min bir sirri» əsərində yazır: «X1X əsr Avropalı səyahətçilər qeyd edirdilər ki, «müsəlman ölkələrində çoxarvadlılıq halı, əsasən, lap çox zəngin ailələrdə müşahidə edilir, yəni maddi cəhətdən güclü olanlar bunu dəstəkləyirlər» (Фарид Алекперли, 2001). Müəllifin iddiasına görə bəzi ölkələr, məsələn, Yava adasında poliandriyaya, çoxərliliyə təsadüf edilir, çünki burada bir qadına bir neçə kişi düşür. Müəllif, həmçinin, qeyd edir ki, poliandriyanın elementlərinə qədim Midyanda da rast gəlmək olurdu. Bu qadınlar üçün coxərlilik şərəf idi. Beşdən aşağı əri olan qadına bəxtsiz qadın kimi baxırdılar. Bildiyimiz kimi müasir ailələrin böyük əksəriyyəti monoqam ailə quruluşuna malikdirlər və cəmiyyətin sağlam və xoşbəxt olması üçün bu tip ailələr daha uğurlu hesab edilir. İslamda qul qadınları gətirib onlarla bir yerdə yaşayıb övladlar dünyaya gətirmək çox yayılmış bir hal idi. Ö zaman belə bir qanun var idi ki, hətta kimsə qul qadınla ailə qursa belə, əsas dünyaya gələn uşaqların atasıdır, atası qul deyilsə, uşaqlar da qul sayılmırlar. Bu qul qadınlar da azad qadınların məxsus olduğu hüquqlardan yarısına malik idilər. «Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!» («Rum» surəsi, 21). Allah Quranda evlilikdə qadının və kişinin birbirinə qarşı olan öhdəliklərini «Bəqərə» surəsi vasitəsilə belə bildirir «...Onlar sizin, siz də onların libasısınız...» («Bəqərə» surəsi, 187). Bu surədə hər iki cins eyni cür dəyərləndirilir.

**Ailə.** Müxtəlif elmi perspektivlərdən Ümumbəşəri dəyər olan ailə mədəni irsin, etnik norma və ənənələrin daşıyıcısıdır: Ailənin dəyəri təkcə ayrı-ayrı fərdlər, şəxsiyyətlər üçün deyil, bütün cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir. Ailə bir çox – fəlsəfə, sosial fəlsəfə, psixologiya, sosial psixologiya, sosial pedaqogika, pedaqogika, sosiologiya, gender pedaqogikasının və başqa elmlərin maraq dairəsindədir. Tədqiqatçılar bəzən ailəyə ümumi bir qurum, bəzən də bir qrup insan kimi baxırlar. **Ailə nədir?** Ailə təkcə sosioloji anlayış deyil, həm də ictimai hadisədir. Ailə – qan qohumu olan iki və daha çox vətəndaşın birgə yaşadığı, nikah telləri ilə bağlanan, əxlaqi və hüquqi normalarla tənzimlənən birlikdir. Ailə üzvləri qan qohumluğu əlaqələri ilə bağlı olub və burada böyüklər uşaqların tərbiyəsində məsuliyyət daşıyırlar. Qohumluq – nikaha və qan qohumluğuna əsaslanan fərdlər arası münasibətdir (ana, ata, nənə, baba, bibi, xala, əmi, dayı və s.).

**Nikah**-iki böyük fərd arasında sosial qəbul edilmiş və razılaşdırılmış ittifaqa deyilir. Müasir dövrdə üç növ ailə mövcuddur: a) uşaqlı və ya uşaqsız ailə cütlüyü (nuklear ailə); b) bir valideyn bir və ya bir neçə uşaq (natamam nuklear ailə); c) valideynləri və qohumları ilə, uşaqla və ya uşaqsız ailə (ənənəvi ailə). Hal-hazırda Azərbaycanda mövcud olan ənənəvi ailələr Qərbdə yoxdur, orada ailə deyəndə ər, arvad və valideyn himayəsində olan övladlar nəzərdə tutulur, digərləri qohumlar hesab edilir. Azərbaycanda nuklear ailələr şəhərlər üçün xarakterik olsa da, kəndlərdə ailələrin əksəriyyəti ənənəvidir. Qərbdə ailəni araşdırarkən ailə qrupu şəklində tədqiq edirlər, bura ər-arvad və uşaqlardan başqa, onların valideynləri və uşaqların tərbiyəsində yaxından iştirak edən digərləri (məsələn, baba-nənələr, dayə, xidmətçilər, ailənin dostları və başqaları) tədqiqata daxil edilir. Azərbaycanda da ailə araşdırılarkən digər ailə üzvləri, nənə-babalar, əmidayılar, bibi-xalalar tədqiqatın mərkəzində durmalıdır. Strukturuna görə Azərbaycanda təkcə monoqam tipli ailələr mövcuddurlar. Belə tip evlilik ya ömrün axırına qədər davam edir və ya boşanma yolu ilə (partnyorlardan birinin vəfat etməsi də səbəb ola bilər) yenidən evlənmə üçün şərait yaradır. Lakin ailəlin gender aspektindən tədqiq edən Azərbaycan alimləri digər ailə münasibətlərini (əsasən, poliqamiya, poliandriya) öz tədqiqatlarına daxil etmirlər. Poliqamiya bəzi müsəlman ölkələri üçün xarakterik olsa da, Azərbaycan dünyəvi ölkə olduğuna görə burada belə nikahlara dövlət rəsmi icazə vermir və qeyrirəsmi münasibət qurulursa da, bu ictimai qınağa səbəb olur (nədənsə, qınaq obyekti əksəriyyət hallarda qadınlar olurlar), yəni cəmiyyət bu tip ailə münasibətini birmənalı şəkildə qəbul etmir. Azərbaycan Respublikasının dövlət qanunu ilə poliqamiya qadağan olsa da, dövlət tərəfindən çoxarvadlı kişilərə qarşı ciddi cəza tədbirləri, demək olar ki, tətbiq edilmir. Poliandriya uzaq keçmişdə mövcud idi və əlbəttə, Afrikada yaşayan azsaylı tayfaları nəzərə almasaq, hal-hazırda belə ailələr, demək olar ki, dünyada mövcud deyildir. XX əsrin ortalarında inkişaf etmiş ölkələrdə ailələrin tərkibində müəyyən dəyişikliklər baş verdi. Ailədə uşaqların sayı azaldı, iki və bir uşaqlı ailələr, bəzən uşaqsız ailələr meydana gəlməyə başladı. Uzun müddət bir yerdə nikahsız yaşayan cütlüklər bir

müddət uşaq dünyaya gətirməyi planlaşdırmır və ya doğulan uşaqların arasındakı il fərqi nisbəti çoxalmışdır. Bunun Azərbaycan ailələrinə də təsiri oldu və çoxuşaqlı ailələrin sayı xeyli azaldı. Sovet dövründə çoxuşaqlı ailə on uşaq və ondan çox övlad dünyaya gətirən ailələr hesab edilsə də, bu gün çoxuşaqlı ailə deyəndə beş və daha çox övladı olan ailələr nəzərdə tutulur.

Ailə sosial institutdur. Postindustrial cəmiyyət həm mürəkkəb, həm də dinamik xarakterlidir. Bu cəmyyətdə öhdəliklərin bölünməsi, onların ierarxik təşkili, kütləvi istehsal kimi terminlərin bugünkü qədər önəmi qalmayacaqdır. Ümumiyyətlə, ailələrin gələcəkdə quruluşu, məzmunu, mahiyyəti bugünkü ailələrdən köklü fərqlənməsi proqnozu bütün cəmiyyətlər üçün verilir. Bir də ailə tədqiqatı ilə ciddi məşğul olan ailmlərin fikrinə görə həm ailələrdə, həm də cəmiyyətdə qadınların rolu daha əhəmiyyətli hesab ediləcəkdir. Buna arqument kimi onu da əlavə edirlər ki, qadınlar həm kişilərlə müqayisədə uzun ömür sürürlər, həm də ailənin yükü əksəriyyət hallarda qadınların üzərinə daha çox düşür.

## *AİLƏDƏ MƏNƏVİ TƏRBİYƏ VƏ GENDER PROBLEMİ*

Azərbaycan ailəsində mənəvi və cinsi tərbiyə Milli adət-ənənə və mənəvi dəyərlərlə ümumbəşər sərvətlərin birbirinə qovuşduğu, cəmiyyətin mənəvi-əxlaqi təməlinin az qala sarsıldığı indiki zamanda ailə və onun əxlaqı, fiziki, cinsi tərbiyəsi aparıcı bir amilə çevrilmişdir. Aristotel hər bir ailəni dövlətin bir hissəsi hesab edir. Ayrı-ayrı hissələr mənəvi məziyyətlərə uyğun gəlməlidir. İngilis filosofu, yeni dövr eksperimental elmin banisi Frensis Bekon göstərir ki, vətənə məhəbbət ailədən başlayır. Bekon uşaqların doğulmasını insani, yaradılışı isə ilahi anlayış hesab edir. Ailə maraqları bəzən dövlət maraqlarına xor baxmağa məcbur edir. Bekonun fikrincə, kimin həyat yoldaşı, uşağı, ailəsi varsa, sanki o, övladını taleyə girov verir, çünki ailə böyük bir təşəbbüsün həyata keçilməsi yolunda xeyirxah və ya bədxah bir maneədir. Cəmiyyətə ən çox fayda verən öz varları və bağlılıqları ilə bu cəmiyyətə qovuşan ailəsiz adamlardır. Ciddi əsasla ehtimal etmək olar ki, kimin uşağı varsa, gələcək haqqında daha çox fikirləşməli, özününkülərə ən qiymətli özül qoymalıdır. Bekon qadın və uşaqları insanlıq məktəbi hesab edir. Tənha həyat sürənlər ailəli olanlardan daha səxavətli olsalar da, rəhmdilliyə daha yaxın imkanları olsa da, daha qəddar və hissiyyatsız olurlar (onlardan qəddar inkivizatorlar çıxır) (Bekon F., 1971). Bekonun müasiri Tomas Hobbs ailəni mülki qanunun icazə verdiyi, birgə həyata keçirmək üçün kişi və qadın arasında müqavilə kimi səciyyələndirirdi. Nikahın mövcudluğunu qanuni müqavilə hesab edən T.Hobbs bir çox xalqlarda, məsələn, yəhudilərdə, yunan və romalılarda belə qanuni nikahların mövcudluğunu vurğulayaraq, onların pozulmasının mümkünlüyünü də göstərmişdir. Bəzi xalqlarda nikah pozulmasını dövlət qadağan etmişdir. Mişel Manten ailədə mənəvi

tərbiyəyə xüsusi diqqət yetirərək göstərir ki, uşağın təkcə ruhunu deyil, onun bədənini də bərkitmək lazımdır. Mişel Manten ailədə uşaqlarda təvazökarlıq, vicdan, ağıllı olmaq və s. kimi mənəvi keyfiyyətlərin tərbiyə olunmasını tövsiyə edir. Uşağı hər şeyə öyrətməyi məsləhət görən filosof onu fiziki cəhətdən də güclü bir gənc kimi yetişdirməyin zəruri olduğunu qeyd edir. M.Manten zorakılığı qəti surətdə pisləyir: «Mən şərəf və azadlığa hörmət ruhunda böyüyən gəncin tərbiyəsi zamanı hər cür zorakılığı mühakimə edirəm. Qəddarlıq və məcburiyyətdə bir qul psixologiyası var. Hər şeyi gücün deyil, ağlın köməyi ilə əldə etmək lazımdır». Mişel Manten xoşbəxt ailəinin əsas göstəriciləri kimi əmin-amanlıq, qarşılıqlı güzəşt və xəyanətsiz birgə həyatı məqbul sayır.

Cəmiyyətin aparıcı qüvvəsi olan ailənin siyasi, əxlaqi, estetik problemləri hamını düşündürür. Ailə yalnız ər-arvaddan ibarət deyildir. Ailənin ən başlıca funksiyası cəmiyyət üçün vətəndaş yetişdirməkdən ibarətdir. P.H.Məmmədzadənin qeyd etdiyi kimi, ailə uşaqlara nəinki ailənin üzvü olmağa kömək edir, o, eyni zamanda uşağı onu əhatə edən cəmiyyət, onun mahiyyəti ilə tanış edir (Məmmədzadə R.H., 2004). Ailədə mənəvi tərbiyə əsas yer tutur. Keçmişdə Azərbaycan ailəsində mənəvi tərbiyə əsrlər boyu cilalanmış adətlərin və qanunların məcmusu olan xalq pedaqogikasına uyğun idi. Xalq pedaqogikası ailədə doğruçuluq, insaf, vicdanlılıq, əməksevərlik, ədalətlilik, ata-anaya, yaşlılara hörmət, halallıq tərbiyə edirdi. Ailədə ağsaqqallara, qonağa, qonşuya hörmət hissi aşılanırdı. Ata Allahdan sonra ailədə böyük hesab edilirdi. Qonaq Allah adamı sayılırdı. Ailənin mənəvi tərbiyəsində nəslin ağsaqqalları, ağbirçəkləri də iştirak edirdilər. Bencamin Spok ailədə mənəvi tərbiyədə atanın xüsusi rol oynadığını qeyd edir. Onun fikrincə ata övladlarını nizam-intizama riayət etməyə alışdırır. O, valideynlərin övladlarla mehriban yoldaşlıq münasibəti bəsləməsinə üstünlük verir: «Həqiqi dostluq münasibətləri bütün ailə üzvlərinin bir-birinə qarşılıqlı hörmət bəsləmələrinə əsaslanır» (Bendjamin Spok, 1991).

N.Salmanova **ailənin funksiyaları** arasında mənəvi tərbiyə funksiyasına xüsusi diqqət yetirir:

1) Reproduktiv funksiya- Cəmiyyətdə insan nəslinin davam etdirilməsi və onun inkişaf etdirilməsinin təmin edilməsi, uşaqların doğulması.

2) əmək funksiyası- təbii əmək bölgüsünə (cinsə, yaşa və fizki sağlamlığa, qüvvəyə, bacarığa və s.) görə ailə üzvlərinin ictimai-hərəkət və münasibətinin, davranış və fəaliyyətinin müstəqil və şüurlu tənzim etməsinə nail olmaq

3) Tərbiyə və Sosiallaşma Funksiyası- Ailə uşaqları cəmiyyətə hazırlayan ilk sosial mühitdir. Əxlaqi dəyərlər, davranış qaydaları, mədəniyyət və ənənələr ailədə ötürülür.

**Cənubi Amerikada qadın və ailə**

Maya tədqiqatlarının əvvəllərində arxeoloqlar qadınların Maya cəmiyyətində kişilərə tabe olduqlarını düşünürdülər. Kişilər şəhər dövlətinin şahı və hökmdarları, qadınlar isə evlərində hökmdar idi. Lakin yeni araşdırmalar göstərir ki,qadınlar Maya cəmiyyətində əvvəllər düşünüldüyündən daha çox mərkəzdə idi. Klassik dövrlərdə müəyyən qadınlar varisi olmayan hökmdarın dul qadını olaraq şəhərlərində hökmdar olaraq hakimiyyəti ələ keçirirdilər. Qadınlar eyni zamanda müxtəlif müqəddəs yerlərdə keşiş kimi xidmət edirdilər. Qadınlar Maya iqtisadiyyatında, kənd təsərrüfatında və xüsusilə də tekstil sənayesində çalışırdılar. Maya qadınlarının əksəriyyəti evlərinə qayğı göstərməklə ənənəvi həyat sürsələr də digərləri daha artıq potansiyala sahib idilər. Ümumiyyətlə qadınlar Maya siyasətində iştirak etməsələr də, bəzən şərtlər qadını hökmdar roluna qoyurdu. Klassik dövrdə qadınlar siyasət dəyişdikcə və daha mürəkkəb hala gəldikcə siyasi güc qazandılar. Klassik dövrdə bir çox qadınlar həcc yerlərində keşiş idilər.Keşişlər həcc yolu boyunca hacılara rəhbərlik edirdilər. Qadınlar əkinçi və çoban kimi kənd təsərrüfatı vəzifələrində çalışırdılar. Həm yerli bazarlar,həm də ticarət şəbəkələri üçün Maya iqtisadiyyatının bütün tekstil məhsullarını istehsal etdilər. Bəzi Maya bölgələrində qadınlar geyik sürüləri yetişdirərək əhalini doyurmaq üçün kifayət qədər maral populyasiyasını təmin etdilər.

Cənubi Amerikada ənənəvi ailə modeli əsasən patriarxal quruluşa malikdir. Ailə başçısı kimi kişi rolunu qəbul edir, o, ailənin iqtisadi və sosial qərarlarında əsas söz sahibidir. Qadınlar adətən ev işləri və uşaqların tərbiyəsi ilə məşğul olurlar. Daha çox nuklear ailə modelləri üstünlük təşkil edir. Ənənəvi olaraq geniş ailə modeli — nənə-baba, dayı-teyzə və digər qohumların birgə yaşaması yaygındır. Xüsusilə kənd yerlərində bu model güclüdür və sosial dəstək sisteminin əsasıdır. Katolik Kilsəsinin təsiri regionun ailə modelində çox böyükdür. Nikah müqəddəs sayılır, boşanma uzun müddət qadağan və ya məhdudlaşdırılmışdı. Qadının rolu daha çox ailə və uşaqlar üzərində qurulmuşdu (marianismo ideologiyası). Qadınların təhsil səviyyəsinin artması və əmək bazarına daxil olması gender rollarını dəyişdirir. İndi daha çox ailədə ev işləri və uşaqların qayğısı kişi və qadın arasında paylanır. Boşanma hüququ bir çox ölkədə leqallaşıb və getdikcə geniş yayılır. Yenidən evlənmələr, tək valideynli ailələr və qeyri-rəsmi birliklər artıb. Amazon və And dağları ətrafında yaşayan yerli xalqlarda ailə və icma həyatının spesifik formaları mövcuddur. Bu icmalarda kollektiv mülkiyyət, uşaqların birgə tərbiyəsi kimi ənənələr güclüdür. Cənubi Amerika ölkələrində boşanma hüququ uzun müddət katolik kilsəsinin güclü təsiri və ənənəvi ailə dəyərləri səbəbindən qadağan olunmuşdu. Boşanma yalnız çox məhdud hallarda və xüsusi şərtlərlə mümkündür və bəzi ölkələrdə isə 20-ci əsrin ortalarına qədər tamamilə qadağan idi. Boşanma hüququ Cənubi Amerikada ənənəvi olaraq sonrakı mərhələlərdə qəbul edildi, xüsusilə 1980 və 1990-cı illərdə demokratikləşmə prosesləri ilə birlikdə. Hər ölkədə qəbul müddəti, proseduru və şərtləri fərqli olmuş, lakin ümumi meyl boşanmanın tədricən genişləndirilməsi və daha əlçatan

Qadınların siyasi iştirakının artırılması və gender bərabərliyinin təmin olunması Cənubi Amerika ölkələrinin demokratik inkişafında vacib amillərdən biridir. Bu regionda qadınların seçki hüququna malik olması artıq uzun illərdir ki, mövcuddur, lakin siyasi səhnədə real təmsilçiliyi təmin etmək üçün müxtəlif qanunvericilik tədbirləri və sosial hərəkatlar tələb olunmuşdur. Regionda Paraqvay qadınların təmsilçiliyinə görə ən aşağı göstəriciyə malikdir. Baxmayaraq ki, ölkə Paraqvay Müharibəsi (1864–1870) zamanı kişi nüfuzunun 90 faizini itirib. Nəticədə, gender balansında ciddi dəyişikliklər baş vermiş və bu, cəmiyyətdə kişilərin nüfuzunun azalmasına gətirib çıxarmışdır. Bu, qadınların əhalidə nisbi sayının xeyli artması ilə nəticələndi və gender balansında kəskin dəyişikliklər yarandı. Kişi əhalisinin kəskin azalması sosial strukturlara və ənənəvi gender rollarına təsir etdi. Paraqvay cəmiyyəti uzun müddət patriarxal əsaslarla formalaşsa da, müharibədən sonra qadınların sosial rolu və nüfuzu ön plana çıxdı. Qadınlar təkcə ailə daxilində deyil, həm də ictimai həyatın müxtəlif sahələrində daha fəal iştirak etməyə başladılar. İqtisadi sahədə qadınlar kənd təsərrüfatı və digər iqtisadi fəaliyyətlərdə kişi əhalisinin yerini doldurdu. Ailə quruluşunda qadınlar daha çox ailə başçısı rolunu götürdülər. Siyasi və sosial iştirak baxımından isə qadınların rolu artmağa başladı, baxmayaraq ki, bu proses uzun və mürəkkəb oldu. Müharibə sonrası yaranan gender balansının dəyişməsi Paraqvay cəmiyyətində gender münasibətlərində transformasiyaya səbəb oldu. Kişilərin nüfuzunun azalması qadınların özünüidarəetmə qabiliyyətini artırdı və sosial hüquqlarının bərpasına təkan verdi. Bununla belə, patriarxal strukturlar tam olaraq pozulmadı və qadınların sosial və siyasi hüquqları uzun müddət məhdud qaldı. Lakin müharibədən sonrakı vəziyyət gender rollarının yenidən formalaşması və qadınların ictimai sahədə daha çox iştirakının başlanğıcı oldu.

Cənubi Amerika ölkələrində qadınların siyasi iştirakını təmin etmək məqsədilə gender kvota qanunlarının qəbul tarixi və kvota faizləri ölkələr arasında fərqli olub. Bu qanunların qəbulunda ən erkən addımı atan ölkə **Argentina** olmuşdur. **Argentina** 1991-ci ildə regionda ilk dəfə olaraq gender kvota qanununu qəbul etmiş və siyasi partiyaların namizəd siyahılarında qadınların ən azı 30% təmsil olunmasını tələb etmişdir. Daha sonra, 2017-ci ildə Argentina bu tələbi sərtləşdirərək **paritet kvotasına** keçdi. Bu qanuna

əsasən, siyasi siyahılarda qadın və kişi namizədlərin bərabər sayı — yəni 50% təmin edilməlidir. Daha sonra, **Venesuella** 2000-ci ildə qadınların siyasi namizəd siyahılarında minimum 40% təmsil olunmasını tələb edən kvota qanunu qəbul etdi. Sonrakı illərdə digər ölkələr də oxşar qanunları qəbul etməyə başladılar: **Boliviya** 2009-cu ildə konstitusiyasında qadınların siyasi təmsilçiliyində bərabərliyi təsbit etdi və 50% kvota tələb etdi. **Kolumbiya** 2011-ci ildə qadınların siyasi partiyaların namizəd siyahılarında ən az 30% təmsil olunmasını qanunilәşdirdi. **Ekvador** 2014-cü ildə qadınların siyahılarda ən az 30% olmasını tələb edən qanunu qəbul etdi. **Uruqvay** 2017-ci ildə qadınların siyasi partiyaların siyahılarında minimum 30% kvota ilə təmsil olunmasını təmin etdi. **Paraqvay** 2017-ci ildə qadınların siyahılarda 20-30% təmsilçiliyini tələb edən kvota qanununu qəbul etdi. Kvota faizi regionda ən aşağı səviyyələrdəndir. **Peru** 2019-cu ildə 50% kvota tətbiq edən ölkələrdən biri oldu, qadın və kişi namizədlərin siyahıda bərabər təmsilçiliyi qanunla təmin edildi. **Çili** 2018-ci ildə siyasi partiyaların namizəd siyahılarında qadınların ən az 40% olmasını qanuniləşdirdi.

Beləliklə, Cənubi Amerikada gender kvota qanunlarının qəbulunda xronoloji ardıcıllıq belə olmuşdur:

1. Argentina (1991) – 30%, sonra 2017-də 50% paritet
2. Venesuella (2000) – 40%
3. Boliviya (2009) – 50%
4. Kolumbiya (2011) – 30%
5. Ekvador (2014) – 30%
6. Çili (2018) – 40%
7. Uruqvay (2017) – 30%
8. Paraqvay (2017) – 20-30%
9. Peru (2019) – 50%

Kvotalar adətən siyasi partiyaların parlament seçkilərində təqdim etdiyi namizəd siyahıları üçün tətbiq olunur. **Paritet kvotası** — qadın və kişinin bərabər sayda siyahıya daxil olmasıdır (məsələn, Argentina və Peru). **Ənənəvi kvota** — müəyyən minimum faiz tələb olunur (adətən 30-40%).

Argentinada qadınların siyasi iştirakının inkişafı uzun və mərhələli bir proses olub, xüsusilə 20-ci əsrin əvvəllərindən etibarən qadın hərəkatlarının fəallaşması ilə formalaşıb. 1900-cü illərin əvvəllərində Argentina cəmiyyətində qadınlar əsasən ailə və məişət çərçivəsində fəaliyyət göstərirdilər. Lakin təhsil alan qadınların sayı artdıqca, feminist təşkilatlar meydana çıxdı. Ən tanınmış erkən feministlərdən biri **Alicia Moreau de Justo** idi. Onlar qadınların seçki hüququ, işçi qadınların hüquqları və sosial bərabərlik uğrunda mübarizə aparırdılar. Qadınların səsvermə hüququ 1947-ci ildə təmin edildi. Bu tarixi

nailiyyətin əsas təşəbbüskarlarından biri, Prezident Juan Domingo Perónun həyat yoldaşı **Eva Perón** idi. Eva Perón qadın seçicilərin siyasi səhnəyə çıxmasında əsas sima oldu və bu hüququn qazanılması üçün güclü kampaniyalar apardı. **Eva (1919–1952)** – yalnız prezidentin xanımı deyil, həm də Argentinada sosial və siyasi dəyişikliklərin aparıcı fiquru idi. 1947-ci ildə **Partido Peronista Femenino** (Qadın Peronist Partiyası) yaradaraq qadınların təşkilatlanmasını təmin etdi. Qadınların sosial müdafiəsi, təhsil və əmək hüquqları sahəsində geniş islahatlara öncülük etdi. Xüsusilə aşağı təbəqədən olan qadınların siyasi fəallığa qoşulmasına şərait yaratdı. 1951-ci ildə ilk dəfə qadınlar ümumi seçkilərdə həm səs verdi, həm də namizəd oldu. Nəticədə **26 qadın millət vəkili** və **6 qadın senator** parlamentə daxil oldu – bu, o dövr üçün dünyada ən yüksək göstəricilərdən biri idi. Xuan Peron 2-ci dəfə prezident seçildikdən bir neçə gün sonra Eva Peron dövlət mərasimində "dövlətin mənəvi lideri"adlandırıldı. 1951-ci ildə sağlamlıq problemi yaşayan Eva Peron əməliyyat keçirdi, bu xəstəlik əhaliyə Apandist xəstəliyi olaraq bildirildi. Lakin onun xəstəliyi daha ciddi idi. O,xərçəng xəstəliyinə tutulmuşdu. Xəstəliyi getdikcə daha ciddi vəziyyət alan Eva bir müddət sonra ayağa dura bilməyəcək qədər zəiflədi. O, Kimyaterapiya üçün Amerikaya getdi. O vaxtlar çox məhşur olmayan bu müalicə ilk dəfə argentinalı bir vətəndaşa tətbiq olundu. Lakin çabalar heç bir nəticə vermədi. Eva Peron 1952-ci il 26 iyul vəfat etdi. Ölümündən sonra Argentinada geniş yayılan yas elan edildi. Evanın meyidi ölümündən sonra mumyalandı. Evitanın ölümündən çox keçmədən dövlət çevrilişi ilə Juan Peronun səlahiyyətləri əlindən alındı.Evanı sərgiləmək üçün hazırlanan meyid 16 il ərzində qeyb oldu.1973-cü ildə hərbi rejim sona çatdı və Xuan Peron yenidən prezident seçildi.1974-cü ildə Juan Peronun ölümündən sonra Eva Peronun qəbri yenidən Argentinaya gətirildi və Buenos Ayresdə ailə qəbiristanlığında dəfn olundu.Maria Eva Duarte de Peron xalqın qəlbində hər zman öz yerini qoruyub saxlayır və Argentinanın ən çox yadda qalan lider qadınlarından biridir. Onun xidmətləri- 1947-ci il Səsvermə hüququ, işçilərin hüquqlarının təmin edilməsi, Peronist partiyasının təsis edilməsi.

**Verónica Michelle Bachelet Jeria (Çili)** Çilinin ilk qadın prezidenti olan Michelle Bachelet (2006–2010; 2014–2018) sosial siyasət, təhsil və səhiyyə islahatları ilə tanınıb. O, həm də BMT Qadınlar Agentliyinin (UN Women) ilk icraçı direktoru olub. O, Çili prezidentliyini tutan ilk qadın və Cənubi Amerikada ilk seçilmiş qadın liderdir. 2010 -cu ildə prezidentlikdən ayrıldıqdan sonra yenidən seçilməsə də, yeni yaradılan Birləşmiş Millətlər Cinsi Bərabərliyi və Qadınların Gücləndirilməsi Təşkilatının ilk icraçı direktoru təyin edildi. 2013 -cü ilin dekabrında Bachelet, 62% -dən çox səs toplayaraq, 2006 -cı ildə əldə etdiyi 54% -i yaxşılaşdıraraq yenidən seçildi. 1932 -ci ildən bəri yenidən seçilən ilk Çili Prezidenti oldu. Universitet səviyyəsində hərbi strategiya öyrənən bir həkim olan Bachelet, sələfi Ricardo Lagosun dövründə Səhiyyə Naziri və Müdafiə Naziri idi.

**Dilma Rousseff (Braziliya)**-Braziliyanın ilk qadın prezidenti (2011–2016) olan Dilma Rousseff enerji sektoru və sosial siyasət sahəsində islahatlar aparıb. Onun prezidentliyi həm də qadınların yüksək səviyyəli idarəçilikdə təmsilçiliyini simvolizə edib. **Cristina Fernández de Kirchner (Argentina)**- 2007–2015-ci illərdə Argentina prezidenti olan Cristina Kirchner iqtisadi inkişaf, sosial proqramlar və xarici siyasətdə aktiv rol oynayıb. Onun siyasi fəaliyyəti Argentinada qadın liderliyinin davamlılığını təmin edib.

**Isabel Perón (Argentina)** Dünyada prezident postuna gələn ilk qadınlardan biri olan Isabel Perón (1974–1976) həm də Eva Perónun siyasi mirasını davam etdirib. Onun dövrü siyasi çətinliklərlə yadda qalsa da, tarixdə qadın liderliyinin simvolu kimi qalıb.

**María Eugenia Vidal (Argentina)** Buenos Aires vilayətinin ilk qadın qubernatoru olan María Eugenia Vidal korrupsiya ilə mübarizə və sosial proqramlarla tanınıb.

## Mövzu 9. Gender iqtisadiyyati əmək bölgüsündə

Gender və iqtisadiyyat mövzusu, cəmiyyətlərin inkişafında mərkəzi rol oynayan, lakin tez-tez nəzərdən qaçırılan mühüm bir sahədir. İqtisadi proseslərdə qadınların və kişilərin iştirak səviyyəsi, əmək bazarında bərabər imkanlar, əməkhaqqı fərqləri, qeyri-rəsmi əmək və ailədaxili əmək bölgüsü kimi mövzular gender perspektivi ilə öyrənildikdə daha aydın görünür. Gender bərabərsizliyinin iqtisadiyyata təsiri

- Əmək bazarına çıxış fərqləri – Bir çox ölkədə qadınların əmək bazarına çıxış imkanları məhduddur. Bu, iş yerlərində ayrı-seçkilik, təhsil imkanlarının məhdudluğu və sosial stereotiplərlə bağlıdır.
- Əməkhaqqı uçurumu – Qadınlar eyni vəzifədə çalışan kişilərdən orta hesabla 15–25% az maaş alır. Bu uçurum inkişaf etmiş ölkələrdə belə mövcuddur.
- İş saatları və qeyri-ödənişli əmək – Qadınlar ev işləri və ailə qayğısı üçün həftəlik orta hesabla kişilərdən iki dəfə çox vaxt sərf edir, bu isə onların karyera imkanlarını məhdudlaşdırır.

Beynəlxalq Tədqiqatlar (Dünya Bankı) göstərir ki:

- Əgər qadınların əmək bazarına iştirakı kişilərlə bərabərləşsəydi, qlobal ÜDM 20–26% arta bilərdi.
- Təhsil imkanlarının genişləndirilməsi qadınların yüksək maaşlı sahələrə daxil olmasını sürətləndirir.

- Qadın sahibkarlığının dəstəklənməsi, iqtisadi innovasiyaların və yerli biznesin inkişafına töhfə verir.



Bəzi cəmiyyətlərdə etnik və hüquqi bölgü yoxdur,lakin onların hamısı bu və ya digər ölçüdə gender assimmetriyasını, yəni gender fərqlərini və uyğunsuzluqlarını hiss edirlər. Bəzən bu asimmetrik təzahürlər zaman keçdikcə dəyişirlər. Qadın hüququn obyekti kimi deyil, subyekti kimi ilk dəfə xatırlanmasına biz artıq hüquq tarixinin eramızdan əvvəlki II əsrinə aid mənbələrində rast gəlirik. Qadın hüquqlarina aid bir çox hüquqlar, məs., ailə və nigah hüquqları, kökləri dərin keçmişə - XII əsrə gedib çıxır ki, buna əsasən roma hüququnda romalı qadın həm ərinin nəslinə, həm də atasının nəslinə mənsub ola bilərdi. Qadın hüquqlarının qanunvericilikdə təsbit olunması müxtəlif ölkələrdə müxtəlif cür inkişaf edirdi. Məs., qadınlara səsvermə və müvafiq orqanlara seçilmə hüququ ilk dəfə olaraq 1893-cü ildə Yeni Zelandiyada verildi. Bu hüquq Avstraliyada 1902, ABŞ-da – 1920, Böyük Britaniyada – 1928, Rusiyada – 1919-cu ildə təsbit 1919-cu ildə Azərbaycanda qadınlara ADR Parlamentinə seçmək və seçilmək hüququ verilmişdi. Qanunvericilikdə qadınların təkcə seçki hüquqları təsbit olunmayıb. Azərbaycan Respublikası Konstitusiyasının 24-cü Maddəsi cinsi bərabərliyi təsbit edir, 25-ci Maddə isə hər cür ayrı-seçkiliyi qadağan edir. Gender iqtasadiyyatı gender tədqiqatlarının daha cavan və sürətlə inkişaf edən istiqamətlərindən biridir. Gender iqtisadiyyatı 80-90-cı illərdə Qərbdə yaranan feminist iqtisadi nəzəriyyəyə əsaslanır. Gender iqtisadi nəzəriyyəsinin diqqət mərkəzində qadının ev təsərrüfatında ödənişsiz əməyinin ölçülməsi, eləcə də ailə daxilində əməyin bölüşdürülməsi, gəlir kimi məsələlər durur. Cinslər arasında ənənəvi əmək bölgüsünə əsasən, kişiyə məhsuldar əməklə bağlı fəallıq aid edilir, qadın isə, həyatın mühafizəsi üçün şərait və iş qüvvəsinin təkrar istehsalı kimi baxılır. Gender rollarına görə bölüşdürməyə uyğun olaraq qadın əməyinə aşağıdakılar daxildir: ev işi, uşaqlara və qocalara qayğı, könüllü əmək, ailə biznesində iştirak, kənd təsərrüfatı əməyi, ərin karyerası üçün qoyulmuş ödənişsiz qadın əməyi.

Azərbaycan iqtisadiyyatındakı struktur dəyişikliklər qadınların və kişilərin vəziyyətinə müxtəlif cür təsir göstərir. Əksər başqa dövlətlərdə olduğu kimi, Azərbaycanda da qadınların sayca çoxluq təşkil etdikləri bir neçə "qadın" peşə sahələri vardır: səhiyyə və təhsil, sosial sığorta və pensiya təminatı sistemi, incəsənət

və mədəniyyət və s.
Cinsi əlamətə görə ayrı seçkilik iki formaya bölünür:

- eyni əməyin qeyri bərabər ödənməsi ilə bağlı əmək haqqındakı ayrı-seçkilik
- məsuliyyət və qərar qəbulu ilə bağlı və yüksək ödənişli nüfuzlu peşələrə və vəzifələrə qadınların çox az yol tapması ilə əlaqədar peşə yönümü.

İşçilər əmək bazarında öz işçi qüvvəsini satır, əvəzində əmək haqqı alırlar. Qadınların ev əməyi birbaşa əmək haqqı ilə əvəz edilmir ki, bu da ev əməyinin əslində əmək olmaması haqqında fərziyyələrin təsdiqlənməsinə gətirib şıxarır. Bu fərziyyələrə əsasən hakim mövqe evə pul gətirənə məxsus olmalıdır. Bu ailədə hakimiyyət və təhkimçilik iyerarxiyası yaradır ki, bu da öz növbəsində ailədə əmək və resursların düzgün bölüşdürülməməsinə gətirib çıxarır. Ailədə iqtisadi ağırlıqlar bir çox problemlər yaradır. Bu problemlərdən aşağıdakıları qeyd edə bilərik:

- Analıq ölümünün yüksək olması;
- Çoxlu sayda abortlar;
- Ailənin planlaşdırılması sahəsində informasiya və xidmətlərin olmaması;
- Özünə qəsd etmənin artması;
- Ciddi xəstəliklərin müalicəsi üçün vacib olan dava-dərmanların çatışmamazlığı;
- Psixiatriya tibbi yardım xidmətinin çatışmamazlığı.

Cənubi Amerika ölkələrində gender və iqtisadiyyat mövzusu son onilliklərdə regional inkişafın mərkəzi mövzularından birinə çevrilmişdir. İqtisadi göstəricilər, əmək bazarındakı iştirak səviyyəsi və gəlir bölgüsü hələ də gender bərabərsizliyinin ciddi mövcud olduğunu göstərir. Lakin eyni zamanda, qadınların təhsil səviyyəsinin artması, hüquqi islahatlar və feminist hərəkatların güclənməsi mühüm dəyişikliklərə yol açır. Ümumdünya Bankının məlumatına görə, Cənubi Amerikada qadınların əmək bazarında iştirak səviyyəsi ölkədən-ölkəyə dəyişir, lakin ortalama 50–55% arasındadır. Bu göstərici kişilərlə müqayisədə təxminən 20 faiz  aşağıdır.Qadınların böyük bir hissəsi xidmət sektorunda (təhsil, səhiyyə, turizm) və qeyri-rəsmi məşğulluqda (kiçik ticarət, ev işləri) təmsil olunur. Mühəndislik, texnologiya və yüksək maaşlı istehsal sahələrində qadınların payı aşağıdır. Bəzi ölkələrdə qadınların 40%-dən çoxu sosial təminat olmadan, qeyri-rəsmi işlərdə çalışır. Bu, gələcək pensiya və sosial müdafiə hüquqlarına ciddi mənfi təsir göstərir. Cənubi Amerikada qadınlar, eyni vəzifədə işləsələr belə, kişilərdən təxminən 20–30% az maaş alırlar. Səbəblər:

1. Qadınların daha çox aşağı maaşlı sahələrdə çalışması.
2. İşə götürmə zamanı gender stereotipləri.
3. Analıq məzuniyyətinin işəgötürənlər tərəfindən risk kimi qiymətləndirilməsi.

Son illərdə qadınların ali təhsil alanlar içində payı kişilərlə bərabərləşib, hətta bəzi ölkələrdə (Argentina, Kolumbiya, Uruqvay) onları üstələyib. Yüksək təhsil almağa baxmayaraq, qadınlar tez-tez aşağı maaşlı və qeyri-stabil işlərdə qalırlar. Bu fenomenə "şüşə tavan effekti" deyilir.

Braziliya: Gender bərabərliyinin təşviqi üçün iş yerlərində ayrı-seçkiliyi qadağan edən qanunlar (Maria da Penha Qanunu gender zorakılığını azaltsa da, dolayı yolla iqtisadi iştirakda da motivasiya yaradıb). Argentina eyni əmək haqqı hüququnu Konstitusiyada təsbit edib. Çili 2018-də gender bərabərliyi üzrə milli plan qəbul olunub, qadın sahibkarlığına vergi güzəştləri tətbiq edilir.

Qadınlar çox vaxt ailə və ev işlərinə daha çox vaxt ayırır, bu da tam zamanlı iş imkanlarını məhdudlaşdırır. Regionda qadın sahibkarların sayı artsa da, maliyyə resurslarına çıxış kişilərə nisbətən daha məhduddur. "Qadın üçün əsas yer evdir" yanaşması bəzi kənd bölgələrində hələ də güclüdür.

## Mövzu 10. Gender və Səhiyyə

XX əsrin ortalarına qədər Cənubi Amerikada qadınların səhiyyə xidmətlərinə çıxışı çox məhdud idi. Qadınlar əsasən ana və uşaq sağlamlığı çərçivəsində tibbi yardım alırdılar. Reproduktiv sağlamlıq, ailə planlaşdırılması və ginekoloji xidmətlər isə çox vaxt tabu mövzular idi. 1980–1990-cı illərdə demokratik islahatlar və beynəlxalq təşkilatların təşəbbüsləri nəticəsində qadınların sağlamlıq hüquqları daha geniş tanınmağa başladı. Qadınların ömür uzunluğu demək olar ki, bütün Cənubi Amerika ölkələrində kişilərdən yüksəkdir, lakin qadınlar tez-tez xroniki xəstəliklərdən daha çox əziyyət çəkirlər. Reproduktiv sağlamlıq məsələsi gender bərabərliyinin əsas hissəsidir. Bir çox ölkədə ailə planlaşdırılması və kontraseptiv vasitələrə çıxış hələ də qeyri-bərabərdir. Kənd yerlərində yaşayan qadınlar bu xidmətlərə çatmaqda daha çox çətinlik çəkirlər. Dünya Səhiyyə Təşkilatı və BMT-nin dəstəklədiyi proqramlar bu fərqi azaltmağa çalışır, lakin sosial-mədəni maneələr qalmaqdadır.

Braziliya: "Saúde da Mulher" proqramı çərçivəsində qadınların reproduktiv sağlamlığına dövlət dəstəyi artırılıb.

Argentina: Qadınların abort hüququ 2020-ci ildə qanuniləşdirilib, bu isə maternal ölüm hallarını azaltmaq məqsədi daşıyır.

Kolumbiya: Qadınların hamiləliyin müəyyən hallarda dayandırılması hüququ məhkəmə qərarı ilə tanınıb.

Qadınlar Cənubi Amerikada səhiyyə işçi qüvvəsinin böyük hissəsini təşkil edirlər. Tibb bacıları, mamaçalar, ailə həkimləri arasında qadınların payı yüksəkdir. Lakin rəhbər və qərar qəbul edən vəzifələrdə kişilər üstünlük təşkil edir. Bu, həm gender şüşə tavanı probleminin, həm də patriarxal idarəetmə modellərinin nəticəsidir. Pandemiya dövründə qadın səhiyyə işçiləri ön cəbhədə mübarizə apardılar. Lakin eyni zamanda qadınlar ev içində təmizlik, uşaqlara baxım və yaşlı valideynlərin qayğısı kimi ödənişsiz iş yükünün artması ilə qarşılaşdılar. Qadınlar həm də iş yerlərini itirmə və psixoloji gərginlik baxımından daha həssas vəziyyətdə idilər. Qadınların ən böyük çətinliklərindən biri hələ də regionda Katolik və Evangelist kilsələrin güclü təsiridir. Bu təsir bəzi ölkələrdə abortun qadağan olunmasına və kontraseptiv siyasətin məhdudlaşdırılmasına səbəb olur. Uruqvay regionda reproduktiv hüquqlar sahəsində ən qabaqcıl ölkələrdən biridir. 2012-ci ildən abort 12-ci həftəyə qədər qanunidir, dövlət səviyyəsində pulsuz kontraseptiv vasitələr təqdim olunur. Argentina 2020-ci ilin dekabrında abort 14-cü həftəyə qədər qanuniləşdirildi. Bu qərar regionda böyük dönüş nöqtəsi hesab olunur. Kolumbiya 2022-ci ildə abort 24-cü həftəyə qədər qanuni oldu, əvvəllər yalnız zəruri hallarda icazə verilirdi. Braziliya abort yalnız zorlama, ananın həyatına təhlükə və dölün anensefali halında qanunidir. Çili 2017-ci ildən abort yalnız 3 halda icazəlidir: ananın həyatına təhlükə, zorlama və dölün ölümcül qüsurları. Paraqvay, Ekvador, Venesuela qanunvericilik daha məhduddur, abort yalnız çox məhdud hallarda mümkündür. Boliviya son illərdə müəyyən yumşalmalar olsa da, hələ də ciddi məhdudiyyətlər qalır. Regionun əksər ölkələrində kontraseptiv vasitələr qanuni olsa da, onların praktik olaraq hər bölgədə əlçatan olması problem olaraq qalır. Kənd yerlərində tibbi xidmətin zəif inkişafı qadınların reproduktiv sağlamlığına ciddi təsir edir. Uruqvay və Argentina dövlət proqramları vasitəsilə kontraseptivləri pulsuz təqdim edir, amma Boliviya, Paraqvay və Ekvadorda bu imkan məhduddur. Uruqvay və Argentinada məktəblərdə məcburi cinsi təhsil proqramları var. Peru, Boliviyada cinsi təhsil bəzi bölgələrdə mədəni müqavimət səbəbindən məhduddur. Paraqvay və Venesuelada cinsi təhsil çox vaxt formal xarakter daşıyır və effektiv tətbiq edilmir. Reproduktiv hüquqların məhdud olması qadınların iqtisadi imkanlarına da birbaşa təsir göstərir. Erkən yaşda hamiləlik və planlaşdırılmamış doğuşlar qadınların təhsil və əmək bazarına çıxış imkanlarını azaldır. Dünya Bankı məlumatına görə, Latın Amerikasında 15–19 yaş arası qadınların doğuş göstəricisi hələ də yüksəkdir, xüsusən Boliviya, Paraqvay və Ekvadorda. Bir çox Cənubi Amerika ölkəsi CEDAW (Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi haqqında Konvensiya) və Belém do Pará Konvensiyası kimi beynəlxalq sənədlərə qoşulub. Amma bu öhdəliklərin reallaşdırılması praktiki səviyyədə çox fərqli nəticələr verir.

Braziliyada Sterilizasiya 1996-cı ildə 25 yaşdan yuxarı qadınlar üçün qanuni və pulsuz olduğu üçün Braziliyada getdikcə populyarlaşdı və Səhiyyə Nazirliyi tərəfindən tənzimlənir. Sterilizasiya leqallaşdırılmasından əvvəl də yoxsul icmalar arasında populyar bir təcrübə olmuş və özəl klinikalarda tətbiq edilmişdir. Sterilizasiya ən çox Afro-Braziliyalılar arasında ölkənin şimal-şərqində yayılmışdır, hansı ki, digər kontrasepsiya növlərini təmin etmək üçün çox kasıbdırlar. Abort isə Braziliyada ananın həyatı təhlükə altında olduğu və təcavüz hadisəsi xaricində hallar istisna olmaqla, qanunsuzdur. Abortlar qanuna zidd olsa da, Braziliya hər il abort hallarına dair məlumatlar sistematik olaraq toplanmasa da, hər il ortalama bir milyondan çox abort edildiyi təxmin edilir. Abort edənlərin cəzası bir ildən dörd ilə qədər həbs cəzasıdır və qadınlara ziyan dəysə bu say üçdə biri, abort qadının ölümünə səbəb olarsa yarısı qədər də artır. Feminist hərəkat fəalları 4 iyun 2011-ci ildən bəri abortu qanunsuz edən qanuna etiraz etmək üçün küçələrə çıxırlar. Etiraz "Marcha Das Vadias" adlanırdı. 28 oktyabr 2018-ci ildə seçilən yeni prezident Jair Bolsonaro, Braziliya Qadın, Ailə və İnsan Hüquqları Naziri vəzifəsinə keşiş Damares Alves'i seçdi. Alves, yeni hökumətin Braziliyaya "abortsuz bir ölkə" olmasını dilədiyini iddia edir, lakin əvvəlki istisnalar dəyişdirilməyəcək. 1988-ci il Konstitusiyasının qəbulundan sonra 1991-ci ildə cinsi təcavüzü qadağan edən və 20.000 dollar məbləğində cərimə ilə cəzalandırılan bir qanun qəbul edildi. 2001-ci ildə, mülki məcəlləyə əsasən mübahisəli bir qanun qəbul edildi, cinsi təcavüz cəzasını bir ildən iki ilə qədər həbs cəzası ilə əvəzlədilər. Sərt qaydaların mövcudluğuna baxmayaraq, Braziliya iş yerində və evdə qadınlara edilən təcavüz baxımından dünyada ən pis nüfuz sahiblərindən biridir. Fiedler və Blanco, kişilərin nadir hallarda cinsi təcavüz qanunlarına riayət etdiyini və az sayda cinsi təcavüz hadisəsinin Braziliyada məhkəməyə verildiyini iddia edirlər. 2015-ci ildə Braziliya, təcavüz mövzusunda altıncı ən şiddətli ölkə olaraq təyin edildi. Yalnız El Salvador, Honduras, Venesuela, Yamayka, Trinidad və Tobaqonun arxasındadır.

Katolik kilsəsinin aborta münasibəti tarixi və ideoloji baxımdan çox sərt və prinsipialdır. Katolik təliminə görə, insan həyatı mayalanma anından başlayır və bu həyat Tanrı tərəfindən verilmiş müqəddəs bir nemət kimi qəbul edilir. Bu səbəbdən, hamiləliyin istənilən mərhələsində süni şəkildə dayandırılması – yəni abort – "müqəddəs həyatın qəsdən məhv edilməsi" kimi qiymətləndirilir və ağır günah sayılır. Rəsmi mövqe Katolik Kilsəsinin Kodeksi və müxtəlif Papaların dövrlərində (xüsusilə Papa II İohann Pavelin *Evangelium Vitae* (1995) sənədində) aydın şəkildə ifadə olunub: abort heç bir halda "əxlaqi cəhətdən qəbul edilə bilən" bir seçim deyil. İstisna yalnız dolayısı ilə həyat xilas etmə əməliyyatlarında mümkündür (məsələn, ananın həyatını xilas etmək üçün edilən tibbi müdaxilə nəticəsində dölün yaşaması mümkün olmadıqda), amma bu, "niyyətli abort" hesab olunmur. Latın Amerikası konteksti Cənubi Amerika ölkələrinin çoxu, xüsusən də katolik ənənəsi güclü olan dövlətlər

(Paraqvay, Salvador, Venesuela, Peru və b.) uzun müddət bu mövqeyi hüquqi sistemlərinə daşıyıb. Bu ölkələrdə abort yalnız çox məhdud hallarda — ananın həyatını xilas etmək məqsədilə və ya bəzi hallarda zorakılıq nəticəsində hamiləlik baş verdikdə icazə verilir. Lakin son illərdə Argentina (2020), Kolumbiya (2022) və Uruqvay kimi ölkələrdə abortun müəyyən həddə (məsələn, 12 və ya 14 həftəyə qədər) leqallaşdırılması, Katolik Kilsəsi ilə hökumətlər arasında ciddi mübahisələr yaradıb. Katolik Kilsəsi Latın Amerikasında yalnız dini yox, həm də siyasi təsir gücünə malikdir. Kilsə aborta qarşı etiraz aksiyaları, kütləvi "pro-life" kampaniyaları və lobbiçilik fəaliyyəti ilə qanunvericiliyin yumşaldılmasının qarşısını almağa çalışır. Bununla belə, şəhərləşmə, qadın hərəkatlarının güclənməsi və feminist təşkilatların fəaliyyəti nəticəsində bəzi ölkələrdə qanunlar dəyişməyə başlayıb. Cənubi Amerikada katolik kilsəsinin güclü təsiri səbəbindən bir çox ölkədə abort qanunları uzun müddət ərzində çox məhdudlaşdırıcı olmuşdur. Məsələn, Paraqvay kimi ölkələrdə abort tam qadağandır, hətta zorakılıq və ya qadının həyatı təhlükədə olduğu hallarda belə. Argentina, Kolumbiya və Meksika kimi bəzi ölkələr isə son illərdə abort hüququnu genişləndirməyə başlasalar da, bu proses cəmiyyətdə və siyasətdə kilsə ilə qarşıdurmalar yaradır. Katolik kilsəsi, abortun qanuniləşdirilməsinə qarşı mübarizəni yalnız dini arqumentlərlə deyil, həm də "ailə dəyərləri" və "ictimai əxlaq" anlayışları ilə əsaslandırır. Kilsə təbliğatında tez-tez abortun əhali azalması, ailə institutunun zəifləməsi və "mədəni deqradasiya" ilə nəticələnəcəyi vurğulanır.

## Mövzu 11. Gender və zorakılıq

Gender zorakılığı — şəxsin cinsi və ya gender kimliyi əsasında ona qarşı tətbiq olunan fiziki, psixoloji, seksual, iqtisadi və ya sosial zorakılıq formalarıdır. BMT-nin tərifinə görə, gender əsaslı zorakılıq qadınlara, kişilərə və LGBTQ+ şəxslərə qarşı yönələ bilər, lakin dünyada daha çox qadınlara qarşı müşahidə olunur.

Qadınlara qarşı gender əsaslı zorakılıq dedikdə məhz qadın olduqları üçün qadınlara qarşı yönələn və ya onlara əhəmiyyətli dərəcədə təsir edən zorakılıqlar başa düşülür. (İstanbul Konvensiyası maddə 3) Gender əsaslı zorakılıq faktiki və ya ehtimal edilən cinsi, genderi, cinsi oriyentasiyası və/və ya gender kimliyinə görə bir şəxsə və ya bir qrup insana qarşı törədilən hər hansı zərər növüdür. Gender əsaslı zorakılıq səbəbləri: mədəni, hüquqi, iqtisadi və siyasi ola bilir. Əsas səbəblərə

- Patriarxal mədəniyyət – kişilərin üstün statusa malik olduğu ənənələr.
- Qanunvericilikdə boşluqlar – qoruyucu mexanizmlərin yetərsizliyi.
- İqtisadi asılılıq – xüsusilə qadınların maliyyə baxımından kişilərdən asılılığı.

- Sosial stereotiplər – “kişinin sözü keçərlidir” və ya “ailə məsələləri çöldə danışılmaz” kimi düşüncələr.
- Təhsil səviyyəsinin aşağı olması – hüquqların və bərabərliyin tanınmaması.

Cəmiyyətdə formalaşmış gender stereotipləri də zorakılığa səbəb olur. Onlar müəyyən «sinfə» aid olduğuna görə cəmiyyətdə fərdlərə aid edilmiş arakteristika, yanaşma, rollardır. Bu xarakteristika, yanaşma və rollar o zaman problem yaradır ki, onlar hüquqi təsirə malik olur, kimlərinsə hüquqlarını məhdudlaşdırır, yaxud bunun mənfi sosial nəticələri olur. Məs., universal neytral paradiqm daxilində əlverişsiz iyerarxiya yaradır.

Zorakılığın növləri:

- fiziki
- şifahi (nifrət nitqi daxil olmaqla)
- cinsi
- psixoloji
- sosial-iqtisadi

**İstanbul Konvensiyasına əsasən zorakılığın təsnifatı:**

- psixoloji zorakılıq (Maddə 33)
- təqib (Maddə 34)
- fiziki zorakılıq (Maddə 35)
- məcburi nikahlar (Maddə 37)
- cinsi zorakılıq, o cümlədən zorlama (Maddə 36)
- qadın sünnəti (Maddə 38)
- məcburi abort və məcburi sterilizasiya (Maddə 39)
- cinsi qısnama (Maddə 40)
- cinayətin törədilməsinəköməklik göstərilməsi və cinayətə cəhd etmə (Maddə 41)
- cinayətlərə, o cümlədən “namus-şərəf naminə” törədilən cinayətlərə qəbuledilməz bəraətin qazandırılması (Maddə 42)

**Cənubi Amerika ölkələrində zorakılıq**

Cənubi Amerika ölkələri (xüsusilə Braziliya, Kolumbiya, Argentina, Peru) gender əsaslı zorakılıq statistikasında dünyanın ən yüksək göstəricilərinə malik regionlardan biridir. Problem uzun müddət patriarxal mədəniyyət, zəif hüquqi icra və ictimai susqunluq, kilsənin hökmranlığı kimi amillərlə güclənir. BMT və *UN Women* hesabatlarına görə, regionda hər il minlərlə qadın femisid (qadın qətli) qurbanı olur.

Braziliya – 2023-cü ildə hər gün orta hesabla 3 qadın partneri və ya keçmiş partneri tərəfindən öldürülüb. "Maria da Penha" qanunu (2006) mövcuddur, amma tətbiqində hələ də boşluqlar qalır. "Maria da Penha" Qanunu – Braziliyada 2006-cı ildə qəbul olunmuş, məişət zorakılığına qarşı mübarizəni gücləndirən və qadınların qorunmasını təmin edən xüsusi qanundur. Qanunun adı Maria da Penha Maia Fernandes adlı braziliyalı qadının həyat hekayəsindən götürülüb. 1983-cü ildə həyat yoldaşı onu iki dəfə öldürməyə cəhd edib: əvvəlcə atəş açaraq iflic vəziyyətinə salıb, sonra isə elektrik cərəyanı ilə öldürməyə çalışıb. Maria illərlə ədalət axtarıb, lakin cinayətkar yalnız 19 il sonra həbs olunub. Onun işi BMT və Amerika Dövlətləri Təşkilatı tərəfindən araşdırılıb və nəticədə Braziliya hökumətindən qadınlara qarşı zorakılıqla mübarizədə qanuni islahatlar tələb olunub. Qanun əsasən məişət zorakılığının hüquqi tərifi – fiziki, psixoloji, seksual, iqtisadi və mənəvi zorakılıq formalarını əhatə edir. Cəza tədbirlərinin sərtləşdirilməsi – zorakılıq törədən şəxslərə şərti cəza tətbiqinin məhdudlaşdırılmasını nəzərdə tutur. Qanunla, qoruyucu tədbirlər kimi zorakılıq törədən şəxsin evdən uzaqlaşdırılması, qurbanın təhlükəsiz yerə yerləşdirilməsi, qurbanın iş yerinin dəyişdirilməsi və ya hüquqi yardım alması nəzərdə tutulur. Xüsusi məhkəmələr və polis bölmələri – qadınlara qarşı zorakılıq işlərinə baxmaq üçün yaradılıb. Qanun qəbul olunduqdan sonra Braziliyada zorakılıq halları haqqında şikayətlərin sayı artıb (çünki qadınlar artıq daha çox hüquqi müdafiə mexanizmlərinə güvənirlər). Lakin bəzi bölgələrdə polis hazırlığı, sığınacaq çatışmazlığı və mədəni stereotiplər səbəbindən qanunun tətbiqi zəifdir.

Kolumbiyada silahlı münaqişə illərində qadınlara qarşı seksual zorakılıq müharibə aləti kimi istifadə olunub. Sülh dövründə də femisid səviyyəsi yüksəkdir. Argentina – 2020-də "Micaela Qanunu" qəbul edilib, dövlət qulluqçuları üçün gender təhsili məcburidir, lakin femisid hələ də ciddi problemdir. Micaela Qanunu Argentinada 2018-ci ildə qəbul olunmuş, amma 2020-dən tam tətbiqinə başlanmış bir qanundur. Bu qanun dövlətin bütün strukturlarında çalışan şəxslərə gender perspektivi və gender zorakılığının qarşısının alınması mövzusunda məcburi təlim keçməyi tələb edir.

Micaela García – 21 yaşlı argentinalı gənc qadın idi. 2017-ci ildə femisid qurbanı oldu: ona qarşı seksual zorakılıq törədildi və öldürüldü. Cinayətkar daha əvvəl də qadına qarşı zorakılığa görə məhkum olunmuş, amma vaxtından əvvəl azadlığa buraxılmışdı. Hadisə ölkədə böyük ictimai rezonans yaratdı və dövlət məmurlarının gender mövzusunda savadsızlığının təhlükəli nəticələrini göstərdi.

Qanunun əsas müddəaları məcburi gender təhsili – Prezidentdən başlayaraq bütün nazirliklər, məhkəmələr, polis və yerli özünüidarə orqanlarının işçiləri bu təlimi keçməlidirlər. Təlim keçməyən məmurlar vəzifədən uzaqlaşdırıla və ya intizam məsuliyyətinə cəlb oluna bilər. Qanun ictimai idarəçilikdə gender yanaşmasının tətbiqinə ciddi təkan verib. 2020–2023 arası 300 mindən çox dövlət qulluqçusu gender təlimlərindən keçib. Gender zorakılığına qarşı dövlət orqanlarının reaksiyası daha operativ və həssas olmağa başlayıb, amma qadın hərəkatları hələ də icrada boşluqlar olduğunu bildirirlər.

Peru – Qadınların 60%-dən çoxu həyatlarında ən azı bir dəfə fiziki və ya psixoloji zorakılığa məruz qalıb. Zorakılığın əsas səbəbləri İqtisadi asılılıq – qadınların əmək bazarında bərabər imkanlara malik olmamasıdır. Perudakı zəif hüquq-mühafizə orqanları – şikayətlərin araşdırılmaması, qurbanın təkrar zorakılığa məruz qalması da vəziyyəti gərginləşdirir.

- 1940’lar – ilk bərabərlik barədə bəyanatlar (Dünya İnsan Hüquqları Bəyannaməsi)
- 1950’lər – ayrı-seçkiliyə yol verilməməsi (AİHK), əmək fəaliyyətində bərabərlik (BƏT konvensiyaları)
- 1960’lar – ayrı-seçkiliyin yolverilməzliyi və bərabərlik, müdafiə və hörmət (ICCPR və ICESCR)
- 1970’lər – Qadın hüquqları üzrə dünya konstitusiyası (CEDAW)
- 1980’lər – Qadın hərəkatlarının beynəlxalq çərçivəyə çıxması, gender stereotipləri beynəlxalq gündəlikdə
- 1990’lar – Qadın mövzusunun bütün proseslərə daxil edilməsi (Pekin Bəyannaməsi və Fəaliyyət Platforması)
- 2000’lər – transmilli cinayətkarlıqda insan alveri, cinsi istismarı əleyhinə müddəələr (CETS 197, Lanzarot Konvensiyası)
- 2010’lar – Qadınlara qarşı zorakılıqla müfəssəl mübarizə (İstanbul Konvensiyası), BMT-nin 17 məqsəd

**Dünya insan hüquqları bəyannaməsi**

Bəyannamə 1948-ci ildə qəbul edilib. Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, ana-dangəlmə mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən butun huquqlara və butun azadlıqlara malik olmalıdır. Bundan əlavə, insanın

mənsub olduğu ölkənin və ya ərazinin siyasi, huquqi və beynəlxalq statusuna, bu ərazinin mustəqil, asılı, özunu idarə etməyən və ya suverenliyi hər hansı digər səkildə məhdudlaşdıran ərazi olub-olmamasından asılı olmayaraq, heç bir fərq qoyulmamalıdır.

**Avropa Şurasının konvensiyaları**

- Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Avropa Şurasının Konvensiyası (İstanbul Konvensiyası);
- İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası;
- Uşaqların seksual istismardan və seksual zorakılıdan müdafiəsi haqqında Avropa Şurasının Konvensiyası (Lanzarot Konvensiyası)

**Avropa İnsan hüquqları konvensiyaları**

- Avropa Insan Hüquqları Konvensiyası Avropanın insan hüquqlarına dair əsas müqaviləsidir
- Konvensiyanın 1-ci maddəsi Avropa Şurasına üzv olan 46 dövlətin yurisdiksiyası daxilində olan hər həs üçün Konvensiyada yer alan hüquq və azadlıqları təmin edir.
- Cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkiliyin yolverilməzliyi prinsipi Konvensiyanın 14-cü maddəsi ilə və 12 saylı Protokolu ilə təmin edilir.

**İstanbul Konvensiyası**

İstanbul Konvensiyası gender əsaslı zorakılığa (GBV) hərtərəfli müraciət edən ən yeni beynəlxalq sənəddir. Qadınlara qarşı zorakılığın və məişət zorakılığının bir çox formaları ilə mübarizə aparılması üçün çoxları tərəfindən hərtərəfli beynəlxalq sənəd kimi tanınır. Azərbaycan indiyədək həmin konvensiyaya qoşulmayıb. İstanbul Konvensiyasının tam adı "Qadınlara qarşı zorakılıq və ailədaxili zorakılığın qarşısının alınması və onlarla mübarizə haqqında Avropa Şurası Konvensiyası" — 11 may 2011-ci ildə İstanbulda imzalanmış beynəlxalq müqavilədir. Onun əsas məqsədi:

- Qadınlara qarşı zorakılığın qarşısını almaq – təhsil, maarifləndirmə və profilaktik tədbirlər vasitəsilə.
- Zərərçəkmişləri qorumaq və dəstək vermək – hüquqi, psixoloji, sosial və tibbi yardım mexanizmlərini gücləndirmək.
- Təqsirkarları məsuliyyətə cəlb etmək – qanunvericilikdə zorakılığın bütün formalarını cinayət kimi tanımaq və sanksiya tətbiq etmək.
- Beynəlxalq əməkdaşlığı artırmaq – ölkələr arasında məlumat və təcrübə mübadiləsini təmin etmək.

Əhatə etdiyi zorakılıq növləri:

- Fiziki zorakılıq
- Seksual zorakılıq (o cümlədən təcavüz)
- Psixoloji zorakılıq
- İqtisadi zorakılıq
- Qadınların cinsi istismarı və məcburi evlilik
- Qadın cinsiyyət orqanlarının kəsilməsi (FGM)
- Qadınların təqibi (stalking)

Konvensiyanın həyata keçirilməsinə GREVIO (Qadınlara qarşı zorakılığa qarşı fəaliyyət üzrə ekspertlər qrupu) nəzarət edir. İlk imzalayan və ratifikasiya edən ölkə — Türkiyə (lakin 2021-ci ildə çıxıb). Hazırda bir çox Avropa Şurası ölkələri tərəfindən ratifikasiya edilib. Azərbaycan Konvensiyanı imzalamayıb.

## Mövzu 12. Gender və Din

Gender təbəqələşməsi – kişi və qadın arasındakı bioloji fərqlərin sosial əhəmiyyət kəsb etməsi və sosial təsnifat vasitəsi kimi tətbiq olunması prosesidir. Ən tanınmış mədəniyyətlərdə anatomik cins genderin əsasını təşkil edir. Gender rolu – genderi əks etdirən anlayışlardan doğan sosial gözləmə, həmçinin nitqdə, tərzdə, geyimdə, jestlərdə, hərəkətlərdə özünü biruzə verən davranışdır. Sosial rolların bir növü, qadın və kişi üçün gözlənilən davranış tərzi (və ya normaları) toplusudur. Rollar sosial psixologiyada insanların hər hansı sosial vəziyyətdə özlərini necə aparmasını tənzimləyən normalar toplusu kimi müəyyən edilir. Rollar nəzəriyyəsinin ilkin nümayəndəsi kimi Şekspiri qeyd etmək olar. Hofstedin nəzəriyyəsinə görə, gender rollarının müxtəlifliyi mədəniyyətlərdə gender differensiasiyasının dərəcəsindən və ya bu və ua digər mədəniyyətdə maskulinlik və femininliyin dərəcəsindən asılıdır. Hofsted tədqiqatlar əsasında göstərdi ki, maskulin mədəniyyətin insanları daha yüksək nailiyyət motivasiyasına malik olur, həyatın mənasını işləməkdə görürlər və çox gərgin işləməyə qadirdirlər. Gender stratifikasiyası – elə bir prosesdir ki, onun vasitəsilə ilə gender social stratifikasiyanın əsasına çevrilir, gender arasındakı fərq isə sistematik qiymətləndirilən və qiymətləndirilmiş olur. Həmçinin açıq və gizli-seçkilik növləri mövcuddur. Gender stereotipləri - qadın və kişilərin həyatda özlərini necə aparmalı olduqlarına dair cəmiyyətdə tərtib edilmiş, ümumiləşmiş təsəvvürlərdir. Bu termini, qadın və kişidən gözlənilən davranış nümunələri komplektini ifadə edən gender rolu anlayışından fərqləndirmək lazımdır.
Gender ideologiyasi - cəmiyyətin quruluşu və cəmiyyətdə iki sosial birlik kimi qadınların və kişilərin qarşılıqlı münasibətləri haqqında anlayışlar və təsəvvürlər,
ideya və baxışlar sistemidir. Gender tədqiqatlarının ayrılmaz hissəsi diskriminasiya kateqoriyasıdır. Kişi əməyi bütün cəmiyyətlərdə daha yüksək qiymətləndirilir, buna görə

də kişi və qadınla bağlı fəaliyyət növləri və təsəvvürlər elə əvvəlcədən bərabər qəbul olunmur. Gender ayrı-seçkiliyi – müəyyən cinsə digəri ilə müqayisədə üstünlük verilməsi deməkdir. Qadınlara öz marağını həyata keçirmək üçün kişilərlə bərabər hüquq verilməsində həlledici rol oynayan, qadınlara da ümumi seçki hüququnun verilməsini tələb edən ən fəal qüvvə - sufrajizm (ingiliscə "suffrage" – seçki hüququ) oldu.

Sufrajizmin inkişafına, bu hərəkatın müxtəlif formalarının və siyasətdə iştirakın aşkar olunmasına, həmçinin qadınların siyasi fəaliyyətə cəlb olunmasına ən parlaq nümunə - onun Böyük Britaniyadakı inkişafıdır. İngiltərədə ilk suffrajist təşkilat 1851-ci ildə yarandı. Azərbaycanda qadınların ölkənin icimai-siyasi həyatına cəlb edilməsi Qərb ölkələri ilə müqayisədə xeyli sonra başladı və bu, tarixi inkişaf xüsusiyyətləri ilə bağlı idi. XX əsrin əvvəlində Azərbaycan qadınlarının böyük əksəriyyətinin təhsil, mədəni dəyərlər, ictimai və sosial həyatla əlaqəlisi yox dərəcəsində idi. Sovet dövlətinin süqutu və 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini elan etməsi ilə gender və siyasi iştirak məsələlərində də yeni dövr yarandı. Faktiki olaraq 80-ci illərin sonundan Azərbaycan qadınlarının ictimai-siyasi həyata cəlb olunması ilə bağlı fəal proses başlandı və bu sovet cəmiyyətindəki islahat və demokratikləşmə, Dağlıq Qarabağ ermənilərinin Azərbaycanın ərazi bütövlüyünə iddiası ilə bağlı idi.

Cins insanın yeganə atributudur ki, biz onu heç zaman unutmuruq. Psixoloqlar cins-rol eyniləşmə prosesinin uşağın doğulduğu andan başladığını aşkar etmişlər. Demək olar ki, cinsi mənsubiyyət uşağın öz "Mən"ini dərk etdiyi ilk kateqoriyadır. Yaş artdıqca cinsi-rol eyniliyinin məzmunu da dəyişir. Uşaqların sosializasiyası prosesində valideyn davranışı ilə bağlı araşdırmalar cinsi mənsubiyyətə görə fərqləndirməni nümayiş etdirir: dünyanı tanımaq üçün oğlana qızdan daha çox azadlıq verilir. Unutmaq olmaz ki, gender-rol sosializasiyası insanın bütün həyatı boyu davam edən bir prosesdir; o, dəyişən şəraiti və yeni təcrübəni əks etdirir. Ehtimal var ki, differensial sosializasiya prosesində valideynlərin qıza və oğlana təklif etdiyi uşaq oyuncaqlarının rolu böyükdür. Gender-rol sosializasiyasında kütləvi informasiya vasitələri mühüm rol oynayır, axı onlar müntəzəm olaraq bizə

stereotip qadın və kişi obrazları nümayiş etdirir.

### Xristianlıqda gender məsələləri

Hər kəsə məlumdur ki, gender rolları mədəniyyətlə formalaşır. Ataların kilsədəki vəziyyətini nəzərə alsaq qadınların əxlaqının kişi dünyasının dəyərlərinə uyğun şəkildə nizama salınmasını yaxşı anlayarıq. Xristianlıq birmənalı şəkildə ta başlanğıcından qadınları idarəçilik və liderlikdən istisna etmişdir. O, qadını nə bir ciddi elm sahəsində, nə də dövlət qulluğunda görmür. Xristian ailə mədəniyyətinə görə qadının yeri ailəsindədir. Xristianlıqda ailədə patriarxallıq əsas götürülür. Xristian kilsələri kişi din xadimlərinin möhkəm nəzarəti altındadır. Xristian mədəniyyəti qadını ev sferasına, ailəyə

sıxışdırmışdır. Xristian din xadimləri hər zaman qadınların müştərək ev və karyera fəaliyyətlərindən əndişələnmişlər. Xristian ailələrindəki gender asimmetriyası Xristian mədəniyyətinin gender diferensasiyasının üzərinə düşür. Kilsə gender rollarının konfliktinin hər zaman əleyhinədir. İşgüzar qadınlar xrsitian mədəniyyəti üçün real təhlükə hesab edilirlər, çünki ənənəvi ailələrin bünövrəsini bu sarsıda bilər və bu, hətta o qədər təhlükəlidir ki, dövlətin mövcud quruluş modelinə də xələl gətirə bilər.

**İslamda gender stereotipləri** Dünyada mövcud olan elə bir din tapılmaz ki, orada bəzən çox, bəzən az da olsa, kişi və qadın arasında ayrı-seçkiliyə təsadüf edilməsin. Bir şeyi də tədqiqatçılar yadlarında möhkəm saxlamalıdırlar ki, dinləri tədqiq edən alimlər obyektiv olmaqda çətinlik çəkirlər. Dinləri araşdıran, dini qurumlarda qadının yerini tədqiq edən tədqiqatçının hansı dinə, hansı cinsə mənsub olması məsələsi araşdırmanın obyektivliyinə dəlalət edən əsas amillərdəndir. Müsəlman kişi və qadınlar üçün müqəddəs kitab sayılan Quranda nikah və boşanma, əmlak varisliyinin təyini zamanı, ailə və nəslin davamında gender bərabərliyindən bəhs edilsə də, poliqamiya kimi ağlasığmaz bir məqam (bunun İslamda o qədər də çox tövsiyyə edilməməsinə baxmayaraq) müsəlman qadınına buyurulur. İstər Qərb olsun, istərsə də Şərq, dünyada mövcud olan elə bir din tapılmaz ki, qadın kişidən az statuslu cins kimi təqdim edilməsin. Sadəcə, Qərb qadınları ilə Şərq qadınlarının bu təqdimata yanaşmaları fərqlidir, belə ki, eyni dinə, İslam dininə mənsub olan iki qadın biri Əfqanıstanda, digəri ABŞ-da yaşayırsa, bu zaman dinin onlara təlqin etdikləri qanunları onlar eyni cür qarşılamayacaqlar. Əlbəttə, bu ən çox iki qadının mənsub olduqları müxtəlif sosial statusdan, mədəni amillərdən, məkandan irəli gəlir. Aktiv sosial həyat tərzinə mənsub amerikalı müsəlman qadın, itaətkar, məzlum, ərinin dediyini qeyri-şərtsiz qəbul edən Şərq müsəlman qadını kimi düşünüb hərəkət etməyəcəkdir. Ən azı bu ölkədə (ABŞ) dinlə dövlət eyni qanunları vermir, din ayrı, dövlət ayrı. ABŞ-dakı müsəlman qadınının haqqını qoruyan güclü bir dövlət var, lakin Əfqanıstanda dövlətə qanunu din diktə edir. Ona görə İslam dininə mənsub olan qadınlar haqqında konkret, birmənalı fikir yürütmək absurddur. Bu zaman qadınların yaşadıqları mühitin bütün elementləri – iqtisadi, sosial, siyasi, mənəvi amilləri nəzərimizdən qaçmamalıdır. Dediyimiz kimi, Avropa və Amerika ölkələrində yaşayan müsəlman qadının yaşam tərzi ilə ərəb ölkələrində yaşayan müsəlman qadının yaşam tərzi arasında böyük fərq vardır. 1970-ci illərdə ayrı-ayrı ölkələrin mədəni ənənələri zəminində İslam sivilizasiyasında mövcud gender stereotiplərini əks etdirən qadınların İslam hərəkatı baş qaldırdı. Müsəlman feministlərinin əksəriyyəti müqəddəs kitaba tənqidi yanaşmanın əleyhinədirlər, elə bu səbəbdən də onlar çox ehtiyatla Quranın oxunub-anlaşılması üçün yeni yollar axtarırlar. Feminist alimlərə görə İslam aləmi əgər belə demək mümkündürsə «yaranışından genderləşdirilmişdir». İslam dinində qadına olan münasibət kateqorikdir, hərtərəfli ailə-nikah münasibətlərinə köklənmişdir. İslamşünasların gender bərabərliyi ilə bağlı məsələlərdə aşağıdakı fikirləri xüsusi maraq kəsb edir. Qadın kişi ilə nikah bağlamaqda və boşanmaqda bərabərdir. Lakin müsəlman ailələrində mövcud olan

poliqamiya bizi bunun əksini fikirləşməyə vadar edir. Nikahda olan ərli qadın bunun əksinə çıxarsa hansı çətinliklərlə üzləşər? Seksist ənənələrlə mübarizə aparmaq feministlərin əsas məqsədidir. Bunlardan ən əsası bu gün də həyata keçirilən qadın sünnətidir (bu, Misir, Sudan, Somali, Efiopiya və s. Afrika ölkələrində həyata keçirilir). Düzdür, bu müasir İslam ölkələrinin əksəriyyətində yerinə yetirilməsə də, acınacaqlı haldır ki, sünnət etməklə patriarxal İslam dünyasında guya qadının təmiz qalması sığorta edilir, onun seksual həvəsi azaldılır və ailənin şərəfi ömürlük qorunur. Müsəlman feministlərin əksəriyyəti Quranda qadına qarşı təsadüf edilən diskriminasiyanı nəinki təkzib etmirlər, əksinə, qadınlara qarşı diskriminasiyanı aradan qaldırmaq üçün yollar axtarırlar. Misir, Tunis, Suriya, Sudan, Efiopiya, Keniya, Tanzaniya, CAR və digər əhalisinin çox hissəsini müsəlmanlar təşkil edən ölkələrdə hələ də qadınların sünnət olunması kimi dəhşətli hallar dövrümüz üçün vəhşilik kimi görünə bilər (Mən bunu ilk dəfə eşidəndə bir neçə gün özümə gələ bilmədim). Bu ölkələrdə müsəlman qadının qadınlıq statusu nəsil artırmaqdan başqa bir funksiya üçün nəzərdə tutulmamışdır. Elə bu səbəbdən də, İslamda qadın geyimi ən önəmli məqamlardan biridir. İslamın əxlaq kodeksində qadının əxlaqlı, təvazökar davranışına böyük önəm verilir. Əsl müsəlman qadını (Tafsir: Quran, 24: 31-32) bədən quruluşunu açıq əks etdirən, kişiləri cəzb edən geyimlərdən qaçmalıdırlar. Qadın nə gözəlliyini, nə cazibədarlığını, nə də bəzək-düzəyini göstərməməli, sinəsinə qədər başı-qulağı örtülməklə bacardığı qədər çox qapanmalıdır. İslamda müasir dövrdə belə ideal qadın geyimləri aşağıdakı kimidirsə, məqbul hesab edilir: *üz, iki əl və ayaqlar, topuqdan aşağı istisna olmaqla, bədəninin bütün yerlərini örtməlidir; *bədənin formasını bəlli edəcək dar paltarlar geyinməməlidir; *nəzəri cəlb edəcək dərəcədə kosmetikadan istifadə etməməlidir; *başqalarının diqqətini cəlb edəcək miqdarda ətriyyatdan istifadə etməməlidir; *kişilərə məxsus paltarlar geyinməməlidir və sairə. Bu tip geyim tərzi ərəb ölkələri üçün daha xarakterikdir. Bu geyimlər ölkədən-ölkəyə fərqlənir, bəzi İslam ölkələrində qadınlar təkcə başını örtüb, enli-uzun geyim geyinməklə kifayətləndikləri halda, digər İslam ölkələrində onların iki gözündən (bəzən gözlər də ipək nazik parça ilə örtülür) başqa heç bir əzaları görünməməlidir və qadınlar çadralara bürünüb gəzmək məcburiyyətindədirlər. Bəzi müsəlman ölkələrində (Türkiyə, Azərbaycan, Orta Asiya ölkələri və başqaları) müsəlman qadınların belə geyim geyinmələri onların arzuları əsasında həyata keçirilir. Bu tip geyimlərə Türkiyədə daha çox təsadüf edilir. Qadınları başdan-ayağa bürünməyə məcbur edən bu ayələri oxuyarkən mənim ağlıma müsəlman kişilərin iradələrinin zəif olmasından qeyri bir fikir gəlmir. Zənnimcə, əsil müsəlman kişi nəfsinə hakim olmağı bacaranlardır, bundan sığortalana bilməyənlər öz nəfslərinə hakim kəsilmək əvəzinə, qadınlara bürünməyi tövsiyyə edirlər. Təəssüf ki, Quranı oxuyanlar bəzən orada yazılanları misinterpretasiya edirlər və onu özlərinə sərf edəcək şəkildə insanlara təqdim edirlər. Din adı altında qadınlara qarşı yönəldilən təzyiqdən klassik Azərbaycan ədəbiyyatında yetərli qədər bəhs edilmişdir. Hələ XX əsrin əvvələrində Cəlil Məmmədquluzadə qadınların üz örtməyinin şəriətlə heç

bir əlaqəsinin olmaması barədə belə yazırdı: Ey Peyğəmbər, öz arvadlarına, qızlarına və möminlərin arvadlarına de ki, üst örtüləri ilə bədənlərini örtsünlər və bu vasitə ilə kənizlərdən ayrılıb hürr olduqlarını bildirsinlər, ta ki onları kəniz zənn edib sataşmasınlar. Buyur, guya üz açmağı haram edən ayə və dəlillərin ən möhkəmləri! Halbuki həmin birinci ayədəki «ila ma zəhərə minha» fərmanı ilə haqq-təala üz açmağı cayiz buyurur. Bu ayələrin heç birində bir xırda da əmr olunmur ki, arvadlar üzlərini qapasınlar. Hər kəs desə ki biz övrətlərimizin üzüaçıq gəzməyinə ondan ötrü razı olmuruq ki, xilafi-şəriaətdir – yəqin ki yalan deyir». Əvvələn heç bir müsəlman indiyədək bu xüsusda özünə zəhmət verib bu məsələni əsl üləmadan söruşub öyrənməyib və bəlkə çox müsəlmanlar soruşub biliblər ki, övrətin üzüaçıq gəzməyi şəriətə xilaf deyil. Bəli, üz açmaq xilafi-şəriət deyil. Çünki biz Quranda üz açmağı qədəğən və haram edən açıq bir ayə və işarə görmürük. (Cəlil Məmmədquluzadə, 1907). Şəriət adı altında qadınları evdə oturmağa məcbur edib və onları özlərinə qul, kəniz, aşpaz, fəhlə və oyun-oyuncaq edən kişilərə Cəlil Məmmədquluzadə üzünü tutub deyib ki, bu ixtiyarı kimsə onlara verməmişdir. Bunu nadanlıqla əlaqələndirən Cəlil Məmmədquluzadə işlərin çarəsini balaca qızları məktəbə qoyub oxutmaqda görür və dahi mütəfəkkir valideynlərə qızlarını elmli və tərbiyəli etməyi məsləhət görür. Cəlil Məmmədquluzadəyə görə yalnız təhsilli qız öz qədrini bilər. İslamda qadınların da kişilər qədər hüququ olduğunu iddia edənlər və hətta onların bərabər olduqlarını da söyləyənlər az deyil. Lakin Quranı oxuyurkən qadınlarla kişilərin hüquqları arasında kifayət qədər fərqin şahidi oluruq. Şəriətdə qadın və kişilər arasında fərqliliyi üzə çıxaran bir neçə məqamları diqqətinizə çatdıraq: Allah buyurur: «Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər» (Nisa, 34). «Kişilər qadınlar üzərində himayəçidirlər», bu, o deməkdir ki, kişilər qadınlar üzərində rəhbərdirlər, ağadırlar, hökmdardırlar, yəni ki, ağlından, elmindən, bacarığından asılı olmayaraq onlar ailənin başçısıdır, onlara yol göstərəndir, qadınları nizama cəlb edəndir, tərbiyə verəndirlər. Bunun səbəbini aşağıdakı kimi izah edirlər. Çünki Allah onlardan birini digəri üzərində üstün etmişdir, çünki kişilər qadınlardan üstündürlər və onlardan daha yaxşıdırlar. Həmçinin, «öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər» ayəsində nəzərdə tutulan xərclər, mehr və qadınların yedizdirilməsi, geyindirilməsi, onlara baxılması və digər amillər də bura daxil edilir. Hətta Peyğəmbərlik ancaq kişilərə verilmişdir, xəlifələr də kişilərdən olmuşdur. Hətta Peyğəmbərimizin dilindən belə yazmışlar: «Heç bir millət müvəffəqiyyətə uğramayacaq əgər onlar qadınlarını öz işlərinin üzərində hakim təyin etsələr» (Səhih Buxari 4425). Ümumiyyətlə, qadının hər hansı bir rəhbər işdə işləməsi şəriətə görə qadağandır. Qadınla kişinin fərqini daha qabarıq göstərməkdən ötrü qadını hətta kafirlə, korla, ağılsızlarla müqayisə etmişlər. «Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə kafirlə eynidirmi? Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq ağıl sahibləri düşünüb ibrət alarlar» (Zümər, 9). «Korla görən eyni ola bilərmi?

Yaxud zülmətlə nur eyni ola bilərmi?» (ər-Rəd, 16) Bəzi müasir İslam alimlərinə görə qadınlarla kişilər arasında bərabərlikdən söhbət belə gedə bilməz, çünki bu bərabərlik ədalətsizliyə də gətirib çıxara bilər. Bəzi ilahiyyatçılara görə Quran qadınlara kişilərdən fərqli geyinməyi ona görə əmr edir ki, qadınların fitnəsi kişilərin fitnəsindən daha çoxdur, elə bu səbəbdən də qadınlar kişilərdən fərqli geyinməlidir. Kişilərin göstərilməsi icazəli olmayan yerlərini qadınların göstərməsi heç bir məntiqə uymur, çünki bu həqiqətdir ki, qadınların bədəninin fitnəsi kişilərin bədəninin fitnəsindən daha çoxdur. Bunları əlində əsas tutan ilahiyyatçılar hesab edirlər ki, İslam bərabərlik dini yox, ədalət dinidir, çünki bu din hər iki cinsin haqlarını fərqli də olsa, ədalətli şəkildə vermişdir. Quranda qeyd olunur ki, bir kişinin şahidliyi iki qadının şahidliyinə bərabərdir: «Əgər iki kişi olmazsa, razı olduğunuz şahidlərdən bir kişi və iki qadını şahid tutun ki, qadınlardan biri unutduqda, o birisi onun yadına salsın» (Bəqərə, 282). Buradan belə nəticə çıxarmaq olar ki, dünyada elmli qadının, dərrakəsiz kişinin mövcudluğu qeyri-mümkündür. Buna bizi kimsə inandıra bilməz. Kişilərin üstünlüyü ilə bağlı digər bir misal miras payının bölünməsinə dair olan misaldır. Miras payında bir kişiyə iki qadının payı qədər pay düşür. Allah buyurur: «Allah övladlarınız haqqında sizə belə tövsiyə edir; kişiyə, iki qadının payı qədər pay düşür» (Nisa, 11). İzahına dair mükəmməl, tutarlı arqumentlər tapa bilməyən ilahiyyatçılar bunu aşağıdakı kimi izah edirlər: «Çünki Allah bilir onlar üçün nə yaxşıdır. O, bu mirası onların fərqli olduğuna görə belə bölmüşdür» (Təfsir əl-Qurtubi, 5/164). Kişi eyni zamanda dörd qadınla evlənə bilər, lakin qadının eyni zamanda ancaq bir əri ola bilər. Tibbi nöqteyi-nəzərdən nə qədər fəsadlar ola bilməsi məsələsini kənara qoyub, başqa məqamları nəzərinizə çatdırmaq istərdim. Hansı özünə hörmət edən qadın həyat yoldaşını başqa bir qadınla bölüşə bilər? Digər bir misalda deyilir: «Kişilər Əhli kitabdan olan ismətli qadınlarla evlənə bilərlər, lakin qadınlar müsəlman kişidən başqa heç bir kişi ilə evlənə bilməzlər, qadağandır». Əsası olmayan qadağaların yerinə yetirilməsi çox çətin olur. Vaxtın çox dəyərli olduğu bir zamanda bu heç ağla batmır. «Kişilər məhrəmsiz, yanında zövcəsi olmadan səfərə çıxa bilərlər, lakin qadınlar məhrəmsiz səfərə çıxa bilməzlər, qadağandır». Müasir həyatımızın yaşamaq ahəngi ilə ayaqlaşmayan bu misal bir işdən ötrü iki adamın vaxt sərf etməsi, vaxt dəyərinin önəmsiməməsindən başqa bir şey deyil. Ya qadının işindən ötrü onun əri də karyerasını yarımçıq qoyub onunla getməlidir, ya da bu mümkün deyilsə, qadın da karyerasından vaz keçməlidir. Ümumiyyətlə, kişilər qadınların bir yerə toplanmasından hər zaman çəkinmişlər. Qadınların birləşib güclü ola bilmə ehtimalı, qadınların bir yerə yığılıb kişilərin bəzi gizli məqamlarından xəbər tuta bilmə imkanları kişiləri hər zaman təşvişə salmışdır. «Məsciddə namaz qılmaq kişilər üçün vacibdir, lakin qadınlar üçün vacib deyil, əksinə, qadınlar üçün ən yaxşı yer onların evidir». «Cihad kişilər üçün vacibdir, lakin döyüş cihadı qadınlar üçün vacib deyil. Bu, Allahın qadınlara verdiyi nemətdir və bu, onların təbiətindən irəli gəlir».

## Mövzu 13. BMT-nin gender problemi məsələsinə dair araşdırmaları

**GENDER BƏRABƏRLİYİNİN TƏMİNİ ÜÇÜN HÜQUQİ BAZA**

“Gender bərabərliyi” hüquqi anlayışdır. Hüquqi mühit cinslərarası bərabərliyi qoruyur və ayrıseçkiliyin bütün formalarını qadağan edir. Hüquqi mühit dedikdə qanunvericilik normalarının bütünü nəzərdə tutulur: burada ratifikasiya edilmiş beynəlxalq sənədlər, Konstitusiya, qanunlar, fərmanlar və bütün digər tənzimləyici aktlar əhatə olunur . Lakin, bərabərlik sadəcə hüquqla deyil, əxlqla da qorunan və gözlənilən tələbdir. Buna görə də, institusional gender bərabərliyi çərçivəsinin tərkib hissəsi kimi ən mühüm sənədlərdən biri Avropa Şurasının dəstəyi ilə 2018-ci ilin 1 noyabrında Jurnalistlər üçün Peşəkar Etika Məcəlləsinin (JPEM) qəbul edilməsi olmuşdur. İnsanlar cins, irq, din, dil, sosial qrup, bölgə fərqliliyinə baxmayaraq, hamısı əxlaqi dəyərlərə sahibdirlər. Tarix boyu bərabərlik prinsipinin mənimsənilməsi və cinslərarası bərabərliyin hüquq sisteminə gətirilməsi asan olmayıb. Əsrlər boyu fərqli dinlərə, fərqli millətlərə mənsub toplumların hər birində qadın-kişi bərabərliyi məsələsində problemlər mövcud olub. Mülkiyyət hüquqlarının, miras hüquqlarının, azadlıq hüququnun, yaxud siyasi hüquqların tətbiqi zamanı bu fərqləndirmə daha qabarıq şəkildə önə çıxıb. Əksər toplumlarda qadınlar təməl hüquqların bir çoxundan məhrum ediliblər. Bu proses 20-ci əsrin əvvəllərinə, hətta bəzi yerlərdə daha sonralaradək davam edib.

GENDER BƏRABƏRLİYİ ÜZRƏ BEYNƏLXALQ TƏNZİMLƏYİCİ ÇƏRÇİVƏ

Azərbaycan 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatına, 2001-ci ildə isə Avropa Şurasına üzv olmuşdur. Müstəqillik qazandıqdan və beynəlxalq dövlətlərarası təşkilatlara qoşulduqdan sonra Azərbaycan Respublikası milli qanunvericliyini qoşulduğu beynəlxalq təşkilatların sənədləri və rəhbər prinsiplərini nəzərə alaraq

formalaşdırır. Bu mənada gender bərabərliyi sahəsində qanunvericilik də istisna deyildir. Gender bərabərliyi hüquqi anlayış kimi müxtəlif beynəlxalq sənədlər vasitəsilə önə çıxdığından, Birləşmiş Millətlər Təşkilatı və Avropa Şurasının qəbul etdiyi standartların ölkədə tətbiq edilməsi çox önəmlidir. Beynəlxalq təşkilatların çətiri altında gender bərabərliyinin təminatı üçün çoxsaylı beynəlxalq təşəbbüslər və standartlara düzəlişlər edilmişdir. Mediada gender bərabərliyinə müvafiq ən mühüm beynəlxalq standartlar bu Fəsildə təsvir olunur.. Birləşmiş Millətlər Təşkilatının sənədləri Azərbaycan Respublikası 1992-ci ildən bəri Birləşmiş Millətlər Təşkilatının bərabərhüquqlu tərəfdaşı olmuş və BMT sənədlərinə qoşulmaqda maraqlı olmuşdur. Belə fundamental sənədlərdən biri də Vətəndaş və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktdır. Pakt BMT-nın Baş Assambleyasının 1966-cı il 16 dekabr tarixli və 2200 (XXI) saylı Qətnaməsi ilə qəbul olunmuşdur. BMT-yə üzv olduqdan sonra Azərbaycan Respublikası qanunla bu Paktı ratifikasiya etmiş və sənəd qüvvəyə minmişdir. Paktda gender bərabərliyini təşviq və gender diskriminasiyasını qadağan edən normaları əhatə edən bir neçə maddəyə rast gəlmək olar. 2-ci Maddədə deyilir:

*Hər bir tərəfdaş dövlət öz ərazisində bütün şəxslərin irqi, rəngi, cinsi, dili, dini, siyasi və ya digər baxışları, milli və ya sosial mənşəyi, əmlakı, doğum və ya digər statusundan asılı olmayaraq bu Paktla tanınan hüquqlarına hörmət edir və bu hüquqları təmin etməyə öhdəlik verir. Mövcud qanunvericilik və ya digər tədbirlərlə təmin edilmədiyi halda, hər bir tərəfdaş dövlət öz konstitusiya prinsiplərinə və hazırkı Paktın müddəalarına uyğun olara, bu Paktda tanınan hüquqları qüvvəyə mindirmək üçün zəruri olan addımları atır, qanunvericiliyini uyğunlaşdırır.*

Sazişin 26-cı Maddəsində qeyd edilir ki, "*bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrıseçkilik olmadan qanunla bərabər müdafiə olunmaq*

*hüququna malikdirlər. Bu mənada, qanun hər hansı ayrı-seçkiliyi qadağan edir; bütün şəxslərə irqi, rəngi, cinsi, dili, dini, siyasi və ya digər baxışları, milli və sosial mənşəyi, əmlakı, doğum və ya digər status kimi hər hansı əsasda diskriminasiya əleyhinə bərabər və effektiv müdafiəni təmin edir."*

"İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı Saziş" BMT Baş Assambleyanın 1949-cu il 2 dekabr tarixli 317 (IV) saylı Qətnaməsi ilə qəbul olunmuş, 24-cü Maddəyə əsasən, 1951-ci il 25 iyul tarixində qüvvəyə minmişdir. Saziş insan alverinə və qadınlarla mal kimi davranılmasına səbəb olmuş fahişəliyin qarşısının alınmasına yönəlmişdir. BMT-nın Qadınlar əleyhinə Bütün Diskriminasiya Formalarının Ləğv edilməsi haqqında Konvensiyası (CEDAW) gender bərabərliyinin cəmiyyətlərdə təşviqi baxımından xüsusi əhəmiyyət daşıyır. Çox vaxt "Qadın Konvensiyası" adlanan bu beynəlxalq konvensiya BMT-nın Baş Assambleyası tərəfindən 1979-cu il 18 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 30 iyun tarixli 1074 saylı Qərarı ilə ratifikasiya edilmişdir. Konvensiyada evlilik statusu, siyasi, iqtisadi, sosial, mədəni status və ya yanaşmalarından asılı olmayaraq, qadınlar və kişilər arasında bərabər hüquqların olması faktı təsbit edilir. Konvensiyanın tərəfdaş dövlətləri qadınlar əleyhinə bütün diskriminasiya formalarının ləğv edilməsi üçün hüquqi, siyasi və proqramatik tədbirlərin görülməsi yönündə öhdəlik götürürlər. Bu öhdəliklər hər hansı şəxs, təşkilat və təsisat tərəfindən nigah, ailə münasibətləri daxil olmaqla, həyatın bütün sahələrində qadınlar əlehinə diskriminasiyanın aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini təklif edir. Media müasir cəmiyyətlərdə sosial dəyişikliyin təşviq edilməsi baxımından böyük potensiala malikdir. Birləşmiş Millətlər Təşkilatının Qadınlara dair dördüncü Dünya Konfransında (Pekin, 1995) qadınların

fundamental hüquq və azadlıqlarının müdafiəsi, gender bərabərliynin təbliği, eləcə də, onların inkişafına töhfə verməkdə medianın potensialı vurğulanır. Bu məqsədlə, 2012-ci ildə UNESCO “Media üçün Gender Həssaslı Göstəricilər”i dərc etdi (GSIM)20 . 2001-ci ilin 16 fevral tarixində Azərbaycan Respublikası Qadınlar Əleyhinə Diskriminasiyanın Bütün Formalarının Ləğv edilməsinə dair BMT Konvensiyasının Könüllü Protokolu barədə Qanunu qəbul etdi. Könüllü Protokolun üstünlüyü ondadır ki, Üzv Dövlətlər bu sənədə əsasən, bəlli müddətlərdə dövrü hesabatlarını müvafiq BMT Komitəsinə təqdim etməlidirlər. Azərbaycanın beşinci dövrü hesabatı 2015-ci ildə təqdim edilmişdir. Hesabata əsasən, CEDAW Komitəsi Azərbaycan Hökumətinə qadın hüquqlarının təşviqi üçün bir sıra mühüm addımların atılmasını tövsiyə etmişdir. Bu addımlara yeni doğulanlar arasında oğlan uşaqlarına üstünlüyün verilməsinin ləğvi üzrə Tədbirlər Planı; məişət zorakılığın qarşısının alınması üzrə Milli Strategiya və Milli Fəaliyyət Planının qəbulu, eləcə də, Avropa Şurasının sənədlərinin ratifikasiyası üçün vaxt müddətinin təyin edilməsi daxildir. Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması, onunla mübarizə haqqında Avropa Şurasının Konvensiyası (2011-İstanbul Konvensiyası)21 . Konvensiyanın ratifikasiyasından bir il sonra Ölkələr öz ilk mlli hesabatlarını, sazişdən yaranan öhdəliklərə dair icra etdikləri tədbirləri barədə növbəti dörd illik dövrü hesabatlarını təqdim edirlər. Azərbaycan Hökuməti özünün altıncı dövrü hesabatını 2019-cu ilin martında təqdm etmişdir. Avropa Şurasının sənədləri Avropa İnsan Hüquqları Konvensiyası Avropa Şurasının 47 üzv dövlətinin hər birndə insan hüquqları üzrə təməl sənəddir. Sənəd Azərbaycanda 2001-ci ildə ratifikasiya edilmişdir22 . Konvensiyanın 14-cü Maddəsi gender bərabərliyini əhatə edir. Diskriminasiyanın qadağan edilməsi prinsipində deyilir: “Bu Konvensiyada təsbit edilən hüquq və azadlıqlar cinsi, irqi, rəngi, dili, dini, siyasi və digər baxışları, milli və ya sosial mənşəyi, milli azlıqlarla əlaqə, əmlak,

doğum və bu kimi hər hansı digər əsaslarda diskriminasiya edilmədən təmin olunmalıdır" Bərabərliyi pozan digər boşluqlar kimi, gender əsaslı diskriminasiya da insan hüquqları və azadlıqlarının azad şəkildə həyata keçirilməsinin ayrıca faktoru olmamalıdır. Konvensiyada birabaşa təsbit olunmayan, lakin əlavə protokollarla müdafiə olunan hüquqlar da əhatə olunur. Belə Protokollardan birinə diskriminasiyanın ümumi qadağası üzrə 12 saylı Protokolun 1-ci Maddəsi də daxildir. Orada deyilir: "Qanunla təsbit edilən hər hansı hüququn həyata keçirilməsi cinsi, irqi, rəngi, dili, dini, siyasi və ya digər baxışları, milli və ya sosial mənşəyi, milli azlıqlarla əlaqə, əmlak, doğum və ya digər status25 kimi hər hansı əsasda diskriminasiya edilmədən təmin edilməlidir". Daha sonra əlavə olunur ki, "heç kim 1-ci bənddə 26 qeyd olunan hər hansı əsasda heç bir dövlət orqanı tərəfindən diskriminasiya edilməməlidir". 12 saylı Protokolda işıqlandırılan əsas bənd budur ki, heç kim hər hansı dövlət orqanı tərəfindən diskriminasiya edilməməlidir. Protokol Azərbaycan hökuməti tərəfindən 2003-cü il 12 noyabr tarixində imzalanmışdır. Avropa İnsan Hüquqları Konvensiyası və onun əlavə Protokollarının tənzimləmələrinin başqa önəmi bu hüquqların qorunmasının məhkəmə təminatı altında olmasıdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensional hüquqların qorumasına nəzarət edir. Azərbaycan Respublikası da 15 aprel 2002-ci ildən etibarən bu məhkəmənin yuridiksiyasını qəbul edib. Ölkədə Ali Məhkəmənin qərarları qəbul edildikdən sonra 6 ay içərisində Avropa Məhkəməsinə göndərilə bilir. Avropa Məhkəməsinin təməl hüquq və azadlıqlar, o cümlədən gender bərabərliyi ilə bağlı, cinsi ayrı-seçkiliyin yolverilməzliyi prinsipinin pozulması ilə bağlı qərarları mütləqdir və icrası məcburidir. Gender bərabərliyi baxımından Avropa Şurasının əsas sənədləri ilə bərabər, sistemli şəkildə yeni normalar, qaydalar, tövsiyələr də qəbul edilib. Xüsusilə, Avropa Şurası Nazirlər Komitəsinin çoxsaylı qərar və tövsiyələri gender bərabərliyinin tətbiqini təşviq edir.

1980-ci illər ərzində Avropa Şurasında bu istiqamətdə bir neçə lokal əhəmiyyətli addımlar atılmışdır. Daha sonra Avropa Şurasının Katibliyində qadınların vəziyyəti haqqında və siyasətdə qadın haqqında sənədlər ardıcıl təsdiqlənmişdir. Bu addımla Avropa Şurası öz strukturlarında qadın-kişi bərabərliyini təmin etmək baxımından nümunə olmuşdur. Avropa Şurasının 1984-cü ildə qəbul etdiyi "Mediada Qadınlar və Kişilər arasında Bərabərlik" haqqında (Rec-84) 17 saylı Tövsiyəsi28 təklif edir ki, media təşkilatları "xüsusilə qərarvermə və texniki xidmət sahəsində qadınların vəziyyətinin yaxşılaşdırılması üçün müsbət fəaliyyət proqramlarını" qəbul etməyə həvəsləndirilməlidirlər". "Media sahəsində qadınların işə cəlb olunması, təlimi, ödənişi, vəzifədə irəli çəkilməsi yönündə proqramlar icra edilməli, məşğulluq şəraitində qadınlarla kişilər arasında" bərabərlik təmin olunmalıdır". Qadınlar "media rəhbərlik orqanlarında bərabər təmsilçiliyə", eləcə də, media tərəfindən yayımlanan müzakirələrdə iştirak etməyə" həvəsləndirilməlidirlər. Dövlət qurumları mediada sponsorluq edilən kampaniyalarında "mal və ya xidmətlərə diqqəti cəlb etmək üçün qadın və kişilərin bədənlərinin hər hansı formada stereotipləşdirilməsindən" çəkinməlidirlər. 1986-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən "Qadın və kişilərin bərabərliyi haqqında» 855 (1986) saylı Qətnamə qəbul edilmişdir. "Qadınlar və kişilərin bərabərliyi" haqqında 1018 (1994) saylı Qətnamə isə Parlament Assambleyası tərəfindən 1994-cü ildə qəbul edilmişdir. Bu Qətnamə 1996-cı ildə qəbul edilmiş "Avropa Şurasının Parlament Assambleyasında qadınların təmsil olunmasının genişlənməsinə dair Qətnamə" ilə müşayiət olunmuşdur. Burada da Avropa Şurasının komitələri və digər orqanlarında qadınlar və kişilərin bərabər təmsil olunması prinsipləri təsbit olunur. Avropa Şurası öz strukturlarında qadınlar və kişilərin bərabərliyinin təmin edilməsinin nümunəsi olmuşdur. Siyasi və ictimai qərarvermədə qadınlarla kişilərin tarazlı iştirakına dair CM/Rec(2003)3 saylı Tövsiyə

media prosesinin bütün mərhələlərində qadınların bərabər iştirakına, idarəetmə, proqramlaşdırma, təhsil, təlim, tədqiqat və tənzimləyici orqanlar daxil olmaqla, media sahəsinin qərarvermə proseslərində tarazlı iştirakı" təşviq etməyə çağırır. Avropa Şurası İnsan Alverinə qarşı Fəaliyyətə dair Konvensiyanı 2005-ci ildə qəbul etmişdir. Amma illər keçsə də, sənədlər qəbul edilsə də, bəzi problemlərin davam etdiyi danılmazdır. Bu səbəbdən, 2011-ci ildə qısa adı İstanbul Konvensiyası deyilən Avropa Şurasının «Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyası" qəbul edilmişdir. Bu Konvensiya Azərbaycan tərəfindən hələlik nə imzalanmamış, nə də ratifikasiya edilməmişdir. Lakin, sənədin ratifikasiyası digər beynəlxalq qurum olan BMT-nin Dövri Hesabatlarında atılmalı olan addım kimi hökumətə tövsiyə edilmişdir. 2007-ci il Avropa Şurası üçün bu mövzu ilə bağlı məhsuldar il olmuşdur. İctimai mediada gender bərabərliyə dair yeni vəzifələri təqdim etməklə iki tövsiyə qəbul olunmuşdur. Media pluralizmi və media məzmununun müxtəlifliyinə dair Rec(2007)2 saylı Tövsiyədə və informasiya cəmiyyətində ictimai xidmət mediasına dair CM/Rec(2007)3 saylı Tövsiyədə- hər ikisində deyilir ki, ictimai xidmət mediası "bütün icmaların, sosial qrupların və nəsillərin müxtəlif fərdi ehtiyaclarına hörmət etmək onların sosial bütövlüyünü, inteqrasiyasını təşviq etməkdə fəal roy oynamalıdırlar". Bu mənada belə qrupların ictimai xidmət mediasında çıxışlarına, mövcudluğuna və təsvirinə diqqət yetirilməlidir."

Avropa Şurasının gender bərabərliyi üzrə ən son sənədi olan Gender Bərabərliyi Komissiyasının 2018- 2019-cu illər üzrə Fəaliyyət Planında (GEC) təsbit edilən strateji məqsədlərdən biri də, gender stereotipləri və seksizmin qarşısının alınması, ona qarşı mübarizədir. Media bu qərarın icra edilməsində mühüm rol oynamalıdır. Qeyd

olunur ki, “jurnalistlər mediada cinsi mənsubiyyəti konkret olaraq vurğulamamalıdırlar”. Seksizmin qarşısının alınması və ona qarşı mübarizə haqqında son Tövsiyə cəmiyyətin bütün sahələrində seksizmin mövcudluğunu işıqlandıran #MeToo kimi hərəkatlara cavab olaraq, 2019-cu il 27 mart tarixində qəbul edilmişdir. Bu Tövsiyə Avropa Şurasına üzv dövlətlərin hökumətlərindən tələb edir ki, “ictimai və özəl sahələrdə seksizmin qarşısının alınması, ona qarşı mübarizənin aparılmasına, proqramlar icra edilməsinə həvəsləndirmək üçün tədbirlər görülsün”, bu tövsiyənin tərcümə edilməsi və yayılması təmin edilsin, icrası ilə bağlı irəliləyişlər monitorinq edilsin. Tövsiyəyə olan Əlavədə icra tədbirləri ilə birlikdə seksizmin qarşısının alınması və ona qarşı mübarizə prinsipləri əhatə olunur. “Seksizm onlayn və ya oflayn müstəvidə ictimai və ya özəl həyatda baş verən, şəxsin cinsinə görə aşağılanması və ya ikinci dərəcəli sayılması ideyasına əsaslanan hər hansı hərəkət, jest, vizual təmsil olunma, şifahi və ya yazılı sözlər, praktika və ya davranış” kimi müəyyən olunur:

- şəxs və ya qrup şəxsin doğulma ləyaqəti və ya hüquqlarının pozulması;
- Şəxs və ya qrup şəxsə fiziki, cinsi, psixoloji və ya sosial-iqtisadi zərər, iztirab verməklə nəticələnən;
- çəkindirici, düşməncəsinə yanaşma, alçaldıcı və ya təhqiramiz mühitin yaradılması.
- Şəxs və ya qrup şəxsə onların insan hüquqlarının tam gerçəkləşdirilməsində və müstəqilliyində maneə yaratmaq;
- gender stereotiplərinin saxlanılması və möhkəmləndirilməsi.

Tövsiyə reklam, filmlər, televiziya, video oyunlar, pornoqrafik materiallar daxil olmaqla qadın, kişi, qız və oğlanların cinsi, seksuallaşdırılmış şəkildə verilmiş təsviri; qadınların fikirlərinin tarazlı müzakirəsi əvəzinə onların görünüşü, geyimi, davranışı

barədə təhqiramiz məlumatlandırma; ailə və icma daxilində qadın və kişilərin stereotipik rolda təsvir edilməsi; gender əsaslı zorakılıq qurbanları ilə münasibətdə gender stereotiplərinin təkrarlanması və saxlanılması; xüsusilə azlıq qadınlar olmaqla, müxtəlif peşəkar və informativ rollarda (ekspertlər, şərhçilər) qadınların tarazlaşdırılmamış və mənalı iştirakının olmaması şəklində "gündəlik seksizmə" dözən və əhəmiyyətsiz edən mühitə töhfə verən" elektron, print, vizual və audio olmasından asılı olmayaraq, Mediada Seksizm haqqında Qadınların Obrazı" mövzusunda Avropa Şurasının nəticələrini və tövsiyələrini əks etdirir. İyrminci əsrin sonunda qəbul edilmiş tövsiyələr "hələ də Avropa Şurası tərəfindən təşviq edilən dəyərləri təşkil edir, onlar milli qanunvericilik və özünü tənzimləyən Davranış Məcəllələrində əks etdirilməlidirlər.

Gender bərabərliyi və media üzrə ən müvafiq prinsiplərin hələ də Avropa Şurası öıkələrinin əksəriyyətində tam icra edilməsi problem olaraq qalmaqdadır. Gender bərabərliyi və media üzrə Avropa İttifaqının standartları Avropa İttifaqı gender bərabərliyi məsələsini önə çəkmişdir. Aİ Sazişinin 2-ci Maddəsində deyilir ki, "İttifaq azlıqlara mənsub şəxslərin hüquqları daxil olmaqla, insan hüquqlarına hörmət, azadlıq, demokratiya, bərabərlik, qanunun aliliyi kimi dəyərlər əsasında təsis edilir. Bu dəyərlər pluralizm, qeyridiskriminasiya, tolerantlıq, ədalət, həmrəylik, qadınlar və kişilər arasında bərabərliyin üstün tutulduğu cəmiyyətdə Üzv Dövlətləri üçün ümumidir." Avropa İttifaqı 2010-2015-ci illər üzrə qadın və kişilər arasında bərabərliyə dair Strategiya daxilində beş prioritet müəyyən edir. Bunlar aşağıdakılardır:

1. bərabər iqtisadi müstəqillik;
2. bərabər iş və bərabər işə görə bərabər ödəniş;

3. qərarvermədə bərabərlik, ləyaqət, bütövlük
4. gender əsaslı zorakılığa son;
5. digər tədbirlər və horizontal məsələlərdə gender bərabərliyi.

2016-2019-cu illər üzrə gender bərabərliyinə dair Strateji Öhdəlikdə Komissiya bu beş sahədə öz prioritetlərini bir daha təsdiq etmiş, bu məqsədlərə nail olmaq üçün qanunverici, qeyri-qanunverici və maliyələşdirmə vasitələrini təqdim etmişdir. Sonunda Avropa Komissiyası "gender bərabərliyi insan hüquqları məsələsidir.

## GENDER BƏRABƏRLİYİ VƏ MEDİA HAQQINDA AZƏRBAYCANIN HÜQUQİ ÇƏRÇİVƏSİ

Müstəqillik qazandıqdan sonra Azərbaycan tərəfdaş olduğu sənədləri və beynəlxalq təşkilatların rəhbər prinsiplərini nəzərə alaraq, milli qanunvericiliyinə düzəlişlər edir. Bu mənada gender bərabərliyi haqqında qanunvericilik də istisna deyildir. Azərbaycan Respublikasının Konstitusiyası Gender bərabərliyinin qorunması baxımından daxili hüquqda mənbələrin başında 1995-ci ildə referendum yoluyla qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası gəlir. Konstitusiyanın bərabərlik hüququnu tənzimləyən 25-ci maddəsinin 2-ci bəndi "II. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır" deməklə, gender bərabərliyini təminat altına alıb. Həmin maddənin 3-cü bəndində isə dövlətin "irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə" təminat verildiyini qeyd edir. 4-cü bənddə isə yuxarıdakı əsaslara görə heç kəsə zərər vurula bilməyəcəyi, güzəştlər və ya imtiyazlar verilə bilməyəcəyi, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməyəcəyi bildirilir. Maddənin 5-ci

bəndində isə göstərilir ki, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir. Konstitusiyanın 34-cü maddəsində nikah hüququnu tənzimləyən hissədə də gender bərabərliyinə aidyyatı olan məsələyə toxunulmuş, tərəflərin nikahda bərabərliyinə vurğu edilmiş, nikahın könüllü olduğu, heç kəsin zorla evləndirilə (ərə verilə) bilməyəcəyi qeyd edilmişdir. 34-cü Maddənin 2-ci bəndində ər ilə arvadın hüquqlarının bərabər olduğu, uşaqlara qayğı göstərməyin, onları tərbiyə etməyin valideynlərin hər ikisinin həm hüququ, həm də borcu olduğu bildirilmişdir. Bununla da ənənəvi olaraq stereotip halına gələn ailədə iş bölgüsü, uşaqların qayğısının və tərbiyəsinin əsasən analara yükləndiyi durumun əslində hüquqi baxımdan qəbuledilməz olduğu vurğulanmışdır. Gender bərabərliyinin təminatı haqqında qanun Konstitusiyada cinslərarası bərabərliyin təminat altına alınması daxili qanunvericiliyin formalaşmasına da istiqamət vermişdir. 10 oktyabr 2006-cı il tarixdə Azərbaycan Respublikası MİIlli Məclisi Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbuledib.64 Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Qanunda gender bərabərliyinə aidiyyatı olan müxtəlif anlayışlara yer verilib və onların əhatə dairəsi aydınlaşdırılıb:

- Gender bərabərliyi

- qadın və kişilərin hüquq bərabərliyini, bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanları, onların cəmiyyətdə bərabər sosial vəziyyətini ifadə edir;

- Bərabər imkanlar - insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradılan bərabər şərait və təminatları nəzərdə tutur;

- Cinsi mənsubiyyətə görə ayrı-seçkilik

- seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük kimi xarakterizə edilir;

- Seksual qısnama - əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan, təhqir edən, başqa cinsə və ya seksual yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış olaraq izah edilib.

Qanuna əsasən, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formaları, o cümlədən seksual qısnama qadağandır. Lakin, qanunlarda bəzi pozitiv diskriminasiya əlamətləri də vardırlar. Hansıki, bunlar ayrı-seçkilik hesab olunmurlar və gender bərabərliyinin ölkədə təmin olunması yolunu açan məqamlar kimi tanınırlar. Məsələn: - Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə qadınlar üçün müəyyən edilmiş güzəştlər, imtiyazlar və əlavə təminatlar; - kişilər üçün həqiqi hərbi (alternativ) xidmətə çağırış; kişi və qadınlar üçün qanunla müəyyənləşdirilmiş fərqli pensiya və nikah yaşı; - Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 15-ci maddəsində nəzərdə tutulan arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ərin nikaha xitam verilməsi barədə iddia qaldırmasının məhdudlaşdırılması; - kişi və qadınlar üçün cəzaçəkmə müəssisələrində fərqli şəraitin yaradılması; - gender bərabərliyinin təmin edilməsi məqsədilə xüsusi tədbirlərin həyata keçirilməsipozotiv ayrıseçkilik olaraq qəbul edilməkdə və gender bərabərliyini pozmamaqdadırlar. Qanunda gender bərabərliyinin təmin edilməsində dövlətin

vəzifələri də göstərilmişdir. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilər ilə qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi üçün dövlət tədbirlər görməlidir. Qanunda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılmasında işəgötürənin vəzifələri sayılmış, işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığı keçdiyi və əlavə təhsil aldığı zaman, işin keyfiyyətini qiymətləndirərkən, işdən azad edərkən cinsindən asılı olmayaraq, işçilərə eyni yanaşmaq və bərabər imkanlar yaratmaq, cinsindən asılı olmayaraq, eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, cinsindən asılı olmayaraq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq işəgütürənin vəzifəsidir. O, cinsindən asılı olmayaraq bir iş yerində işləyən, eyni ixtisas dərəcəsinə malik olan, eyni iş şəraitində işləyən, eyni dəyərli işi yerinə yetirən işçilərə əməkhaqqı, həmçinin mükafatlar və işçini həvəsləndirmək məqsədilə ödənilən digər maddi ödənişləri eyni miqdarda ödəməlidir. Əməkhaqqı, mükafatlar və işçini həvəsləndirmək məqsədilə ödənilən digər maddi ödənişlər müxtəlif olduqda, işçinin tələbi ilə işəgötürən əməkhaqqındakı fərqin işçinin cinsi mənsubiyyəti ilə əlaqədar olmadığını əsaslandırmalıdır. Seksual qısnamaya məruz qalmış işçilərə qarşı hər hansı təzyiq yolverilməzdir. Gender bərabərliyinin təminatı haqqında Qanunun 17-ci maddəsinə əsasən, seksual qısnamaya məruz qalmış işçilərə işəgötürən tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada zərər ödənilir. Bundan əlavə, işə qəbul haqqında elanlarda kişi və qadınlara fərqli tələblərin irəli sürülməsinə, hər hansı cinsin nümayəndələrinə üstünlük verilməsinə, iş axtaranın ailə vəziyyəti və ya şəxsi həyatı barədə məlumatlar sorğusuna yol verilmir. Məsələn, hamilə olub-olmaması, yaxın bir zamanda evlilik planlaması edib-etməməsi və s. kimi

sorular verilə bilməz. Elanlarda alçaldıcı məzmunlu, kişi və qadınların hüquq bərabərliyi prinsipinə zidd olan ifadələrin dərc edilməsi qadağandır. Yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsinə də yolverilmir. Bunun tək istisnası əmək funksiyalarının xüsusiyyətlərinə görə işçinin cinsi müəyyənedici şərtinin olması və ya həmin işlərə əmək məcəlləsinə əsasən qadın əməyinin tətbiqinin qadağan edilməsidir. Məsələn "yanlız gənc qızlar müsabiqəyə qatıla bilər"- kimi elanın yayılması yolverilməzdir. Təhsil hüququnun həyata keçirilməsində bərabər imkanlar yaratmaq da qanuna əsasən, dövlətin vəzifələri arasındadır. İşəgötürən kişi və qadınlara əsas və əlavə təhsil almaq, təhsillə bağlı məzuniyyət hüququndan istifadə etmək üçün bərabər şərait yaratmalıdır. Dövlət mülkiyyət növündən asılı olmayaraq, bütün təhsil müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində kişi və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin etməlidir. Gener bərabərliyinin cəmiyyətdə tam formalaşması, həm də tədris prosesindən, tədrisin keyfiyyətindən aslıdır. Odur ki, dərsliklər gender bərabərliyi prinsipinə əsaslanmalı, gender bərabərliyini açıq-aşkar pozan və ya şüur altına xitab edən stereotiplərin dərslklərə girməməsinə diqqət edilməlidir. Bütün dərsliklər gender bərabərliyi süzgəcindən keçirilərsə, bu məsələdə sürətli nəticələr əldə etmək olar. Gender bərabərliyinin təminatı haqqında Qanuna əsasən, qəbul zamanı, tədris planı tərtib olunarkən və ya biliyin qiymətləndirilməsi zamanı kişi və qadınlara qarşı fərqli tələblərin tətbiq edilməsi, təhsil sahəsinin seçilməsində kişi və qadınlar üçün fərqli imkanların yaradılması təhsil müəssisələrinin fəaliyyətində cinsi mənsubiyyətə görə ayrı-seçkilik kimi qiymətləndirilir. Dövlət kişi və qadınlara təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılmasını təmin etməlidir. Dövlətin digər bir vəzifəsi də iqtisadi və sosial münasibətlərdə gender bərabərliyini təmin etməkdir. Kişi və qadınların mülkiyyət

hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına, eyni zamanda hər iki tərəfin sosial təminat hüququnun həyata keçirilməsində, ünvanlı dövlət sosial yardımının və digər sosial güzəştlərin alınmasında bərabər imkanların yaradılmasına dövlət təminat verir Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyi təmin edilməli, partiyalara, qeyri-hökumət təşkilatlarına və həmkarlar ittifaqlarına daxil olarkən kişi və qadınlar üçün eyni şərtlər olmalı, bərabər imkanlar yaradılmalıdır. Bu şərtlər istisna olaraq, hər hansı cinsin xüsusi maraqlarının müdafiəsi məqsədilə yaradılan qeyri-hökumət təşkilatlarına şamil edilmir və bərabərsizlik kimi qəbul edilmir. Məsələn, qadın hüquqlarını müdafiə təşkilatı kimi. Gender bərabərliyinin təminatı haqqında Qanunda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalmış şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada zərər ödənilməsi nəzərdə tutulub. Qanunun müddəalarının pozulmasında təqsirli olan şəxslər də Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar. Gender bərabərliyinin gender bərabərliyinin təminatı haqqında Qanuna uyğun əməl edilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı kimi Ailə, Qadın və Uşaq Problemləri üzərə Dövlət Komitəsi həyata keçirir. Azərbaycan Respublikasının Əmək Məcəlləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 12-ci maddəsində (gender bərabərliyini təmin etmək məqsədi ilə işəgötürənin əsas vəzifələrini və məsuliyyətini müəyyən edir) bildirilir ki, işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığını artırmaq, yeni ixtisasa yiyələnmək və ixtisasını artırmaq zamanı, işin keyfiyyətini qiymətləndirərkən, işdən azad edərkən cinsindən asılı olmayaraq işçilərə eyni yanaşmaq və bərabər imkanlar tətbiq edilir. Cinsindən asılı olmayaraq eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi

mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün işəgötürən lazımi tədbirlər görməlidir. Məcəllənin 16-cı maddəsində isə əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi müəyyən edilib. Əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır. Əmək Məcəlləsi müəyyən edib ki, qadınlara, əlillərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir. Əmək münasibətləri prosesində işçilər arasında ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır. Ayrı-seçkiliyə məruz qalan işçi pozulmuş hüququnun bərpa edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər. Məişət zorakılığının qarşısının alınması haqqında Qanun Gender bərabərliyinin təmin edilməsi istiqamətində problemlərdən biri də qadın-kişi münasibətlərində məişət zorakılığının mövcud olmasıdır. Bəzən, ictimai şəkildə məlum olmasa da, qadınların, qız uşaqlarının müxtəlif basqılara, məişət zorakılığına məruz qalaraq, təhsildən, əmək fəaliyyətindən kənarda tutulması baş verə bilir. Bunun və digər zorakılıq hallarının önlənməsi məqsədi ilə 22 iyun 2010-cu il tarixində Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanunu qəbul edilib. Qanunda əsasən, üç istiqamətdə tədbirlərin görülməsi nəzərdə tutulub:

- **hüquqi xarakterli tədbirlər** (məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi);

- **sosial xarakterli tədbirlər** - zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi;

- **qabaqlayıcı tədbirlər** - əhali arasında məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin izah edilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə tədbirlərinin təşkilindən ibarətdir. Cinayət Məcəlləsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinsi ayrıseçkiliyin müxtəlif elementlərini qadağan edən yanaşma və məsuliyyət nəzərdə tutulub. Məcəllənin 6-cı maddəsi Qanun qarşısında bərabərlik prinsipinə yer verib və cinayət törətmiş şəxslərin qanun qarşısında bərabər olduğu, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, cinayət məsuliyyətinə cəlb olunacağı bildirilib. 106-cı maddədə isə cinsi köləlik və ya köləlik əsasında cinsi azadlığa qəsd edən əməl cinayət hesab edilir, 5-10 il azadlıqdan məhrum edilmə ilə cəzalandırılır. Məcəllənin 109-cu maddəsində isə fərdin, yaxud hər hansı qrupun siyasi, irqi, milli, etnik, mədəni, dini, cinsi və ya beynəlxalq hüquq normaları ilə qadağan edilmiş digər əsaslara görə təqib etmə, yəni qrupa və ya təşkilata mənsub olduqlarına görə insanları əsas hüquqlardan kobudcasına məhrum etmə insanlıq əleyhinə digər cinayətlərlə əlaqədar olduqda beş ildən on illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Cinayət Məcəlləsinin 154-cü

maddəsi isə konkret bərabərlik hüququnu pozmaya görə məsuliyyəti müəyyən edib. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyində istifadə etməklə törədildikdə verilən cəza daha da ağırlaşdırılır və iki min manatdan üç min manatadək miqdarda cərimə, yaxud, iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma, müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Cinayət Məcəlləsinin bu sayılan normaları daha ümumi normalardır və ayrıseçkiliyə yol verilməməsi, bərbərlik hüququnun pozulmamması baxımından çəkindiricidir. Ölkədə gender bərabərliyinin təmin edilməsi məqsədi ilə yeni qanunvericilik aktları qəbul edilir, bu çərçivədə dövlət qurumlarına bəzi öhdəliklər həvalə edilir. Bu öhdəliklərin hər birinin reallaşması eyni zamanda məsuliyyət tələb edir.

Tədqiqatlar göstərir ki, gender bərabərliyi qanunvericiliyinin qəbulundan bir neçə onilliklər sonra da qadınlar və kişilər arasında əsl bərabərliyə hələ də nail olunmamışdır. Bu, həmçinin, media qurumlarında tam ştatda çalışan işçilər, idarəetmə qurumlarının üzvləri sırasında qadınların təmsilçiliyi məsələsində də özünü göstərir. Avropa Şurasının dəstəyi ilə bu nümunəni dəyişdirmək üçün ölkələrin ata biləcəkləri bir neçə addımlar mövcuddur: İlk olaraq, hazırda gender bərabərliyini tənzimləyən bütün qanunların Avropa Şurası da daxil olmaqla, digər beynəlxalq təşkilatların standartlarına uyğunluğunu nəzərdən keçirmək. İkincisi, beynəlxalq standartlara

uyğun gəlmədiyi halda qanunvericiliyə dəyişikliklər etmək. Üçüncüsü, medianın gender bərabərliyi müstəvisində müvafiq beynəlxalq standartların və milli qanunvericiliyin icrasına nəzarət etmək imkanlarının artırılması. Sonunda, ictimai xidmət və özəl mediada faktiki gender bərabərliyinin mövcudluğunu (mövcud olmamasını) ölçmək üçün araşdırma aparmaq

## Mövzu 14. Şərqdə və Qərbdə gender məsələləri

Erkən sivilizasiyalar dövründə Yaxın Şərq xalqları, sosial münasibətlər baxımından daha əlverişli olan həyat tərzini formalaşdıraraq, kişilərin qadınlar üzərində hökmran olmaq imkanları üçün mümkün qədər münbit şərait yaratmışdılar. Hətta şumer dilinin strukturu bu vəziyyəti özündə əks etdirirdi: oğul “diti”, qız- “diti mi” qadın cinsindəki oğul kimi səslənirdi. Şümerlilərin qonşusu olan akkadların dili azərbaycan dili kimi flektiv idi. Oğul mar-u, qız – mar-t-u, qardaş – a-hu, bacı isə - ah-atu adlandırılırdı. Akkadlar qadına sinmish-t deyirdilər. Qədim Misirdə çox az qadın öz adını qoyub getmişdi. Qədim Misirin tarixində bir neçə məşhur qadın olub: Nefertiti, Arsinoya, Berenika, Kleopatra. Herodot (e.ə. 490-425- ci illər) Nil vadisində səyahətindən yazarkən, qeyd edirdi ki, Misir qadınları öz cəmiyyətində çox böyük və ehtiramlı yer tutur; oğulları atasının yox, anasının adını özünə götürürlər. Ən qədim dövrdə Misirin maddi və mənəvi mədəniyyətinin əsasını məhz qadınlar yaratmışdılar. Babilistanda qadının sosial statusu (vəziyyəti) kişinin statusundan aşağı olsa da, qadınlar işlə təmin olunurdular. Artıq e.ə. III minillikdə Babilistanda mirzə (yazar) qadınlar stenoqrafiya (danışan sözləri xüsusi işarələrlə cəld yazma üsulu) üsulundan dünyada ilk dəfə olaraq istifadə etmişdilər. Babilistanda qadınlar gələcəyi xəbər verən, cadugar, “müdrik qadın” və kəniz vəzifələrində işləyirdilər.
Çin qadını, dərin ağıla, müdrikliyə, gözəlliyə malik olmalı idi. Ondan yumşaq xasiyyətli, sakit, ləyaqətli və tərbiyəli olmaq tələb olunurdu. O, xalça toxumalı, bərkdən gülməməli, əllə danışmamalı, qonaqlar üçün yaxşı xörəklər və şərab hazırlamalı idi. O, evdə səliqəsiz görünməməli, evdən çıxanda isə çox da təmtəraqlı
geyinməməli, o, adamların dəstəsinə qoşulmamalı, pəncərədən bayıra baxmamalı idi. Bu siyahını yaxşı tərbiyə görmüş və yaxşı təhsil almış məşhur ilk Çin alim qadını Pen Çao tərtib etmişdi. Bu qadının Çan sülaləsinin tarixində müəyyən xidməti olmuşdur. Pen Çao belə hesab edirdi ki, qızlar da, oğlanlar kimi, ibtidai təhsil almalıdırlar. Penin dövründə və ondan 800 il sonra, çinli qadınların əksəriyyəti savadsız idi. O dövrdə, hər yerdə olduğu kimi, qədim Hindistanda da kişi, ailənin başçısı sayılırdı və burada qadın onunla heç bir

rəqabət apara bilməzdi. Lakin bir sıra gözə dəyən fərqlər də var idi. «Genişləndirilmiş ailə» və ya, «birləşdirilmiş ailə» ideyaları tarixi nöqteyi-nəzərindən yeni deyildi. Bütün dünyada uzun əsrlər boyu evlənmiş oğullar öz arvadlarını ata evinə gətirirdilər və bu ev, genişlənərək, gənc ailəni qəbul edirdi. Şəhərlərdə əhali çoxaldıqca və şəhərlər genişləndikcə, bu sistem artıq yaramırdı, lakin orta və aşağı siniflərdə ailələr ayrı-ayrı təsərrüfatlara bölündüyündən Çində yuxarı siniflər üçün bu hələ də xarakterik hal idi. Lakin heç yerdə bu sistem, Hindistanda olduğu qədər geniş yayılmamaşdı. Oğlanlar, qızlar, xalalar, əmilər, xala qızları, xala oğlanları daha uzaq qohumlar – onlar hamısı bir dam altında və yaxud da bir-birinə yaxın binalarda qrup şəklində yerləşirdi, bundan əlavə, onlar çox vaxt nökərləri ilə olurdular, nökərlər də öz ailələrini bu evə gətirirdilər.
B.e-nın II və III əsrlərində gəlinin yaşı bəyin yaşının üçdə birini təşkil edirdisə, bu ideal nigah hesab olunurdu. Manunun adına yazılan Qanunlar kitabında müvafiq yaş uyğun olaraq 8 və 24 yaş hesab olunurdu. Adətən Hindistanda gəlin – uşaqlar başqa ölkələrdə onların müasirləri üçün çətin olan problemlərlə qarşılaşmırdılar. Monoqam nigahın Hindistanda maraqlı psixoloji Hindistanda kişilər, bir adət olaraq, öz cavan arvadları ilə, öz uşaqları ilə oduğu kimi, zərif qayğıkeşliklə davranırdılar. Nəticədə, arvadlarını böyüməyə məcbur etməyin əvəzində, onlar arvadlarının böyüməsini bir qədər də gecikdirirdilər. Yeniyetmə arvad, özündən çox böyük olan tam yaşa dolmuş ərindən intellektual, fiziki və emosional cəhətdən asılı idi, ona görə də dini mətnlərdə deyildiyi kimi, qadın, ərinə, özündən qat-qat yüksək bir məxluq kimi baxırdı. Doğrudan da 12 və 28 yaş ilə 20 və 36 yaş arasında psixoloji fərq daha çoxdur. Hind qadını yalnız 20 yaşına çatanda öz potensialını ifadə edə bilir, özünü bir şəxsiyyət kimi hiss edirdi. Oğlanları böyüyüb və evləndikdə, ər isə ailə vəzifələrindən kənarlaşdıqda, qadın hələ 40 yaşına yenicə qədəm qoyurdu, o, bütünlüklə hakimiyyəti ələ alaraq, ailəni onunla hesablaşmağa məcbur edə bilərdi.
Islama qədərki dövrdə ərəb qəbilələrində poliqamiya çox yayılmışdı, bu müharibələr nəticəsində sinfi təbəqələrin yaranması, böyük miqdarda qulların və gəlirlərin artması nəticəsində çox yayılmışdı. Lakin Məhəmməd öz ardıcılları arasında poliqamiyanı rəğbətləndirməklə müharibədə ölənlərin dul arvadlarını və yetimlərini sosial müdafiə ilə təmin edirdi. Quran çox çətinliklə şərh edilir və bu məsələ ilə bağlı surə bir neçə mənada başa düşülə bilərdi. Lakin müsəlmanlar bunu belə başa düşürdülər ki, əgər onlar arvadları ilə mərhəmətlə davransalar, onda hərəsi dörd arvad ala bilər. Əgər kişinin dörd arvad saxlamağa imkanı çatmırdısa, o zaman bir arvad almaqla kifayətlənməli idi və istədiyi qədərməçuqə saxlaya bilərdi. Nəticədə adi müsəlmanların çoxu bir arvad saxlamağı və mütəmadi olaraq, onu dəyişdirməyi üstün tuturdular, çünki, ərəb cəmiyyətində boşanmaq nisbətən asan idi. İslam dini mütəffəkirlərindən ən əhəmiyyətlisi sayılan Qazali (1058-1111) "Şahlara məsləhət" kitabında qadınların bütün vəzifələrini və məhdudiyyətlərini yekunlaşdırmışdı. Qəzalinin siyahısı islam dünyasında qadın vəziyyətini, icazəli olan bu sosial ənənəsinin real mahiyyətini göstərmişdir: qadın öz həyatını istədiyi kimi idarə edə

bilməz, miras malında onun hissəsi daha azdır, onun ərindən ayrılmağa hüququ yoxdur, onunh yalnız bir əri ola bilər, o evdə qalmalıdır, o başını örtməlidir, bir kişinin adına yalnız iki kişinin andı bərabərdir, qadın yaxın qohumunun müşaiyyiəti olmadan çıxa bilməz, cümə günündə, bayramlarda, ölü bastırılanda o iştirak etməməlidir, o hakimiyyətdə və hakim ola bilməz, əri öləndən sonra qadın dörd ay, on gün yas saxlamadır, bundan sonra o yenidən ərə gedə bilər, kişi arvadını başamışsa, o yenidən ərə getməzdən əvvəl üç ay gözləmək müddətinə riayət etməli idi.

Qədim Yunanıstanda qadına münasibət qədim yunan filosofu Sokratın «Qadınlar heç də kişilərdən pis deyillər. Onlara lazım olan yalnız bir qədər artıq fiziki qüvvə və ağıl enerjisidir» - ifadəsində öz əksini tapmışdır. Afınada qadınların sosial statusu barədə danışanda, qeyd etmək lazımdır ki, qullara nisbətən onlar bir qədər artıq siyasi və vətəndaşlıq hüququna malik idilər, ömür boyu onlar yaxın kişi qohumunun tam tabeliyində olublar. Onlar formal təhsil almırdılar, ömrünün çox hissəsini öz evlərinin, qadınlara məxsus hissəsində, keçirirdilər və arzularından asılı olmayaraq, ərə gedirdilər. Arvad, çox az hallarda əri ilə birgə nahar edirdi (evdə qonaq olanda o heç vaxt əri və qonaqlarla bərabər əyləşib nahar etməzdi). Evin astanasından kənara ayaq basmağa çox az hallarda icazə verilirdi, evdən çıxanda isə onun yanında mütləq yaşlı bir adam olmalı idi, evdən çıxarkən o., yalnız 1 obol (müasir analogiyaya görə bir buterbrod və bir stəkan südün qiymətidir) qiymətində yeməyi, üç ədəd geyim paltarı, yemək və içmək üçün su götürə bilərdi. Ər, öz arvadı ilə hər bir səbəb olmadan, boşana bilərdi əgər arvad ərinə xəyanət edirdisə o, qanuna görə, onunla boşanmalı idi. Arvad yalnız ən son həddə çatdırılmış bir vəziyyətdə (ərin xəyanəti buraya daxil olunmurdu) onunla boşana bilərdi. Bir sıra alimlər belə qeyd edirlər ki, həqiqətdə vəziyyət o qədər də pis deyildi, rəsmi qadağalara baxmayaraq, qadınlara teatra, heykəltəraşların emalatxanalarına getməyə və ildə bir neçə gün Tesmoforidə qadın bayramlarında iştirak etməyə icazə verilirdi. Hər yerdə olduğu kimi, e.ə. I minillikdə Yunanıstanda qadınlardan bəziləri sərbəst təfəkkürə malik olsalar da, onlar daşınmaz əmlak sayılırdı. Qədim dövrdə yunanlı üçün qadın (onun yaşından və sosial vəziyyətindən asılı olmayaraq) «gyne - uşağı boyunda yetişdirən adam» idi. Mərhəmətli qadın baradə Afina təsəvvürü qədim yəhudilərdə çox oxşar idi. O, bakirə və sağlam düşüncəli olmalı, toxumağı, tikməyi bacarmalı, nökərləri idarə etməli, ərinin əmlakı və pullara qənaət etməli, bətnində uşağı saxlamalı və ləyaqətlə müdrikcəsinə təsərrüfatı idarə etməyi bacarmalı idi.

E.ə IV əsrin, xüsusilə də III əsrin sonunda öz arvadlarına aid olmasa da, Afina kişilərində başqaq qadınlara maraq oyanmağa başladı. Hər şeydən əvvəl bu, geteralara olan marağın artması ilə bağlı idi. Qadınlara qarşı müsbət münasibətinin yaranması, ilk növbədə Böyük İskəndərin dəniz istilaları ilə bağlı idi. Geteralar gözəl, savadlı, istedadlı, ağıllı idilər və çox vaxt onların klassik ədəbiyyatdan məlumatları olurdu. Qədim Yunanıstanda qadınların vəziyyəti bütövlükdə yunan tarixinin müxtəlif mərhələləri ilə bağlıdır. Böyük İsgəndərin qələbəlik yürüşlərinin əsl nəticəsi və buradan

başlayan "ellin baharı" bütün dünya tarixində tufan qoparmışdı. Bunun müqabilində fikirlərin, dinlərin bütün sahələrində yeni baxışlar özünə yol tapdı; bu həm də qadının ictimai vəziyyətinə də təsir etdi. Xalqların əhəmiyyətli assimilyasiyası çoxlu qarışıq nigahların yaranması ilə müşahidə edilirdi. Bunu Ulrix Vilken özünün "Papirologiyanın müntəxəbatı" əsərində də yaxşı göstərmişdir. Buradan aydın olur ki, makedoniyalılar öz yunan olmayan arvadlarına yunan olmayan allahlara dua etməyə icazə verməkdən əlavə bəzən, özləri də onlarla bərabər dua edirdilər. Ellinizmin coğrafi həddləri genişləndirdi, eyni zamanda insan təxəyyülü də genişlənmişdi. Böyük Makedoniyalı İsgəndərin müasiri yunan dramaturqu Menandr ellinistik humanizmi prinsipini etik monoteizm ruhunda ifadə eymişdir. "heç bir insan mənim üçün özgə deyildir, belə ki, anadan gəlmə bütün insanlar bərabərdir". Menandr bu anlayışla bərabər hüquq dedikdə həm qadınları, həm də qulları daxil etmişdir. Qadın vəziyyətinin dəyişməsi nigaha yeni münasibəti yaradır. Aristotel etik normaların dürüst ifadəsini verərkən, qadına və nigaha baxışın dəyişməsini vacib hesab etmişdir. Nigah yalnız nəsil artırılması deyil, ümumi məsələlərin icrası üçün iki nəfərin ittifaqı deməkdir. Onların vəzifələri bölünmüşdür, hərəsinin öz işi vardır, hər ikisi bir-birinə kömək edirdi.

B.e. 300 il əvvəl ellinizm dövründə qadın emansipasiyası qədim dövrün görmədiyi və xristanlıq dövrü cəmiyyətinin hələ uzun müddət çata bilməyəcəyi səviyyəyə çata bilmişdir. Qadın ciddi təcrid edilmiş ev aləmindən azad olaraq, artıq təhsil almağa imkan tapmışdı.

Qədim dünyada, hər yerdə olduğu kimi, Romada da arvad və uşaqları, öz kişi qohumlarının xüsusi mülkiyyəti hesab olunurdu. Lakin Romada bir fərq vardı: uşaqların tərbiyəsi və ev təsərrüfatı ilə məşğul olmaq qadının bütün vəzifələrinin yalnız bir hissəsi hesab olunurdu. Bu bir növ neolitik şəraitin davamı idi: daha doğrusu əsas vahidi ailə olan Romanın səpələnmiş cəmiyyətdən (qadının bu cəmiyyətin işlərinə iqtisadi köməyi çox əhəmiyyətli idi) çox böyük surətlə sivil dövlətə çevrildi. Bunun nəticələrindən biri də o oldu ki, qadının həyatı o dövrün başqa cəmiyyətlərində olduğundan fərqli olaraq, daha az təcrid edilməyə başladı, qadın öz qiymətini yaxşı bilirdi və öz işlərində müəyyən inama malik idi. Ənənəvi olaraq, qədim Romada nigahın üç forması mövcud idi. I forma (comfarreatio) müasir katolik nigahın təxmini ekvivalenti idi, belə nigah təntənəli mərasimləri ilə seçilirdi və onun pozulması son dərəcə mürəkkəb idi. II forma (coemptio) gəlinin satın alınması adətinin qalıqları idi, bu, müasir nigah mərasiminə oxşayırdı və bahalı bəzək-düzək ala bilməyənlər üçün nəzərdə tutulmuşdu. Hər iki halda birbaşa atadan ərinə təhvil verilirdi (inmanum), müqavilənin rəsmi mətnində deyildiyi kimi, öz əmlakı və cehizi ilə. ondan sonra gəlin tamamilə ərinin ailəsinə mənsub olurdu və o, hər hansı bir yolla nigah qanunlarını pozsa idi, öz doğma ailəsinin deyil, ərinin ailə birliyinin qarşısında cavab verməli idi. III forması (usus) – bir illik birgə yaşayışdan sonra bağlanmış qanuni nigah idi. qədim dövrlərdə belə nigah yəqin ki, böyük hörmətlə qarşılanırdı. Gələcək ər və arvad bir ildə bir növ sınaq müddəti keçirdilər, əgər onların

ittifaqı daimi olardısa bu qəbul olunurdu, əgər əlaqə kəsilirdisə, bu töhmətlənirdi. Sınaq müddəti qurtarana qədər qadın atasının ailəsinə mənsub idi, yalnız nigah bağlandıqdan sonra ər qadının tam sahibi olurdu. Usus – müstəqilliyə can atan insanlar üçün böyük təsəlli yeri idi. Həqiqətdə nigahın belə forması gəlinin atası üçün də əlverişli idi. Lakin nəticədə belə alınmışdır ki, hələ ki, qız atasının əlində idi, ata qızının əmlakı üzərində nəzarətə malik idi və nigah baş tutmadıqda ata qızının cehizinin böyük hissəsini əlində saxlaya bilərdi. Tədricən arvadın atasının müdafiəsi altında qalması barədə qaydalar yaranmağa başladı. Romalının qızı rəsmi olaraq onu əlində olsa da o çox az halda ona nəzarət edə bilirdi və əgər belə nəzarət vardısa, bu bir qayda olaraq simvolik idi. Romada qızlar yetkinlik yaş sayılan 25 yaşına çatanda atanın onu üzərində olan nəzarəti adicə formal xarakter daşıyırdı. B.e. qədər III əsrin sonunda qadın bu və ya d. səviyyədə sayıq nəzarətin altından çıxaraq azadlıq əldə etdi. E.ə. 215-ci idə Hanniballa müharibənin kəskin dövründə tribun Oppianın naminə “Oppian qanunu” qəbul edilmişdi, bu qanuna görə, qadın yalnız unsiyanın (pul vahidi) yarısı miqdarında qızıla malik olmaqla ixtiyarı vardı, qadın arabada Romanın küçələrində gəzməməli və parlaq paltarlar geyməməlidir. digər sonrakı qanunlar kimi, Oppian qanunu – yeganə yolla vətəndaşların gəlirini və xərcini tənzim edərək, qanuni yolla lazım olmayan xərclərin məhdudlaşmasına cəhd edirdi. Beləliklə, bu qanundan qadınlar əziyyət çəkirdilər, nəticədə iqtisadi səmərə əldə edilməsi əvəzinə, onlarda psixoloji çaşqınlıq yaranırdı.

Roma b.e. qədər 215-ci ildə böhran keçirtdi və 14 il sonra müharibə qurtardı. Lakin 6 il sonra, e.ə 195-ci ildə Oppian qanununun ləvğ edilməsi cəhdləri göstərildi. Mühafizəkarlar qanunu ləvğ olunmasının əleyhinə idilər. Qadınlar buna görə çox qəzəblənirdilər. Nə nüfuz, nə təvazökarlıq, nə də ərlərinin əmrləri ərli qadınları evdə saxlaya bilmirdi. Onlar Romanın küçələrinə çıxmış və foruma gedən yolu da tutmuşdular. Əgər erkən respublika dövründə nigahın möhkəmliyi toy mərasimindən asılı idisə, b.e. qədər III əsrdə nigahın meyarı “hər iki tərəfin razılığı ilə birgəyaşayış”ın vəziyyəti idi, yəni bu elə sadə razılıq idi ki, bunu həm asan pozmaq, həm də bununla asan razılaşmaq olardı.

Neolit dövründən sonra, XII əsrdən başlayaraq, XVI əsrin sonlarınadək Avropa qadınlarının sosial, maliyyə və məişət vəziyyəti son dərəcə ağır olmuş və dövrün sonundakı bu vəziyyət əvvəlkindən heç də yaxşı deyildi. Yeganə fərq qadının obrazında, onun imicində idi. XII əsrin əvvəllərində qadınlara nifrətlə baxırdılar. XVI əsrin axırlarında onlara hörmət edilməyə, hətta pərəstiş edilməyə başlanıldı. Belə vəziyyət digər dəyişmələrə də səbəb oldu. Qadının xanıma çevrilməsinə köməklik göstərən faktorlardan bir neçəsini ön plana keçirmək olar. Bunlardan biri – xaçpərəstlərin yaşa dolma təcrübəsidir. Səlib yürüşləri zamanı bir çox qadınlar ərlərini itirmiş, baxımsız qalmışdılar, onlar ərlərinin mülkiyyətini idarə etmək məcburiyyətində qaldılar və hətta siyasət belə artıq onlar üçün sirr deyildi. Qadınlar o dövrün ictimai həyatının modalarına: qeybətlərin, intriqaların mərkəzi sayılan hersoq və kral sarayları uğrunda aparılan

mübarizələrdə iştirak etdilər, Kilsə qadınların bu hərəkətlərini dəstəkləməsə də, bütün bunlar qadınların ictimai vəziyyətinin sabitləşməsinə kömək etdi. XI əsrdə arvadından bezikmiş ər, asanlıqla ondan ayrıla bilirdisə, nigah qaydaları ruhanilərin əlin altına keçdikdən sonra belə praktikanın qarşısı kəskin şəkildə alındı. Sonralar kilsənin və kişilərin qadın cinsinə olan münasibətinə təsir edən daha bir tendensiya meydana gəldi. Ailə-nigah münasibətlərini araşdıraraq, islahatçılar belə hesab edirdilər ki, baş tutmamış nigah fəlakətdir. XVII əsrdə nigah məsələlərinin öz ixtiyarına almış katolik kilsəsi təkid edirdi ki, nigah ömürlük kəsilməlidir, bu allah tərəfindən xeyir-duası verilmiş məxfi hadisədir. İslahatçılar nigah əlaqələrini müqəddəs hesab etmədiklərinə görə onlar qismən də olsa, nigah qanunvericiliyini dini olmayan (dünyəvi) hakimiyyətin nəzarəti altına salmaq istəyirdilər. Keşişlər isə yalnız ümumi tövsiyələr verməli idilər. XVI əsrdən bu günə kimi ingilis ailəsinin inkişafında 3 ayrı-ayrı mərhələ qeyd
edilir. Əvvəl genişləndirilmiş orta əsr ailəsi mövcud idi, burada ailə üzviərinin şəxsi həyatı məhdudlaşdırılmışdı, şəxsi əlaqələrin (hətta ər-arvad arasında) yaranmasına və fərdçilik üçün imkan yox idi, ailə üzvləri ümumi həyatla yaşayır, bir masa ətrafında yeyir, bir yataqda yatırdılar. Yeni əmələ gələn burjuaziyanın mövqelərinin möhkəmləndirilməsi məqsədilə cəmiyyətin sosial quruluşu dəyişdikcə təqribən XVI əsrin ortalarında belə səliqəsiz forma yerini daha mütəşəkkil və daha az saylı ailələrə verirdi. Nəticədə ailənin qalan üzvlərində daha artıq sabitlik hissi əmələ gəlməyə başlamışdı. Lakin, bütünlükdə hələ də həyat şəraiti əlverişli deyildi: ölüm səviyyəsi XVI əsrdə hələ də yüksək idi.
XVII əsrin ortalarında ingilis ailəsinin inkişafında üçüncü mərhələ başlandı, bu ailənin həyat tərzində emosional sabitliyin və yeni fərdiçiliyin sabitləşməsi ilə səciyyələnirdi. Eyni zamanda nigahdan kənar uşaqların doğulması kəskin azalmışdı, bu da ailə daxilində emosional möhkəmliyinin yaranmasına sübut idi. Bu tendensiya o zamankı Fransada yaranmışdı. Bu dövrdə sosial proseslərin analizi belə nəticəyə gəlməyə imkan verirdi ki, bütün Avropa, XVI əsrdə dini çevrilişlərə məruz qalmışdı. Nəticədə bütün cəmiyyətdə xüsusilə ailədə, müdafiə reaksiyası özünəqapanma şəklində inkişaf etməyə başladı. Əvvəllər kübar ailənin böyük oğlu, miras almağına şübhə etmədən, özü istədiyi vaxt və ya varlı mirasa sahib olmağa ümid edən qız qarşısına çıxdıqda evlənə bilərdi. Evin kiçik oğlanları isə böyük qardaşlarının əliaçıqlığından asılı olmaqla nigah məsələsində o qədər də azad deyildilər. Kəndlilər, əksinə senyorların icazəsi olmadan evlənmirdilər. Əhəmiyyətli olan odur ki, indi kişilər özündən 20 yaş kiçik qızlar içindən deyil, özlərinin yaş qrupları içərisindən arvad seçirdilər. Beləliklə kişinin nigaha girməsinin orta yaşının qalxması ilə yanaşı qadının da bu göstəricisi artdı. Məhəbbətin nigaha aidiyyatı hələ
də az idi, lakin ailə münasibətlərinin yuxarıda göstərilmiş müxtəlifliyi qarşılıqlı münasibətlərin inkişafı üçün geniş imkan yaratmışdı.
XIX əsrin qadını, sərbəstliyin kəndarında dayanmışdı, buna isə iqtisadi sərbəstlik olmadan nail olmaq mümkün deyildi. Yoxsul zəhmətkeşlər XX əsrə qədər qadının mövqeyi barədə narahat deyildilər, çünki onlar bunu özlərinə rəva bilmirdilər. Burada

maneçilik törədən sənaye kapitalizmi idi. Aşağı təbəqədən olan qadınlar çox az halda müstəqilliyə malik idilər, lakin onlar daha artıq dərəcədə sərbəst idilər. Bu situasiya sənaye inkişaf edəndən sonra dəyişdi. Qadın öz əri və uşaqları kimi muzdlu işçi qüvvəsinə çevrildi. Bu zaman o həmin işə görə ərindən iki dəfə az maaş alırdı.
Gender münasibətlərinin aktual problemlərindən biri qadınlara seçki hüququ verilməsi idi. Viktorian dövründə qanunvericilər qadınlara seçki hüququnun verilməsinə qarşı çox arqumentlər gətirirdilər. Seçki hüququnun tələbi ilə mütəşəkkil tələbat 1848-ci ildə Nyu-Yorkda Seneka – Follzda qurultayda olmuşdur. Yalnız 21 il sonra, 1869-cu ildə, Milli Sufracist qadın assosiyasiyasi təşkil edildikdən və Amerika Sufracist qadın assosiyasının yarandığından sonra sərhədyanı ərazi olan Vayominq qadınlarına seçki hüququ verildi.

**Mövzu 15. Gender. Etika və Qloballaşma.**

Cəmiyyətin müasir inkişaf mərhələsində insanlar arasındakı münasibətlərin yeni prinsip və nüanslarla cilalanması müşahidə edilməkdədir. Bu gün xalqlar və ölkələr arasındakı əlaqələrin geniş vüsət alması, informasiya mübadiləsinin artması, İnternetin, sosial şəbəkələrin həyatımıza nüfuz etməsi, elmi-texniki tərəqqinin son nailiyyətləri insanların həyat və məişətinə öz təsirini göstərməkdədir. Bu gün dünyanın böyük bir hissəsi, vaxtilə «sosialist düşərgəsinə» daxil olmuş ölkələr, sosializmdən kapitalizmə qədəm qoymuşdur. Hər hansı bir iqtisadi-siyasi quruluşdan digərinə keçid mexaniki hadisə kimi qiymətləndirilə bilməz. Bu cür «keçidləri», adətən, böyük faciələr və böyük təhlükələr müşaidə edir. Lakin cəmiyyətin öz qarşısıalınmaz qanunları var və həmin qanunların «dondurulmasına» göstərilən cəhdlər daha qorxulu meyillərə aparıb çıxara bilər. Keçid mərhələsi təkcə bir iqtisadi sistemin digəri ilə əvəz olunması demək deyildir. Burada başlıca amillərdən biri də bir əxlaqdan digərinə keçməsidir. Əlbəttə, insan münasibətlərinin sürətli avtomatik dəyişilməyə məruz qalmasını düşünmək sadəlövhlük olardı. Bu sahədə etika və şüurun digər tipləri insanların qarşısında meydana çıxan yeni problemlərin həllində mühüm rol oynaya bilər. Müasir dünyada əxlaq və şüurun qarşılıqlı təsiri göstərir ki, mövcud prinsiplərin bərqərar olmasında siyasətin təsiri daha üstündür. Müasir fransız filosofu E. Jilson göstərir ki, ümumiyyətlə, azadlığın mövcudluğu problemi öz kökləri ilə sxolastik debatlara gedib çıxır. Etik prinsiplərin cəmiyyət həyatındakı yeri və rolu, əsasən, həmin cəmiyyətin mahiyyətindən asılıdır. Bu gün özünü dünya birliyindən təcrid etmiş, öz qapılarını liberal dəyərlərə və demokratik prinsiplərə bağlamış rejimlərdə yüksək etik-mənəvi prinsiplərin bərqərar olmasından danışmaq qeyri-mümkündür. İndi təkcə iqtisadi müstəvidə deyil, mənəvi dəyərlər kontekstində də «qarşılıqlı inteqrasiya» getməkdədir. Bir növ, ***«məhəlli əxlaqi qanunları», ümumbəşəri mənəvi dəyərləri üstələməkdədir***. Robert Dahl haqlı olaraq yazır ki, «bütün insanlara elə

yanaşmalıyıq ki, sanki onlar yaşamaq, azadlıq, xoşbəxtlik və digər təməl dəyərlər və mənafelər barədə bərabər hüquqlara malikdir. Mən bu əxlaqi mülahizəni anadangəlmə bərabərlik prinsipi adlandırıram» (Robert Dahl, 2004). Etik normaların cəmiyyət həyatında daha mühüm rol oynaması üçün demokratik prinsiplərin get-gedə dərinləşməsi zərurəti yaranır. Lakin həmin prinsiplər heç də birdən-birə yaranıb formalaşmır. Qeyri-demokratik rejimlər, adətən, öz «qayələrinə» uyğun rəhbərlər yetişdirirlər. Bu cür rəhbərlərin az qala hamısı ucdantutma iddia edirlər ki, «xalqın böyük əksəriyyəti yetərincə səriştəli deyil ki, dövlətin idarə olunmasında iştirak edə bilsin; yaxşı olar ki, xalq hakimiyyətdən kənara çəkilib, bu işi daha müdrik olanlara, hansısa bir qrupun və ya fərdin öhdəsinə buraxsın» (Robert Dahl, 2004). Demokratik prinsiplərə əməl olunması etik-gender müstəvisində də öz dolğun əksini tapır. Sosioloq Betti A. Reordonun yazdığı kimi kişi və qadınların maraqlarına bərabər şəkildə xidmət etməyən strategiyalar sözün əsl mənasında demokratik deyildir. Vətəndaşlar, habelə strategiyaları işləyib hazırlayanlar gender təhlilinə dair irəli sürülən bütün strateji təklifləri necə təqdim etməyi və gender ədalətini hər hansı bir strategiyasının ədalətliliyinin qiymətləndirilməsi üçün əsas meyarlardan biri kimi daxil etməyi öyrənməlidir» (Betti A. Reardon, 2003). «Kişi və qadın strategiyalarının» mahiyyəti isə XX-XXI əsrlərdə artıq yeni keyfiyyətlər əldə etməkdədir. İstər-istəməz son yüzilliyin qarşısıalınmaz prosesləri, xüsusən, qloballaşma həyatın bütün sahələrinə nüfuz etməkdə, bir çox əxlaqi səddləri vurub-dağıtmaqda, öz şərtlərini diktə etməkdədir. Qloballaşma özünün bütün ziddiyyət və ağrıları ilə insanların həyatına daxil olmaqdadır. Dünyada gedən müasir inteqrasiyalar bir tərəfdən insanların həyat şəraitini yüksəldirsə, digər tərəfdən problemlərinin sayını artırır. Lokal və irimiqyaslı müharibələrdə, münaqişə ocaqlarında ən çox təhlükəyə məruz qalan, əzilən, məhv olan, əsasən, qadın və uşaqlardır. İndi – XXI əsrin ilk illərində orta əsrlərdə olduğu kimi güclü dövlətlərin zəif və kiçik dövlətlərin üzərinə hücum etməsi adi, gündəlik məsələlərdən birinə çevrilmişdir. Zorun hökmranlığı yenə də gündəmdə qalmaqdadır. Qloballaşma prosesində bir növ tarixi-ənənəvi qaydada təsəvvür edilən sərhədlər dəyişir, elmi və informativ mübadilənin radiusu genişlənir, dünyanın müxtəlif qitə və qütblərində yaşayan insanlar bir-biri ilə asanlıqla, az qala heç bir maneə olmadan əlaqə qura bilirlər. Lakin müasir urbanizasiya və qloballaşma heç də asanlıqla həyata keçirilmir. Axı, əxlaqi və adət-ənənələrin formalaşması bir neçə ilin məhsulu kimi qiymətləndirilə bilməz. İnsan adətləri əsrlər, minilliklər boyu bərqərar olur. Müasir dövrün ən səciyyəvi cəhətlərindən biri odur ki, insani münasibətlərin dairəsi genişlənmişdir. Dar standartlığı yeni, ahəngdar, geniş münasibətlər əvəz etməkdədir. İnternet, sosial şəbəkələr, kommunikasiya vasitələri, radio və televiziya, nümayiş etdirilən filmlər, çap olunan kitab və jurnallar müxtəlif ölkələr arasında mənəvi körpülər qurmuşdur. Adı çəkilən əlaqələr insanların əxlaq və dünyagörüşünə birbaşa təsir göstərir. Görkəmli sosioloqlardan birinin qeyd etdiyi kimi, ***«qloballaşma o deməkdir ki, müəyyən bir yerdə deyilənlər tezliklə bütün dünyaya məlum olur, bir ölkədə yeridilən siyasət digərində böyük nəticələrə gətirib çıxara bilir***»

(Cozef E. Stiqlits, 2004). Əlbəttə, qloballaşma haqqında danışarkən, xatırlatmaq lazımdır ki, müasir iqtisadi rəqabət, siyasi qərarların qəbulu, bir sözlə, çoxsaylı konfliktlərin həlli bir çox hallarda qlobal əxlaqdan və yaxud başqa sözlə, qlobal etikadan asılıdır. Qlobal etikaya cəhd artıq fəlsəfi-etik təlimin başlıca cəhətlərindən biri olmuşdur. Fəlsəfə və etika daim zəkaya ünvanlanmışdır; məhz buna görə də onlar həmişə universal səciyyə daşımışdır. Həmin keyfiyyətlərinə görə qloballaşmanın özü universal zəkaya cəhdin nəticəsi kimi dəyərləndirilməlidir (Mamed-zade İ.R., 2004). Qloballaşmanın həyatın bütün sahələrinə nüfüzü kəskin müzakirə, mübahisə və tənqidlərlə qarşılanır. Əslində, həqiqətən, qloballaşma heç də bütün hallarda insanlara, geniş mənada cəmiyyətə həmişə xoşbəxtlik gətirmir. Təəssüf doğuran hal budur ki, Cozef E. Stiqlitsin qeyd etdiyi kimi, qloballaşmanın həyata keçirilməsinə görə məsulliyyət daşımalı olan şəxslər çox zaman məsələnin əks tərəfini onun mədəni irs və dəyərlər qarşısında yaratdığı təhlükə haqqında heç də tam olmayan bir fikir təlqin edirlər (Cozef E. Stiqlitz, 2004). Əlbəttə, əxlaqi dəyərlərin tamamilə qloballaşma təhlükəsinə məruz qaldığını söyləmək düzgün olmazdı. Vaxtilə görkəmli ingilis alimi K. Popper özünün «Açıq cəmiyyət və onun düşmənləri» əsərində göstərirdi ki, əxlaqi qərarlar çox vaxt iradi yollarla həll olunur (Popper K., 1992). O, bu mənada D. Skottun iradə ağıldan üstündür tezisinə söykənir. Mütəfəkkirlərin çoxu isə insan həyatının gələcək taleyini etik məsuliyyətdən asılı olduğunu qeyd edirlər. Məsələn, Eynşteyn vaxtilə xatırlatmağı vacib bilirdi ki, dünyanın (gələcək nəsilləri) taleyini elm və texnikanın səviyyəsi deyil, insanların mənəvi aləmi, əxlaqı müəyyən edəcəkdir. Qloballaşma müasir dünyada, bir çox hallarda elmi-texniki yeniliklərin təkcə bərabər şəkildə bölüşdürməsini deyil, qeyri-bərabər təmərküzləşmələrə gətirib çıxarır. Güclü ölkələrin zəif inkişaf etmiş ölkələrdən yalnız xammal mənbəyi kimi istifadə etməsi faktı da nadir hadisələrdən deyildir. Bu, məsələnin, bəlkə də, yalnız qabarıq görünən tərəfidir. Ən mühüm məsələ isə, çox yəqin ki, qloballaşmanın insan mənəviyyatında qoyduğu, açdığı cığırdır. Dünyada baş verən qlobal proseslər nəticəsində sanki bütün xalqlar və millətlər, habelə onların əxlaqi dəyərləri vahid müstəvi üzərində eyni simmetriya əsasında düzənlənir. Bu eynilik heç də bütün hallarda müsbət cəhətlərlə nəticələnə bilməz. İnsan fərdiyyətinin, milli xüsusiyyətlərinin aradan götürülməsi və ya eyniləşdirilməsi bəşəriyyətə yaxşı heç nə vəd etmir. Elə buna görə də dünyanın bir çox xalqlarının nümayəndələri, elm xadimləri, adi vətəndaşlar antiqlobalist şüarlar irəli sürürlər. Amma bir daha qeyd etməliyəm ki, qloballaşmanın gətirdiyi bir çox zərərli və mənfi cəhətləri etiraf etməklə yanaşı, onun müasir bəşər nəslinin, sivilizasiyanın taleyində müstəsna rolunu danmaq qeyri-mümkündür. Başqa sözlə, bu gün qloballaşmaya sarı işıq yandırmaq – sivilizasiyaya qapı bağlamaq deməkdir. Xüsusən, XX əsrin son onillikləri insan davranışına əhəmiyyətli dərəcədə təsir edən geniş miqyaslı, sosial, mədəni və iqtisadi dəyişikliklərin gətirilməsi ilə fərqlənir.

Bu gün qloballaşmanın insan həyatına nüfuzu özünün bir sıra cəhətləri ilə diqqəti cəlb edir. Qloballaşma müasir cəmiyyətin və təbii ki, cəmiyyət üzvlərinin həyatına əsasən üç

aspektdə daxil olmaqdadır: a) iqtisadi; b) mədəni; c) siaysi amillər şamil edilə bilər. Əlbəttə, ekoloji və mənəvi amillər də həmin parametrlərdə nəzərdə tutulur. Qloballaşmanın çağdaş mərhələsində gender problemi cəmiyyətə özünün bir sıra anlayışlarını gətirmişdir. Həmin anlayışlardan biri də gender iqtisadiyyatıdır. Adətən, iqtisadiyyatın gender aspektindən söhbət açanlar üç mühüm metodoloji istiqamətin mövcudluğunu qeyd edir: 1) neoklassik təhlil pozisiyasından; 2) marksist siyasi iqtisadi pozisiyasından; 3) institsional pozisiyasından yanaşma. İqtisadi adam (elecə də iqtisadi gender ) üçün mühüm şərtlərdən biri əhəmiyyətlilik prinsipidir. Neoklassik yanaşmanın əsasını təşkil edən həmin anlayış elmi ədəbiyyatda ingilis filosofu İ. Bentam tərəfindən gətirilmişdir. İqtisadçılar həmin termindən bu və ya digər rifahın üstünlüyünü ifadə etmək üçün interpretasiya edirlər. Necə deyərlər, marksizmə istinad edən feministlər qadınların istismarının mənbəyi kimi kapitalizm və patriarxal qayda-qanunları götürürlər. Əksər hallarda isə belə bir mülahizə əsas götürülür ki, patriarx və kapitalizm kişilərin nəzarəti altında olduğuna görə qadınlar istismara məhkumdurlar. Neoklassik yanaşmanın əsas nümayəndələrindən biri Henri Bekker iqtisadi gender barədə geniş tədqiqat aparmışdır. Henri Bekker ailə daxilində gender bölgüsünə xüsusi diqqət yetirərək yeni anlayış – insan kapitalı anlayışını gətirmişdir (Гендерный калейдоскоп, 2002). Məhdud mənada bu anlayışa – təhsil və professional kvalifikasiya daxildir. Bekker belə hesab edir ki, qadın və kişi nikaha girməklə bir növ yeni bazar münasibətləri yaradırlar. Nikah nəticəsində spesifik ailə kapitalı yaranır ki, buraya da uşaqlar, ətrafındakı adamların nəzərində reputasiya, anlaşma, sağlamlıq və s. daxildir. Bu cür kapitalın əsas hissəsi təzədən (təkrar) yaranan nikah ittifaqına avtomatik ötürülə bilmədir. Məhz buna görə də yeni bağlanan nikahların pozulması ehtimalı çox olsa da, zaman keçdikcə bu cür ehtimal azalır. H.Bekker cinslərə görə bazar diskriminasiyası məsələsinə də toxunaraq qeyd edirdi ki, bütün iş sahibləri (sahibkarlar), adətən, diskriminasiyaya meyilli olurlar; onlar öz şəxsi maraq və zövqlərindən asılı olaraq bu və ya digər qrupların iş şəraitini yaxşılaşdırırsa, maaşları yüksəldə bilərlər. İş sahibinin cinslərə görə diskriminasiyaya meyilliliyi nəticəsində qadın və kişilərin maaşları arasında fərqlər də artır (Гендерный калейдоскоп, 2002). İnstitsional yanaşmanın tərəfdarları, xüsusən onun banilərindən biri – Torsteyn Veblen qadının tarixdəki rolunun evalusiyasını izləyərkən belə qərara gəlir ki, qadınların ev işləri, öz mahiyyətinə görə əslində istehsal fəalliyyəti kimi qiymətləndirilməlidir (Гендерный калейдоскоп, 2002). Qadınların siyasi həyatda kişilərlə eyni ranqda təmsil edilməməsi, şübhəsiz ki, bütün post sovet məkanına aid olan haldır. Təkcə bir faktı xatırlatmaq lazımdır ki, son illərdə postsovet ölkələrindən yalnız ikisinin dövlət başçısı (Latviya, Qırğızıstan), Baş nazir (Ukrayna) və parlament rəhbəri (Gürcüstan) qadın olmuşdur. 2002-ci ildə Rusiya Dumasının üzvləri seçki hüququnun əsas təminatları haqqında qanunun yeni redaksiya lahiyəsində düzəlişləri müzakirə edərkən belə bir təkliflə çıxış etmişdilər ki, partiya siyahısı tərtib edilərkən orada hər hansı bir cinsi təmsil edən nümayəndələrin faiz kəmiyyəti 70-i ötməməlidir. Bununla deputatlar qadınların

parlamentdə heç olmasa mövcud yerlərin üçdə birini tuta bilməsini qanuniləşdirmək istəyirdilər. Hətta Rusiya Mərkəzi Seçki komissiyasının sədri A.Veşnyakov bunun beynəlxalq normalara uyğun olduğunu, qüvvədə olan konstitusiya ilə ziddiyyət təşkil etmədiyini qeyd etmişdir. Lakin həmin lahiyəyə deputatların yarıdan azı – cəmi 167 nəfəri səs vermişdir. Parlamentdə «Rusiya qadınları» fraksiyasını təmsil edən fəallardan biri – Y.F.Laxova Türkiyə, Norveç, Fransa, hətta Pakistan kimi ölkələrdə qadınların hakimiyyətin yüksək eşelonunda təmsil olunduğunu diqqətə çatdırmış, Rusiyada kişi şovinizminin üstünlük təşkil etdiyini vurğulamış, bunu obrazlı şəkildə milli təhlükəsizliyin gizli təhlükəsi kimi qiymətləndirmişdir. Müşahidə və tədqiqatlar göstərir ki, ictimai-siyasi həyatda qadın faktoruna müraciət, dalğavari səciyyə daşıyır. Adətən, kəskin sosial qarşıdurmalar şəraitində qadın gücünə daha böyük ehtiyac duyulur. 1990-cı illərdə Azərbaycanda müstəqillik uğrunda gərgin mübarizə getdiyi zaman ön cərgələrdə qadınlar dayanırdı. Müstəqilliyin əldə olunmasında qadınların rolu danılmazdır. O zaman onlara böyük ehtiyac var idi və müstəqillik uğrunda mübarizədə cinsi mənsubiyyət heç bir rol oynamırdı. Əksinə, qadınlar siyasi həyatda daha aktiv surətdə iştirak edirdilər. Bu gün müstəqilliyimizdən 20 ildən çox bir dövr keçdiyi zamana nəzər salanda bu aktivliyin xeyli aşağı düşdüyünün şahidi oluruq. Bəs görəsən qadınların siyasi həyatdan uzaqlaşmasının başlıca səbəbi və ya səbəbləri nə ilə bağlıdır? Bizə elə gəlir ki, dinc şəraitdə qadınların ictimai-siyasi həyatdan uzaqlaşmasının səbəbi ənənəvi amillərdir. Əgər ağır, məşəqqətli illərdə (məsələn, müharibə illərində) ailələrin ağır yükü qadınların çiyinlərinə düşürsə, nisbətən sakit şəraitdə təşəbbüsü kişilər ələ almağa çalışırlar. Hətta əksər ölkələrdə belə bir fikir formalaşıb ki, cəmiyyətin bütün sahələrində kişi və qadın əməyi qeyri-rəsmi qaydada bölüşdürülüb; belə ki, əksər idarəetmə sahələri, o cümlədən siyasətlə məşğul olmaq, kişilərin vəzifəsinə daxildir, lakin təhsil, səhiyyə və s. bu kimi yüngül sahələr qadın işidir. Bu cür əmək bölgüsü dünyanın əksər ölkələrində az qala qaydaya çevrirlmişdir. Qadın və kişi əməyinin, vəzifəsinin, geniş mənada davranış normalarının kəskin antoqonist qütblərə bölünməsi həm də cəmiyyətin mədəniyyət sisteminin konkret məsələlərə nüfuz etmə qabiliyyətinin formalaşmaması, mədəniyyət faktorunun ictimai-siyasi həyatın atributuna çevrilməməsi ilə bağlıdır. Mədəniyyət elə bir sistemdir ki, cəmiyyətin ayrı-ayrı, lokal sahə və ukladları yalnız onun (mədəniyyətin) vasitəsilə nizama düşür, fəaliyyət göstərir. İnstitusional təsisatların zəif fəaliyyət göstərdikləri sahələrdə (və eləcə də dövlətlərdə) mədəniyyət bir sistem kimi təsir göstərə bilmir, hakimiyyətin və ideologiyanın əlavəsinə çevrilir. Bu cəhətdən keçmiş sovet məkanında mədəni-etik baxışların formalaşması qanunauyğunluğu diqqəti cəlb edir. Sosializm cəmiyyətində qadın və kişilər hüquqi qanunlar çərçivəsində eyni dərəcədə qorunurdularsa, praktik həyatda vəziyyət başqa cür idi. Mövcud planlı cəmiyyətdə şəxsi-fərdi qabiliyyətdən daha çox, planlı inkişafa diqqət yetirilirdi. Kişilərlə yanaşı qadınlar parlament və hakimiyyətdə təmsil olunur, partiya və sovet orqanlarında təmsil edilirdilər. Lakin həmin dövrdə qadınların şəxsi keyfiyyət və bacarıqları deyil, hansı sosial zümrəyə,

peşə və sənətə mənsub olması daha önəmli idi. Lakin təəssüf doğuran faktdır ki, qeyd etdiyimiz kimi Azərbaycanın Milli Məclisində 125 millət vəkili yerindən cəmi 19-u qadınlara məxsusdur, bu da 16%-i təşkil edir. Halbuki ölkə əhalisinin yarıdan çoxu qadınlardır. İctimai sferalarda təmsilinə görə Azərbaycan qadınlarının tutduqları yer heç də ürəkaçan deyil. Ali təhsilli əhalinin təxminən yarısını qadınlar təşkil etdiyi halda, dövlət strukturlarında təmsil edilən qadınların faizi xeyli aşağıdır. Ölkədə partiya üzvlərinin sayının az qala yarısının qadınlardan ibarət olması da elə xoşagələn nəticələrə dəlalət etmir: Qadınların partiyalardakı funksiyalarına nəzər salanda bunun icraçılıqdan o yana keçməsinə nadir hallarda təsadüf edilir.

Qloballaşma dörd aspektdən – iqtisadi, sosial, siyasi və mədəni sferalarda dərin inkişaf etmişdir. Bəzən qeyd edildiyi kimi qloballaşma daha çox amerikanlaşmada (və yaxud çinləşmədə, yaponlaşmada) üzə çıxır. Bu prosesin simvolları pepsi, koka-kola, beysbolkalar, rep, rok, pop və s. hesab olunur. Qloballaşma prosesinin əsas daşıyıcıları MacDonalds, Pizza Hut, Nike, Adidas və b. firmalardır (Социология, 2004). Bütün tarix boyu qloballaşmanın ən yüksək mərhələsini təşkil edən XXI əsr, çox təəssüf hissi ilə qeyd etməliyik ki, dünyanı ağır sınaqlarından, müharibə və dağıntılardan xilas edə bilməmişdir. Bəşəriyyət yenə zorakılıqla üz-üzədir. Ailə və cəmiyyət daxilində cərəyan edən neqativ hadisələr qlobal miqyasda və fərdi spektrdə baş verməkdədir. Hələ 1970-ci ildə Parisdə UNESCO-nun təşkil etdiyi konfransda görkəmli fizioloq Xose Delqalo özünün parlaq eksperimentlərinə əsaslanaraq inamla bildirdi ki, yaxın beş il ərzində biz təcavüzkar davranışın müalicəsi sahəsində inqilabın şahidi olacağıq. Bu, müxtəlif yolxucu xəstəliklərin antibiotiklərlə müalicəsini xatırladan bir hal olacaqdır. Ötən 30 il ərzində planetdə təcavüz və onun nəticəsi olan zorakılıq nəinki azalmamış, əksinə, rəngarəng formalar kəsb etmişdir. XX əsrin son rübündə əhali artımının güclənməsi, urbanizasiya templərinin yüksəlməsi, şəhərlərin böyüməsi yalnız mənzil və qida problemləri doğurmur. Əsas cəhət ondan ibarətdir ki, əhalinin artımı cəmiyyətin hipertrofiyası insanların dözümlülük səviyyəsini azaldır, depressiv reaksiyaların, nevrozların və aqressiv davranışların sayını artırır.